Xalqın qəzeti!

# Xalq qəzeti

№ 20 (30989) 3 fevral 2026-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan – Birləşmiş Ərəb Əmirlikləri strateji tərəfdaşlığının yeni hədəfləri

## Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri

## Əbu-Dabinin Zayed Beynəlxalq Aeroportunda qarşılanma



Səhifə ⇨ 2

## Hərbi-diplomatik uğurdan sabaha baxış

*Azərbaycan BƏƏ ilə potensialını ortaq məkanda birləşdirir*




**Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında hərbi əməkdaşlığın yeni mərhələyə qədəm qoyması geniş regionun təhlükəsizlik mühiti üçün strateji əhəmiyyət daşıyan hadisədir. Əbu-Dabi şəhərində Azərbaycan və BƏƏ Müdafiə nazirlikləri arasında Birgə Hərbi Əməkdaşlıq Komitəsinin birinci iclasının keçirilməsi və yekun Protokolun imzalanması rəsmi Bakının çoxvektorlu hərbi diplomatiyasının növbəti uğurudur.**

Qeyd olunan görüşün mahiyyətinə vardıqda prosesin uzun müddətdir formalaşan strateji tərəfdaşlığın institusional hüquqi bazasının yaradılması məqsədi daşıdığı aydın görünür. İki ölkə arasındakı münasibətlərin tarixi dinamikası onu göstərir ki, iqtisadi və enerji sahəsində başlayan tərəfdaşlığın məntiqi davamı olaraq hərbi-texniki müstəviyə keçməsi qanunauyğunluq təşkil edir. Əbu-Dabidə baş tutan ilk iclas tərəflərin hərbi sahədə əməkdaşlığı sistemli, planlı və uzunmüddətli əsaslar üzərində qurmaq iradəsini nümayiş etdirir. İmzalanmış "Azərbaycan Respublikası və BƏƏ-nin Müdafiə nazirlikləri arasında keçirilmiş Birgə Hərbi Əməkdaşlıq Komitəsinin iclasının Protokolu" faktiki olaraq gələcək fəaliyyət planının yol xəritəsidir. Sənəd hərbi təhsil, birgə təlimlər, kəşfiyyat məlumatlarının mübadiləsi və müdafiə sənayesi sahəsində kooperasiya kimi vacib istiqamətləri əhatə edir.

*(ardı 6-cı səhifədə)*

## Azərbaycan Cənubi Qafqazın sülh qapısıdır



Səhifə ⇨ 6

## Körfəz ölkələrinin Azərbaycana marağı yüksəlir



Səhifə ⇨ 8

## İran təhdid hədəfində



Səhifə ⇨ 7

## Azərbaycan Prezidenti Gənclər Günü ilə bağlı paylaşım edib




**Azərbaycan Prezidenti İlham Əliyev sosial media hesablarında Gənclər Günü ilə bağlı paylaşım edib.**

**Paylaşımda deyilir:** "Biz gənc nəslimizlə haqlı olaraq fəxr edə bilərik!".

## Birinci vitse-prezident Mehriban Əliyevanın Gənclər Günü ilə bağlı paylaşımı




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesablarında Gənclər Günü ilə bağlı paylaşım edib.**

**Paylaşımda deyilir:** "Əminəm ki, Azərbaycan gəncləri öz uğurları, qələbə və nailiyyətləri ilə xalqımızı daim sevindirəcək və ölkəmizin inkişafına layiqli töhfələr verəcəklər".

## Regional böhranlar çevrəsində liderlik amili



Səhifə ⇨ 6

## Zaxarovanın açıqlaması və Paşinyanın "Şuşa rəqsi"



Səhifə ⇨ 4

## Aİ-də balans böhranı və Ukrayna məsələsi



Səhifə ⇨ 5

# Əbu-Dabinin Zayed Beynəlxalq Aeroportunda qarşılanma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfərə gəlib.**

Əbu-Dabinin Zayed Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan qarşıladı.

# 2 Fevral Gənclər Günü münasibətilə Azərbaycan gənclərinə

**Əziz gənclər!**

Sizi 2 Fevral Azərbaycan Gəncləri Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, yüksək əhval-ruhiyyə və gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 30 il əvvəl gənclərimizin geniş və açıq müzakirə tribunasına çevrilmiş ilk ümumrespublika gənclər forumunun keçirildiyi günün ölkəmizdə Gənclər Günü kimi qeyd olunması ənənəsi və bu cür forumların müntəzəm təşkili sübut edir ki, gənclər siyasəti dövlətimizin sosialyönümlü siyasətinin prioritet istiqamətlərindən biridir. Ötən onilliklər ərzində icra olunan dövlət proqramları nəticəsində gənclərin fərdi inkişafı və ictimai-siyasi fəallığının artması üçün əlverişli zəmin yaranmış və dövlət quruculuğunda onların rolu daha da güclənmişdir.

Sevindirici haldır ki, bu gün Azərbaycanda milli-mənəvi dəyərlərimizə dərindən bağlı olmaqla yanaşı, həm də müasir dünyanın inkişaf tendensiyası ilə ayaqlaşa bilən intellektual gənc nəsil formalaşmışdır. Sizlər bu gün iqtisadiyyatdan elm və mədəniyyətə qədər bütün sahələrdə dövlətimizin qüdrətini artıran bir qüvvəsiniz. Vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi, zəngin mədəni irsimizin qorunması və beynəlxalq aləmdə tanıdılması yolunda atdığınız hər addım xalqımızın ümumbəşəri ideallara sadiqliyinin ifadəsidir.

Dövlətimizin yaratdığı hərtərəfli şəraitin və aşıladığı vətənpərvərlik ruhunun nəticəsidir ki, Azərbaycan gəncliyi üçün böyük imtahan olan 44 günlük Vətən müharibəsində gənclərimiz misilsiz rəşadət göstərdilər. 30 illik işğala son qoyaraq xalqımızın Qələbə əzmini bütün dünyaya nümayiş etdirən qəhrəmanlarımızın əksəriyyətini məhz gənclər təşkil etmişdir. Bu Zəfər salnaməsi Azərbaycan gəncinin Vətənə sonsuz sevgisinin və sarsılmaz iradəsinin əbədi rəmzidir.

Əminəm ki, müasir tariximizin yeni intibah dövründə də Azərbaycan gəncliyi öz innovativ potensialı və yaradıcı enerjisi ilə dövlətimizin gələcək inkişafına layiqli töhfələr verəcəkdir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 fevral 2026-cı il**

# Azərbaycan qonşu İranla dostluq və qardaşlığa sadiqdir

**Yanvarın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana zəng edib.**

Söhbət zamanı Azərbaycan ilə İran arasında münasibətlərin dostluq, qardaşlıq və mehriban qonşuluq prinsiplərinə əsaslandığı və xalqlarımız arasında tarixi, etnik və dini bağların olduğu bir daha qeyd edilib.

Telefon danışığı əsnasında İran Prezidentinin Azərbaycana səfərləri, dövlət başçılarının görüşləri və apardıqları səmərəli danışıqlar məmnunluqla xatırlanıb, bunların ikitərəfli əlaqələrimizin inkişafına mühüm töhfə verdiyi qeyd olunub. Araz çayı üzərində Ağbənd və Kəlalə məntəqələrini birləşdirən avtomobil körpüsünün tikintisi üzrə işlərin qrafikə uyğun aparıldığı vurğulanıb.

Dövlətimizin başçısı bölgədə yaranmış vəziyyətin narahatlıq doğurduğunu ifadə edərək, Azərbaycanın gərginliyin aradan qaldırılmasına töhfə verməyə hazır olduğunu bildirib və ölkəmizin bu kimi məsələlərin danışıqlar və qarşılıqlı anlaşma yolu ilə həllinin tərəfdarı olduğunu vurğulayıb.

Prezident Məsud Pezeşkian öz tərəfindən Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Telefon söhbəti zamanı ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin müxtəlif aspektləri və gələcək birgə addımlar barəsində fikir mübadiləsi aparılıb, təmasların davam etdirilməsi barədə razılıq əldə olunub.

***Prezidentin Mətbuat Xidməti***

# Daxili işlər nazirinin Qəbələdə vətəndaş qəbulu və sıra baxışı





**Prezident İlham Əliyevin tapşırığına və bölgələr üzrə vətəndaş qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov fevralın 1–2-də Qəbələ rayonunda növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə Qəbələ rayonunda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib.

Daha sonra Polis Şöbəsinin inzibati binasında Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonlarından, eləcə də digər bölgələrdən qəbula gələn 314 nəfər vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Qəbula gələn vətəndaşların müraciətlərinin operativ və qanunvericiliyin tələblərinə uyğun həlli, habelə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə müvafiq tapşırıqlar verilib.

Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov polis və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib.

Sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 206 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 17 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

***XQ***

# Prezident İlham Əliyevin BƏƏ Prezidenti ilə görüşü







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 2-də Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla görüşü olub.**

Söhbət zamanı Azərbaycan-BƏƏ ikitərəfli əlaqələrinin strateji tərəfdaşlığa əsaslandığı vurğulanaraq, ölkələrimiz arasında əməkdaşlığın bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji, həmçinin bərpaolunan enerji, mədəni, humanitar və digər istiqamətlərdə inkişafından məmnunluq ifadə olundu, münasibətlərimizin genişlənməsində hər iki prezidentin Azərbaycana və BƏƏ-yə qarşılıqlı səfərlərinin, görüşlərinin önəmi qeyd edildi.

Görüşdə Əbu-Dabidə Azərbaycanın və Birləşmiş Ərəb Əmirliklərinin silahlı qüvvələri arasında keçirilən "Sülh Qalxanı – 2026" birgə əməliyyat-taktiki təliminin əhəmiyyətinə toxunuldu, bu təlimlərin iki ölkənin operativ hərbi uyğunluğun inkişafına töhfə verəcəyinə əminlik bildirildi və bunun gələcəkdə də davam etdirilməsinin önəmi vurğulandı.

Dövlət başçıları əlaqələrimizin perspektivlərinə və gələcək təmaslara dair fikir mübadiləsi apardılar.

Sonra Azərbaycan və BƏƏ prezidentlərinin iştirakı ilə "Cənub Qaz Dəhlizi" QSC-də İqtisadiyyat Nazirliyinə məxsus qeyri-nəzarət payının müəyyən hissəsinin Əbu-Dabi Milli Neft Şirkətinin investisiya qolu olan XRG şirkətinə satışı ilə bağlı alqı-satqı müqaviləsinə dair sənəd imzalandı.

Qeyd edək ki, səfər çərçivəsində Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Müdafiə Nazirliyi arasında müdafiə əməkdaşlığı razılaşması barədə niyyət məktubu da imzalanıb.

Azərbaycan və BƏƏ prezidentləri bu sənədlərin ölkələrimiz arasında əlaqələrin daha da inkişafına təkan verəcəyinə əminliklərini bildirdilər.

Söhbət zamanı Bakı ilə Əbu-Dabi arasında qardaşlaşma münasibətlərinin yaradılması məsələləri də qeyd edildi.

***AZƏRTAC***

# Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası olub.**

İclasda Konstitusiyanın 130-cu maddəsinin V hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, Ali Məhkəmənin Mülki Kollegiyasının 6 noyabr 2025-ci il tarixli qərarının Konstitusiyaya və qanunlarına uyğunluğunun yoxlanılmasına dair vətəndaş A.Şükürovanın şikayətinə baxılaraq, Plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.

Şikayətə mahiyyəti üzrə Konstitusiya Məhkəməsi Plenumunun fevralın 20-nə təyin edilmiş iclasında baxılacaq.

***XQ***

# Azərbaycan Gənclərinin XI Forumu







**Fevralın 2-də Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Gənclərinin XI Forumunun açılış mərasimi keçirilib. Tədbirdən öncə gənclər Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər.**

Əvvəlcə gənclər və idman naziri Fərid Qayıbov Prezident İlham Əliyevin Azərbaycan Gəncləri Günü münasibətilə gənclərə ünvanladığı müraciəti səsləndirib.

Sonra tədbirdə dövlətimizin başçısının yanvarın 30-da imzaladığı "2026-cı il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında" Sərəncamla Prezident mükafatlarına layiq görülmüş gənclərə mükafatlar təqdim olunub. Mükafatları Prezident Administrasiyası Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev, gənclər və idman naziri Fərid Qayıbov, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, mədəniyyət nazirinin müavini Murad Hüseynov təqdim ediblər.

Azərbaycan Gənclərinin XI Forumunda əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev qeyd edib ki, ötən il dövlət məşğulluq xidməti orqanları tərəfindən 125 minə yaxın gənclə iş aparılaraq, onların aktiv məşğulluq tədbirlərinə cəlb olunması təmin edilib. Onlardan 72,6 min gəncin işədüzəlməsi təmin olunub. Həmçinin gənclərin əmək bazarına inteqrasiyasında ən önəmli amillərdən biri də peşə hazırlığıdır. Nazirlik tərəfindən həyata keçirilən peşə hazırlığı gənclərin əmək fəaliyyətinə hazırlıq səviyyəsinin yüksəldilməsinə, innovativ düşüncə tərzinin və praktiki vərdişlərin inkişafına, habelə iqtisadiyyatın müxtəlif sahələri üzrə ixtisaslı kadr potensialının formalaşdırılmasına mühüm töhfə verir.




Nazir vurğulayıb ki, bu istiqamətdə 2025-ci il ərzində Dövlət Məşğulluq Agentliyi tərəfindən təşkil edilən peşə hazırlığı kurslarına 9,5 min gənc cəlb olunub.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov gənclər siyasətinin əsasının birbaşa ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğuna diqqət çəkib: "Ümummilli liderin gənclərə göstərdiyi diqqət və qayğı nəticəsində gənclər siyasəti üzrə möhkəm hüquqi baza formalaşdırılıb, bu sahədə mühüm fərman və sərəncamlar qəbul olunub. Həmin sənədlər gənclərin inkişafına güclü stimul verib və onların cəmiyyətin fəal üzvlərinə çevrilməsində mühüm rol oynayıb",- deyə nazir müavini vurğulayıb. O əlavə edib ki, hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Məhz bu uğurlu siyasətin nəticəsində ölkəmizin ərazi bütövlüyü bərpa olunub. Bu tarixi prosesdə gənclərimizin göstərdiyi şücaət hər zaman xüsusi vurğulanır və onlara böyük dəyər verilir.

Mədəniyyət nazirinin müavini Murad Hüseynov isə qeyd edib ki, gənclərin dünyagörüşünün formalaşmasında mədəniyyət aparıcı rol oynayır və bu amil gənclər siyasətinin mahiyyətinə də öz təsirini göstərir.

"Şanlı Zəfərimizlə formalaşan yeni ictimai reallıqlar, mədəniyyət sahəsində uzunmüddətli, inklüziv və gələcəyə yönəlmiş strategiyanın hazırlanmasını obyektiv zərurətə çevirib. Məhz bu məqsədlə Prezident İlham Əliyevin 2026-cı il 14 yanvar tarixli Sərəncamı ilə "Azərbaycan Mədəniyyəti – 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası təsdiq olunub",- deyə nazir müavini diqqətə çatdırıb.

Forum sessiya müzakirələrlə davam edib, qeyd olunub ki, fevralın 3-də Xankəndi Konqres Mərkəzində "Şəhərsalma və Memarlıq İli" sessiyası və "Gənclərin potensialı - milli inkişaf naminə" mövzusunda vörkşop olacaq.

Xatırladaq ki, birinci Azərbaycan Gəncləri Forumu ümummilli lider Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə 1996-cı il fevralın 2-də keçirilib. Bununla da Azərbaycan Gəncləri forumlarının keçirilməsi ənənəsi formalaşıb.

***XQ***

# Pakistanla qadın təhsili əməkdaşlığı müzakirəsi



**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Pakistan İslam Respublikasının federal təhsil və peşəkar təlim üzrə naziri Vaciha Qamar ilə ikitərəfli görüş keçirib. Görüş Misir Ərəb Respublikasının paytaxtı Qahirə şəhərində təşkil olunan "Dini və media diskursundan faydalanma, onun İƏT dövlətlərində qadınların hüquqlarının qorunması və təşviqinə təsiri" mövzusunda beynəlxalq konfrans çərçivəsində baş tutub.**

Görüş zamanı Bahar Muradova Azərbaycan ilə Pakistan arasında tarixən formalaşmış dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə, o cümlədən təhsil, sosial siyasət və gender bərabərliyi istiqamətlərində uğurla inkişaf etdiyini vurğulayıb. O, mövcud əməkdaşlığın daha da genişləndirilməsinin və institusional səviyyədə möhkəmləndirilməsinin vacibliyini qeyd edib.

Vaciha Qamar Azərbaycanın bu sahədə əldə etdiyi müsbət təcrübəni yüksək qiymətləndirib. Nazir qızların təhsilinə dəstək istiqamətində həyata keçirilən layihələrin əhəmiyyətini vurğulayaraq, sözügedən sahədə Azərbaycanla təcrübə mübadiləsinin aparılmasında maraqlı olduqlarını bildirib.

Görüş zamanı tərəflər gələcək əməkdaşlıq imkanları, birgə təşəbbüslərin reallaşdırılması və qarşılıqlı əlaqələrin dərinləşdirilməsi məsələləri ətrafında da fikir mübadiləsi aparıblar.

***XQ***

# Təhsil naziri səudiyyəli həmkarı ilə görüşüb



**Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev Səudiyyə Ərəbistanı Krallığına səfər çərçivəsində bu ölkənin təhsil naziri Yusif bin Abdullah əl-Binyan ilə görüşüb.**

Bu barədə E.Əmrullayev "X"dəki hesabında məlumat yayıb.

Görüş çərçivəsində iki ölkə arasında ali və peşə təhsili sahələrində əməkdaşlıq və yaxın gələcəkdə həyata keçirilməsi nəzərdə tutulan təşəbbüslər barədə ətraflı müzakirələr aparılıb.

***XQ***

# Özbəkistanla əməkdaşlıq müzakirə edilib



**Özbəkistanın xarici işlər nazirinin müavini Bobur Usmanov və Azərbaycanın bu ölkədəki səfiri Hüseyn Quliyev Daşkənddə keçirilən görüşdə 2026-cı il üçün əsas tədbirlərin gündəliyini müzakirə ediblər.**

Tərəflər 2025-ci il üzrə birgə işə yekun vurub, cari ildə ikitərəfli və çoxtərəfli əməkdaşlığın prioritetləri barədə fikir mübadiləsi aparıblar.

Görüşün yekunları üzrə iki ölkənin Xarici İşlər nazirlikləri arasında sıx işgüzar əlaqələrin davam etdirilməsi, həmçinin Azərbaycan və Özbəkistan arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin daha da dərinləşdirilməsinə yönəlmiş yeni təkliflərin hazırlanması ilə bağlı razılıq əldə edilib.

***XQ***

# İslamabadın beyin mərkəzində "Türkiyə və Azərbaycan" proqramı

**Pakistan Xarici İşlər Nazirliyinə bağlı fəaliyyət göstərən və bu ölkənin ən nüfuzlu beyin mərkəzlərindən olan Regionşünaslıq İnstitutunun tərkibində xüsusi analitik şöbə kimi yaradılan "Türkiyə və Azərbaycan" proqramının açılışı olub, habelə bu münasibətlə təşkil edilmiş "Ortaq perspektivlər və regional sabitlik: Türkiyə, Azərbaycan və Pakistan" adlı seminar keçirilib.**




Tədbirdə Azərbaycanın səfiri Xəzər Fərhadovun, Türkiyənin səfiri İrfan Neziroğlunun və həmin beyin mərkəzinin prezidenti səfir Cauhar Salimin məruzələri dinlənilib. Çıxışlar zamanı 3 dost ölkə arasında ortaq tarixi, dini və mədəni təməllər üzərində qurulmuş qardaşlıq əlaqələrinin keçmişi, bu günü və sabahı barədə iştirakçılara məlumat verilib.

Qardaş ölkələr arasındakı bağların möhkəmləndirilməsində Azərbaycan, Türkiyə və Pakistan liderlərinin müstəsna rolu xüsusilə vurğulanıb. Qeyd olunub ki, üçtərəfli əməkdaşlıq formatının davamlı olması üç ölkənin xalqlarının inkişafı ilə yanaşı, regional və qlobal sülhün və sabitliyin möhkəmlənməsinə də xidmət edəcək.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***XQ***

# "AnewZ" ölkəmizin Vatikanla dialoqundan sənədli film çəkib

**"AnewZ" telekanalı Azərbaycan və Vatikan arasındakı münasibətlərə, eləcə də dini irsin qorunması üzrə birgə layihələrə həsr olunmuş "Sanctum: Azərbaycan və Müqəddəs Taxt" adlı sənədli film hazırlayıb.**




Filmdə vurğulanır ki, Azərbaycan müxtəlif konfessiyalara aid dini ibadətgahların ayrı-seçkilik abidələri kimi deyil, harmonik birgəyaşayışın sübutları kimi qorunduğu nadir ölkə nümunəsidir. Məscidlər, kilsələr və sinaqoqlar burada müxtəlif mənəvi irsin bərabərhüquqlu simvolları kimi yer alıb.

Azərbaycan Katolik Kilsəsinin Apostolik prefekti yepiskop Vladimir Fekete burada təxminən 20 il yaşayır və ölkədə xüsusi bir tolerantlıq mühitinin olduğunu vurğulayır. Onun sözlərinə görə, Azərbaycandakı ümumi atmosfer və insanlar arasındakı münasibətlər çox isti, açıq və dostcadır.

Filmdə Vatikan Apostol Kitabxanası və arxivinin rəhbəri monsenyor Covanni Çezare Paqatsi qeyd edib ki, hər bir xalq və hər bir mədəni ənənə özünəməxsus intellekt formasına malikdir. Onun sözlərinə görə, bu mənada, Azərbaycan tədqiqatçılarının arxiv və kitabxana işinə verdiyi töhfə yalnız onların təklif edə biləcəyi xüsusi, unikal baxış yaradır. "Müqəddəs Arxeologiya üzrə Papa Komissiyasının Heydər Əliyev Fondu ilə əməkdaşlıq təcrübəsi çox müsbət olub. İlk növbədə, bu əməkdaşlıq uzun müddət davam edib, bu da bizə irsin qorunması üçün bir sıra əhəmiyyətli layihələri həyata keçirməyə imkan verib", - Müqəddəs Arxeologiya üzrə Papa Komissiyasının katibi Rafaella Culiani deyib.

Film göstərir ki, Azərbaycan və Vatikan arasında əməkdaşlıq təkcə diplomatiya üzərində yox, həm də etimad, hörmət və mənəvi irsin qorunması üçün birgə məsuliyyət üzərində qurulub. Müqəddəs yerlərin qorunması bəşəriyyətin ümumi yaddaşına töhfə kimi qəbul edilir, dinlərarası dialoq isə sərhədləri, dini etiqadları və siyasəti aşan dinc yaşayış modelini təsdiq edir.

Xatırladırıq ki, filmi telekanalın əməkdaşı İradə Həsənova hazırlayıb. Rejissor isə Bəhruz Qədirovdur.

***XQ***

# Milli Məclisin yaz sessiyası başlandı




**Fevralın 2-də Milli Məclisin yaz sessiyasının ilk plenar iclası keçirildi. Yaz sessiyasını açıq elan edən parlamentin sədri Sahibə Qafarova çıxışında bildirdi ki, Milli Məclis ötən ili uğurla başa vurub və Prezident İlham Əliyevin daxili və xarici siyasətini qanunvericilik səviyyəsində dəstəkləmək üçün zəruri addımlar atıb. Sədrin sözlərinə görə, parlamentin beynəlxalq fəaliyyəti sessiyalararası dövrdə də davam edib: deputatlar 2 beynəlxalq təşkilatın tədbirlərində iştirak edib, 6 ölkəyə 18 səfər həyata keçirilib, Milli Məclisdə 44 nəfərlik 6 xarici ölkənin nümayəndə heyəti qəbul olunub. S.Qafarova, həmçinin yanvarın 25–29-da Milli Məclisin nümayəndə heyətinin Bəhreyn, BƏƏ və Omana rəsmi və işgüzar səfərlərini uğurlu qiymətləndirdi.**

Çıxışında Gənclər Günü münasibətilə Azərbaycan gənclərini təbrik edən Sahibə Qafarova onların 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatlarında mühüm rol oynadığını bildirdi. Sonda yaz sessiyasının gündəliyinə toxunan spiker sessiyasın yüksək səviyyədə keçəcəyinə əminliyini ifadə etdi.

Daha sonra Milli Məclisin deputatları Tahir Rzayev, Razi Nurullayev, Zahid Oruc, Fazil Mustafa, Elnarə Akimova, Rövşən Muradov, Vüqar Bayramov, Fazil Mustafa və digərləri cari məsələlərlə bağlı fikirlərini bölüşdülər. R.Nurullayev mənzil-tikinti kooperativlərinin (MTK) məsuliyyətsizliyindən şikayətini dilə gətirdi: "Bu gün yüzlərlə ailə yarımçıq qalan binaların girovuna çevrilib. Səbəb isə açıqdır: bəzi MTK-ların məsuliyyətsizliyi, maliyyə intizamsızlığı və rəhbərliyin hüquqi problemləri. Təəssüf ki, mövcud qanunvericilik vətəndaşı tam qoruya bilmir. Bu sahədə artıq konkret mexanizmlər yaradılmalıdır. "İstədiyini tik, pulu necə gəldi xərclə, sonra məsuliyyətdən yayın" dövrü bitməlidir".

Daha sonra çıxış edən Fazil Mustafa dövlət sektorunda və bəzi strateji müəssisələrdə baş verən ixtisarların cəmiyyətdə potensial təhlükə yarada biləcəyindən bəhs etdi. Onun sözlərinə görə, müvafiq dövlət qurumlarında çoxsaylı işçilər ixtisar olunub və eyni zamanda, Xəzər Dəniz Gəmiçiliyi və Bakı Metrosunda da ixtisarlar müşahidə edilir: "İxtisar olunan işçilərin həm işlə təmin olunması, həm də müavinət ödənişlərinin təmin olunması vacibdir. Metroda çıxarılanlara işə götürəcəkləri vədi verilib, amma reallıqda onlar işlə təmin edilmir". F.Mustafa qeyd etdi ki, işsizlərin sayının artması dövlətlə vətəndaş arasında gərginliyi artıra, sosial sabitliyi təhlükəyə ata bilər.

***

Cari məsələlər ətrafında aparılan müzakirələrdən sonra gündəliyə keçid edildi. İlk olaraq "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Konstitusiya qanununun layihəsi səsverməyə çıxarıldı. Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli layihə barədə məlumat verdi. O qeyd etdi ki, Milli Məclisin iclasında Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Naxçıvan Muxtar Respublikasının Bakıdakı daimi nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov və digər nümayəndələr iştirak edirlər.

Qanun layihəsi ətrafında aparılan müzakirələrdə deputatlar çıxışlar etdilər. Fazil Mustafa Naxçıvan MR-in dövlət kimi tanıtımının konstitusiyadan çıxarılmalı olduğunu bildirdi. Milli Məclisin deputatı Əli Hüseynli isə öz növbəsində həmkarının fikrinə münasibət bildirərək, yenidən diskussiya açmağa ehtiyac olmadığını bildirdi: "Onu xatırlatmaq istəyirəm ki, Naxçıvan MR-in statusu konstitusiyada 8-ci fəsildə ehtiva olunub. Əsas mətnin dəyişdirilməsi, müzakirəsi tamamilə fərqli prosedur. Bu gün bu məsələ aktual deyil". Aparılan müzakirələrdən sonra Konstitusiya qanununun layihəsi səsə qoyularaq II oxunuşda qəbul edildi. Həmçinin "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinin aktları artıq qərar deyil, sərəncam adlandırılacaq.

Daha sonra Milli Məclisin 2026-cı il yaz sessiyasının qanunvericilik işləri planı ətrafında geniş müzakirələr aparıldı. Milli Məclisin deputatları Azay Quliyev, Zahir Oruc, Bəhruz Məhərrəmov və başqaları plana münasibətlərini bildirdilər. Azay Quliyev son dövrlər rəqəmsal klonlama və rəqəmsal təhlükəsizliklə bağlı narahatlıqların xeyli artdığını bildirdi. Onun sözlərinə görə, bir sıra şəxslərin, o cümlədən dövlət rəsmilərinin, hətta Prezidentin adından klonlaşdırılmış, saxta və yanlış məlumatlar yayılır. Deputat bildirdi ki, yaranmış vəziyyətin qarşısı alınmalı, rəqəmsal təhlükəsizliklə bağlı ayrıca qanun layihəsi hazırlanmalıdır. Edilən çıxışlardan sonra sessiya müddətində Dövlət Qulluğu Məcəlləsi, "Uşaq hüquqları haqqında" və 2025-ci ilin dövlət büdcəsinin icrası haqqında qanun layihələrinin qəbulu, həmçinin Azərbaycan Prezidentinin, deputatların, Ali Məhkəmənin, seçki hüququ olan 40 min vətəndaşın, Prokurorluğun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi qanun layihələri və qüvvədə olan müxtəlif qanunlarda dəyişikliklər edilməsi haqqında qanun layihələri səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul olundu.

MM-in Hesablayıcı və İntizam komissiyalarının yeni tərkibdə formalaşması barədə qərar səsləndirildi. Hesablayıcı komissiyasının tərkibinə deputatlar Eldar Quliyev, Mixail Zabelin, Sevinc Hüseynova, Naqif Həmzəyev, Rövşən Muradov, Soltan Məmmədov və Səbinə Salmanova, İntizam komissiyasının tərkibinə isə Eldar İbrahimov, Asim Mollazadə, Kamal Cəfərov, Afət Həsənova, Məlahət İbrahimqızı, Kəmaləddin Qafarov, Səttar Möhbaliyev, Nəsib Məhəməliyev, Hikmət Məmmədov, Məşhur Məmmədov, Nizami Səfərov daxil edildilər. Hər iki qərar layihəsi səsə qoyularaq qəbul edildi.

Milli Məclis İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasına yeni üzvlərin namizədliyini təsdiqlədi. İdman federasiyaları tərəfindən Rəşad Rəsullu, dini konfessiyalar tərəfindən Salman Musayev, yaradıcılıq təşkilatları tərəfindən isə Həcərxanım Babayeva Yayım Şurasının yeni üzvləri seçildilər. Layihə səsverməyə çıxarılaraq qəbul olundu.

Gündəliyin növbəti məsələsi Azərbaycan və İordaniya arasında imzalanmış gömrük işi sahəsində əməkdaşlıq sazişi MM tərəfindən ratifikasiya edildi. Plenar iclasda, həmçinin "Əməyin Təhlükəsizliyi və Gigiyenasının Təşviq Edilməsinin Əsasları haqqında" 187 nömrəli Konvensiya da eyni qaydada ratifikasiya edilərək səsvermədən sonra qəbul olundu. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində Azərbaycan Respublikası ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamaların 2027-ci il yanvarın 1-dək dayandırılması barədə sənəd səsverməyə qoyularaq qəbul edildi.

Gündəlikdə duran növbəti məsələlər - Vergi Məcəlləsində, "Banklar haqqında" və "Gömrük tarifi haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında" və "Onkoloji yardım haqqında", Gömrük Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və "Qiymətli metallar və qiymətli daşlar haqqında", "Büdcə sistemi haqqında", "Mühasibat uçotu haqqında" və "Dövlət satınalmaları haqqında" qanun layihələri birinci, "Patent haqqında" və "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" qanun layihələri isə ikinci oxunuşda səsverməyə çıxarılaraq qəbul edildilər.

Bununla da MM-in yaz sessiyasının ilk plenar iclası öz işinə yekun vurdu.

***Tacir SADIQOV***
***XQ***

# Zaxarovanın açıqlaması və Paşinyanın "Şuşa rəqsi"

## *Rusiya XİN-in sözçüsü nəyi və hansı səbəbdən yada salıb?*

**Əslində, Ermənistanın baş naziri Nikol Paşinyan, yumşaq desək, düz etməyib. Onun ordu günü ilə bağlı xalqa müraciət ünvanlamasını anladıq. Bəs həmin müraciətdə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının adını çəkmək nəyə lazımdır? Paşinyan nəinki KTMT-dən danışıb, habelə, qurumu Ermənistan qarşısındakı öhdəliklərini yerinə yetirməməkdə günahlandırıb. Hər halda, keçmişin söhbətinə qayıtmaq lazım deyil. Nəyə görə lazım deyil, bu barədə söz açacağıq. Əvvəlcə iki məqamı vurğulayaq. Birincisi, KTMT-də hakim rol Rusiyaya məxsusdur və ölkənin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Ermənistanın Verelq İnformasiya Agentliyinə açıqlamasında Paşinyanın dediklərinə münasibət bildirib.**



İkincisi, Nikol anti-KTMT ritorikası çərçivəsində 2022-ci ilin sentyabrını yada salıb. O da məlumdur ki, həmin vaxt Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunun təxribatlarının qarşısını birdəfəlik kəsmək üçün şərti sərhəddəki bəzi strateji yüksəklikləri ələ keçirdi və bu, rəsmi İrəvan tərəfindən qəsb kimi qiymətləndirildi.

Nəzərə alaq ki, 2022-ci ilin sentyabrında Qarabağdakı sabiq separatçı rejim hələ mövcudiyyətini qoruyurdu. Rejimin əsas dayağı Ermənistan Azərbaycanın ərazi bütövlüyünü şübhələndirirdi. Hələ Paşinyan administrasiyasının Qarabağ erməniləri üçün beynəlxalq təminat oyunu da var idi. Yəni rəsmi İrəvan dolayısı ilə separatçılığa leqal don geydirməyə çalışırdı. Deməli, belə bir durumda ölkəmizi işğalçı adlandırmaq yolverilməz idi. Amma... "Əmma"sı budur ki, hazırda Ermənistan Azərbaycanla sülh yolundadır və bu durumda 2022-ci ilin ritorikasına baş vurmaq yerinə düşmür. Hətta bu ritorikanın hədəfi KTMT-nin timsalında Rusiya dövləti olsa da. Onu da nəzərə alaq ki, Paşinyan xalqa müraciətində təkcə KTMT-ni Ermənistanı köməksiz qoymaqda günahlandırmayıb, həmçinin, peşəkar siyasətçiyə yaraşmayan fikir bildirib. Bunu da diqqətə çatdıracağıq.

Əlqərəz, M.Zaxarova Paşinyanın dediklərinə münasibət bildirərkən, mübahisə doğurmuş fikrin Qarabağ ətrafındakı vəziyyətə nəzərən dilə gətirildiyini deyib: "Amma mən xatırlaya bilmirəm ki, həmin ərazi hüquqi baxımdan Ermənistanın bir hissəsi elan edilsin. Yadıma düşən yalnız odur ki, Nikol Paşinyan ora getmişdi və orada rəqs edirdi. Bunu xatırlayıram. Amma həmin ərazinin Ermənistan dövləti tərkibinə daxil edilməsi barədə mənə heç nə məlum deyil. Ola bilsin, siz nəsə eşitmisiniz?", – deyən M.Zaxarova, faktiki olaraq, Rusiya tərəfindən zaman-zaman səslənmiş tezisi yenidən qabardıb. Tezis budur ki, əgər Ermənistan Qarabağı öz ərazisi kimi tanısaydı, Rusiya ona kömək edərdi. Müvafiq olaraq, belə bir tanınma olmadığından KTMT səssiz qalıb. Əlbəttə, mövcud yanaşmanın da separatizmə dəstək mahiyyəti daşıdığı birmənalıdır və postsovet məkanında yaşanan münaqişəli durumlara diqqət yetirsək, bunun Moskvanın ənənəvi dəst-xətti olduğunu söyləmək mümkündür. Görəsən, Ermənistanın Qarabağı öz ərazisi kimi tanımasını əsas götürən Kremlin ona kömək göstərməsinin normal məntiqi varmı? Əlbəttə ki, yox! Deməli, hazırda Zaxarovanın, ümumən isə Rusiya rəsmilərinin əvvəllər mövcud xüsusda bildirdikləri fikirlər absurddur.

Yeri gəlmişkən, Ermənistanın üzvü olduğu KTMT ilə ziddiyyətlərinin kökü də gedib 2022-ci ilin sentyabrına çıxır. Məlum olduğu kimi, rəsmi İrəvan hələ 44 günlük müharibə dönəmində qurumun hərbi əməliyyatlara qoşulmasını istəyirdi. Lakin mövcud istiqamətdəki cəhdlər başlanğıcdaca uğursuz olduğundan, Paşinyan administrasiyası məsələni anti-Rusiya kampaniyası halına gətirmədi. Digər tərəfdən, savaş gedə-gedə belə bir addım atmaq Ermənistana sərfəli deyildi. Paşinyan, necə deyərlər, əl yeri qoyurdu. Amma 2022-ci ildə fərqli durum yarandı. Qərblə, xüsusən Fransa ilə yaxınlığı gücləndirən Nikol və komandası Rusiyanı gözdən salmaq kursunu açıq müstəviyə daşıdı və Azərbaycanın həmin ilin sentyabrında şərti sərhəddə Ermənistanın törətdiyi təxribata cavabını işğalçılıq prizmasından qiymətləndirdi. Paşinyan hesab etdi ki, artıq KTMT dövriyyəyə girə bilər. Daha doğrusu, o, qurumun timsalında məhz anti-Rusiya ovqatını gücləndirməyin vaxtının yetişdiyini düşündü. Yəni başlıca məqam heç də ölkəni qorumaq deyildi. Nikola bəhanə lazım idi ki, onu da tapdı.

Erməni baş nazir KTMT-nin Azərbaycana qarşı çıxmasının çətinliyini anlamamış olmazdı. Axı təşkilatda ölkəmizlə kifayət qədər sıx münasibətlərdə olan dövlətlər təmsil olunurlar, bu, öz yerində. Həmçinin bu dövlətlərin anti-Azərbaycan kampaniyasına qoşulmamaq üçün konkret səbəbləri var idi. Səbəb bu idi ki, Azərbaycan–Ermənistan sərhədləri dəqiqləşməyib və buna görə KTMT-nin təsir dairəsini müəyyənləşdirmək qeyri-mümkündür. 3 il əvvəl bu cavab barıt çəlləyini ildırımın vurması effekti yaratdı. Paşinyan KTMT-nin Ermənistan qarşısındakı öhdəliklərini yerinə yetirmədiyini, ölkənin təhlükəsizlik çağırışlarına cavab vermədiyini bildirməyə başladı. Sonra rəsmi İrəvanın qurumdan çıxmaqla bağlı eyhamlarının, Ermənistanın təşkilatdakı fəaliyyətini dondurduğunun şahidi olduq. İndi də KTMT-nin toplantılarına qatılmır, qurumu boykot yolu tuturlar. Bu yerdə Paşinyanın Rusiyanın hakim rol oynadığı təşkilatla əlaqədar fikirlərindəki yeniliyə nəzər salaq. Əlbəttə, buna yenilik demək mümkündürsə.

Beləliklə, Ermənistan baş naziri ordu günü ilə bağlı xalqa müraciətində keçmişdə yaşananlar xüsusunda onu da bildirib ki, KTMT-dəki tərəfdaşlar 2022-ci ilin sentyabr ayına olan vəziyyətə görə Ermənistanın təhlükəsizliyinin və ərazi bütövlüyünün təminatı ilə bağlı müqavilə öhdəliklərini yerinə yetirməkdən imtina edir, həmçinin ödənişi edildiyi yüz milyonlarla dollar dəyərində silah və hərbi texnikanın tədarükünə razılıq vermirdilər: "Bu, Ermənistan üçün ekzistensial təhlükə yaradırdı və aydın idi ki, dövlətçiliyimizin məhv edilməsi və suverenliyimizin ləğvi barədə qərar qəbul olunub".

Belə bir fikirdən sonra M.Zaxarova hiddətlənməsin, nə etsin? "Mən başa düşmədim, məhv etmə barədə qərarı kim qəbul edib? Bağışlayın, amma mənə elə gəlir ki, bu, sadəcə olaraq, bir-biri ilə əlaqəsi olmayan söz yığınıdır. Yoxsa o (Paşinyanı nəzərdə tutur – red.), erməni dövlətçiliyinin məhvində KTMT-ni ittiham edir? Açığı, bunları dinləmək mənə bir qədər qəribə gəlir. Ola bilsin, siz sitatı düzgün vermirsiniz? Gəlin, sitatı dəqiqləşdirək", – deyən Zaxarovanın yadına məsələnin 2022-ci ilin olayları ilə bağlılığı salınıb. Yəni Verelq İA-nın müxbiri bildirib ki, durumun, guya, Qarabağa aidiyyəti yoxdur. Amma məsələnin Qarabağ bağı var. Çünki Ermənistan sərhəd təxribatlarını Qarabağ avantürasının tərkib hissəsi olaraq törədir, çalışırdı ki, Azərbaycanı sərt davransın, ölkəmiz əleyhinə beynəlxalq miqyasda təbliğat aparsın, nəticədə həmin avantüranın ömrü uzansın. Mahiyyətcə, İrəvanın anti-KTMT kursu da eyni məqsəddən qaynaqlanırdı.

Başqa sözlə desək, Ermənistan Qarabağ məsələsini Rusiyanın təsir dairəsindən çıxarıb Qərbin egidasına daxil etməklə separatizmin ömrünü uzatmağa ümid bəsləyirdi. Bunların heç biri alınmasa da, Paşinyan Ermənistanda anti-KTMT və anti-Rusiya ovqatını diri tutmağı bacardı və bunun bir səbəbi Rusiyanın özü ilə bağlıdır.

Hazırda M.Zaxarova hiddətlənməkdə haqlıdır. Dəqiqləşdirməkdən söz düşmüşkən isə o bildirib: "Gəlin, dəqiqləşdirək ki, konkret olaraq nə nəzərdə tutulur. Çünki doğrudan da, bu formulda çoxlu naməlum məqamlar var və onda biz söhbətin nədən getdiyini və buna necə münasibət bildirməyin mümkünlüyünü anlamayacağıq. Mən, həqiqətən, KTMT tərəfindən erməni dövlətçiliyinə qarşı hansı təhlükələrdən danışıldığını başa düşmürəm. Ola bilsin, söhbət başqa şeydən gedir. Ona görə bu qədər anlaşılmazlıq olan sitatı şərh edə bilmirəm. Gəlin, dəqiqləşdirək, ya sizə fərdi qaydada, ya da sonra mütləq bütün bunlara münasibət bildirəcəyik".

Sonda onu da bildirək ki, M.Zaxarovanın nəyisə dəqiqləşdirməsinə ehtiyac yoxdur. Çünki Paşinyanın fikri ortadadır. Əvvəldə isə Nikolun ritorikasının normal siyasətçi yanaşmasına uyğun olmadığını vurğuladıq. Paşinyanın ara-sıra ölkəsindəki anti-Rusiya ovqatını saxlamaq üçün müəyyən gedişlər etdiyini məntiqi saysaq da, indiki durumda onun barıtı çox etdiyi aşkardır. Görəsən niyə?

Belə nəticəyə gəlmək olar ki, baş nazir yayda ölkəsində keçiriləcək parlament seçkiləri ilə bağlı fəaliyyətin, obrazlı desək, anti-Rusiya rənglərini tündləşdirməklə məşğuldur və ona görə pafosa güc verib. Sən demə, Ermənistanın məhvi ilə bağlı qərar verilibmiş, Paşinyan və komandası buna imkan verməyibmiş. Üstəlik, məhvetmə 2022-ci il hadisələri zamanı planlaşdırılmışdısa, bunun icraçısı Azərbaycan olmalıymış. Görəsən, buna neçə nəfər inandı? Aydındır ki, ölkəmizin belə bir niyyəti olsaydı, 44 günlük müharibəni dayandırmaz, məğlub Ermənistana sülh əlini uzatmazdı.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Azərbaycan cəmiyyətinin “özünütəftiş”i



## II MƏQALƏ

### Milli-etnik mənşə saxta təftişçilik prizmasında

Müxtəlif anlayışlar və terminlərin təftişi, əlbəttə, çox vacibdir və bu, istənilən toplumda ola bilər. Burada başlıca məsələ “təftişi”n ümumi milli maraqlardan kənara çıxmaması ilə bağlıdır. Həmin prizmada indi müəyyən dərəcədə müzakirə predmeti olan “azər”, yoxsa “azəri” sözü daha uyğundur?” sualına cavab axtarışları başa düşüləndir. Bir sıra cəhətdən, hətta vacibdir. Ancaq burada məsələ azərbaycanlıların mənşəyi “türk və ya qeyri-türkdür” dixotomiyası çərçivəsində qoyulmamalıdır. Sual azərbaycanlıların türk etnik mənşəyinə hansı sözün – “azər”, yaxud “azəri”nin daha adekvat olması kontekstində qoyulmalıdır. Belə olmasa, məsələ saxta “özünüyaratma” kimi anlamsız bir məcraya istiqamətlənər və bizim müstəqil dövlət quran qövm kimi müasir mövcudluğumuzun ana şərtləri ilə tərs düşər.

Təbii ki, “özünütəftiş” kontekstində bugünkü vəziyyət vurğulanan məsələ ilə məhdudlaşmır. Hətta bir sıra elm adamları tərəfindən milli mənşə ilə bağlı qondarma “nəzəri yanaşmalar” irəli sürülür. Onlar məhdud sayda olsalar da, niyyətləri qəbuledilməzdir. Qondarma “tarixi faktlar”a əsaslanaraq və əslində cəmiyyəti çaşdırmaq məqsədi güdən yanaşmalarla Azərbaycan cəmiyyətini tarixi təkamül yolundan sapdırmağa cəhdlər edirlər.

Bu zaman əksər hallarda həm Azərbaycan cəmiyyətinin əsas mənəvi-əxlaqi, mədəni, ideoloji, psixoloji dəyərlərini, həm də müasir həyat tərzini aşağılamaq cəhdləri müşahidə edilir. Onun fonunda isə Azərbaycan cəmiyyətini müxtəlif məsələlərdə Türkiyə və başqa türk cəmiyyətləri ilə qarşı qoymaq səylərinə rast gəlinir. Bunu daha çox KİV vasitəsilə etməyə çalışanlar vardır.

Hər iki istiqamət üzərində “özünütəftiş” kontekstində bir qədər detallı dayanaq. Burada psixoloji olaraq çətinlik onunla bağlıdır ki, həqiqi mənada Azərbaycan cəmiyyətinin mənəvi, mədəni, əxlaqi, sosial, psixoloji və digər sferalarda özünütəftiş etməsinə ehtiyac yaranmışdır. Bunun əsas səbəbi Vətən müharibəsindəki qələbənin cəmiyyətə gətirdiyi “yeni novatorluq ruhu”nun şəkilləndirilməsinə (bütün sahələr üzrə məzmunlaşdırılmasına) ciddi tələbatın (və ya sosial və milli sifarişin) meydana gəlməsi ilə əlaqəlidir.

Biz, əsrlərdən sonra özünüqalibiyyət fəlsəfəsi ilə yeniləşdirmiş toplum olaraq ruhumuza, özünüinkişaf etdirmək üsulumuza “təkrar idraki daxil olmalıyıq”. Toplumsal miqyasda özünüdərketmə situasiyasına təkrar daxilolmanın elmi məntiqi əsasını Lütfi Zadənin qeyri-səlis məntiq təlimi və Con Spenser Braunun “forma” məntiqi təşkil edir.

Bu iki məntiqin ortaq şərtləri (bu, ayrı tədqiqat mövzusudur) daxilində yeniləşən Azərbaycan cəmiyyətinin və özünün inkişafının yeni mərhələsinə qədəm qoymuş müstəqil Azərbaycan dövlətçiliyinin identikliyinin təkamülünü strateji səviyyədə bizim üçün aktual vəzifəyə çevirmişdir. Qeyd edilən müasir elmi məntiqlərin ortaq idrakı sahəsində yuxarıda vurğuladığımız və birbaşa Azərbaycan cəmiyyəti ilə bağlı olan özünüyeniləşdirmənin elmi obrazını yaratmaq mümkündür. Bu zaman həm cəmiyyətdaxili mühitdə, həm də bütövlükdə türk dövlətləri arasındakı münasibətlər arealında süni yaradılmağa çalışılan qeyri-müəyyənliklərin təbiətini, məqsədini və məzmununu da adekvat dərk etmək olar. Bütövlükdə isə prosesin ümumi nəzəri mənzərəsini yaratmaq şansı əmələ gələ bilər. Həmin ümumi nəzəri mənzərə və ya elmi modelin işığında ayrı-ayrı detalları görmək və qiymətləndirmək mümkündür.

Onu vurğulayaq ki, belə bir məntiqi yanaşma işığında “cəmiyyətin özünütəftişi” nəinki arzuolunandır, hətta bir tarixi-sosial, toplumsal və dövləti sifarişdir. Bu tezisin müstəqil dövlətçilik kontekstində çox əhəmiyyətli və güclü məqsəd özəlliyi tərəfi mövcuddur. O, Azərbaycan dövləti və qövmü üçün həyati vacib məsələdir.

İndi bu məqam üzərində dayanaq və onun üzərində “təftişin” özünüinkişaf etdirmək fəlsəfəsi çərçivəsində necə ola biləcəyinə nəzər salaq.

### “Özünütəftiş” tarixi-sosial və rəsmi sifariş kimi

Nə yaxşı ki, ənənəvi olaraq azərbaycanlılar özünütənqidə çox həssas olmuşlar. Bizim qövm olaraq həmin keyfiyyətə malik olmağımızı yüksək dəyər kimi qəbul etməliyik. Ancaq o da var ki, bizlər heç də hər zaman cəmiyyət və dövlətin mövcud olan “təbii hüdudları” daxilində hərəkət etmirik – yaradıcılıq potensialımız sərhədsizdir və bu özəllik bir sıra hallarda ümumi maraqlara zərər verə bilir. Məsələn, keçən əsrin 90-cı illərində müstəqilliyi əldə etdik və dərhal uzaqlara “bayraq sancmaq” eşqini dilə gətirdik. Halbuki Azərbaycan müstəqil dövlətçiliyinin “sifarişi” öncə özündə güclü və qalib dövlət qurmağı tələb edirdi (ona görə ki, müstəqilliyin faktiki əldə edilməsi ilə ərazimizə xarici təcavüz zamanca eyni vaxtda olmuşdu).

Deməli, Azərbaycanın ənənəvi olaraq “özünə yenidən baxmaq” məsələsinə həssaslığı həm böyük üstünlükdür, həm də ona praqmatik yanaşmayanda tarixi-sosial, toplumsal və dövləti sifarişlər yanlış başa düşülə bilər. İndiki mərhələdə də cəmiyyətin özünütəftişi əsas olaraq bu iki mühüm faktorun semantik və məqsəd sahələrində “özünütəsdiqə” çevrilməyə çalışır. Ancaq anlamağımız gərəkdir ki, özünütəftişin bizi qane edən şərtlər daxilində özünütəsdiqi üçün toplumsal miqyasda baza prinsipləri aydın dərk etməliyik. Hər tarixi dönəmdə onlar fərqlənə bilər. Əvvəlki mərhələ üçün adekvat sayılan kriteriyalar, şərtlər indi keçərsiz ola bilər.

Belə məqamlarda liderin irəli sürdüyü fundamental tezislərə çox həssas olmalı və onları qəbul etməliyik. Azərbaycan üçün yeni tarixi mərhələnin başladığını bəyan edən Prezident İlham Əliyev çıxışlarında həmin fundamental tezisləri çox aydın ifadə etmişdir. Əminik ki, Azərbaycan cəmiyyəti “özünütəftişi” həmin tezislərin semantik və məqsəd sərhədləri daxilində aparmalıdır. Onlardan kənara çıxmaq indiki mərhələdə cəmiyyət və dövlət olaraq faydamıza deyildir!

Biz hansı tezisləri nəzərdə tuturuq?

### “Özünütəftiş”in fundamental tezisləri

Azərbaycan Prezidenti İlham Əliyev cəmiyyətin yeni tarixi mərhələdə yeniləşməsini zərurət kimi müəyyən etmişdir. Bu mövqenin başlıca tezisi qalib xalqın və dövlətin əldə etdiyi nailiyyətlərlə kifayətlənməyərək siyasi, mədəni, ideya, ideoloji, dövlət quruculuğu varisliyi əsasında bütövlük və birliyi tam təmin etmək şərti ilə bütün istiqamətlərdə yeni davranış nümunələrini formalaşdırmaqla bağlıdır.

Həmin ümumi fəaliyyət çərçivəsində sosial-siyasi, mədəni və digər fəaliyyətlərin konkret istiqamətləri də müəyyən edilmişdir. Bu miqyasda baza tezislər aşağıdakı kimidir: birincisi, Azərbaycan cəmiyyəti identikliyini mütləq qorumalı, saxlamalı, lakin, eyni zamanda, XXI əsrin çağırışlarına adaptasiya etməlidir, ikincisi, Azərbaycan dövləti regional miqyası aşaraq regionlararası və qlobal səviyyələrdə sülh şəraitində yaşamağın başlıca milli kriteriyalarını formalaşdırmalıdır, üçüncüsü, cəmiyyət-hakimiyyət birliyi milli maraqlar üzərində toplumun özünə yenidən baxışını formalaşdırmalı və bu zaman bütövlüyün bütün sferalar üzrə təmini şərtindən kənara çıxmamalıdır.

Beləliklə, Azərbaycan Prezidenti ümumi strateji inkişaf xəttini dəqiq müəyyən etmişdir. Bu prosesin daha geniş dinamika sahəsini də müəyyənləşdirmişdir. Həmin xüsusiyyət dövlət başçısının fikirlərində aydın əks olunmuşdur. Prezident İlham Əliyev 2024-cü il fevralın 14-də Andiçmə mərasimindəki nitqi zamanı ayrıca vurğulamışdır: “Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır”.

Fikirlərini tam əsaslandırmaq üçün ölkə rəhbəri dörd mühüm faktı vurğulayır.

Birincisi, “Əgər kimsə hesab edir ki, biz başqa yerdə ailə axtarmalıyıq, – deyə bilərəm ki, bizi heç yerdə gözləmirlər və bunu artıq gizlətmirlər. Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı və açıq-aydın burada ayırıcı xətlər müşahidə olunur”.

İkincisi, “Biz o ayırıcı xətləri çəkməmişik, biz bu ayırıcı xətlərin əleyhinəyik. Biz, hətta cəmi üç ölkənin yerləşdiyi Cənubi Qafqazda bu gün bu ayırıcı xətləri açıq-aydın görürük. Belə olan halda, bizi haradasa qəbul etmək istəməyənlərə biz baş əyməliyikmi? Qətiyyən, bu, olmayacaq!”.

Üçüncüsü, Azərbaycan Prezidenti artıq unudulmaz tarixi fakt olan “bizimlə oynamaq istəyənlərin” istəkləri fonunda dövlətin geosiyasi seçimini bir daha xüsusi vurğulayır: “Bizim ailəmiz Türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır”.

Nəhayət, dördüncüsü, Azərbaycan Prezidentinin həmişə olduğu kimi, milli maraqlara dayanan ümumi qənaətində hər şeydən öncə hər bir üzvünün güclü və müstəqil olması şərti üzərində bərqərar ola biləcək müstəqil və güclü dövlətlər birliyini yaratmaq zərurəti vurğusudur: “Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik”.

Dövlət başçısının vurğuladığı fundamental fəaliyyət tezislərinin ümumi məna sahəsi tam aydındır. Burada tarixi təcrübənin müxtəlif aldadıcı geosiyasi əməkdaşlıq təklifləri və modellərinə artıq məsafəli davranmaq zərurətinin qəbul edilməsi ilk sıradadır. Bu əsaslı geosiyasi seçimdən sonra hansı ölkələr və cəmiyyətlərlə strateji müttəfiqliyə üstünlük verilməli olduğu da dəqiq müəyyən edilmişdir: Türk dövlətləri və cəmiyyətləri, yəni Türk dünyası ailəsi ilə!

### Müstəqil dövlətlərin nüfuzlu güc mərkəzi

Vurğulanan iki fakt əsasında ölkə rəhbəri dövlətin başlıca strateji məqsədini də ifadə etmişdir – güclü milli dövlət qurmaqla TDT-ni dünya siyasətinin müstəqil və nüfuzlu güc mərkəzinə çevirmək! Yəni Türk dünyasının hər bir dövləti, birincisi, müstəqil güclü dövlət olmalıdır, ikincisi, həmin dövlətlər maksimum dərəcədə fəaliyyətlərində sinerji yaradaraq təşkilat kimi ədaləti, haqqı, sülhü təmin edən və qarşılıqlı qazanc gətirən əməkdaşlıq platformalarını formalaşdıran güc mərkəzi olmalıdırlar!

Deməli, bir soydan, kökdən olan xalqların müstəqil güclü dövlətləri dünya miqyasında böyük anlamda konstruktiv, yaradıcı, birləşdirici və faydaverici, yüksək nüfuzu olan təşkilatda birləşməlidirlər! Bu dövlətlərin hər bir cəmiyyəti də avtomatik olaraq mütəmadi “özünütəftiş”ində həmin fundamental tezislərin şərtlərini ciddi nəzərə almalıdırlar.

Belə alınır ki, hər bir türk xalqı özünü daim daxilən yeniləməlidir, lakin başlıca hədəfi heç zaman arxa plana atmamalıdır. Yəni özünə və digər türk xalqlarına son dərəcə yüksək sayğı ilə baxmalıdır. Bu qənaətin fonunda yuxarıda vurğuladığımız və vurğulamadığımız, lakin Azərbaycan cəmiyyətinin etnik və mədəni mənşəyində çaşqınlıq yaratmağa istiqamətlənmiş fəaliyyətlərin nə dərəcədə “özünütəftiş”ə uyğun olması üzərində düşünə bilərik.

Kimlərsə, “yeni baxış” adı altında Azərbaycan cəmiyyətinin toplumsal kimliyini, dövlət olaraq identikliyini təhrif etmək amaclı fikirlər ortaya atırsa, bunun cəmiyyətin həqiqi “özünütəftiş”inə heç bir aidiyyəti yoxdur. “Azəri” sözünü “türk olmamaq” anlamında cəmiyyətə sırımağa çalışan varsa, milli kimliyə qəsd edir. Bunu qəbul etmək mümkün deyildir!

Və yaxud Azərbaycan türkünün kimliyini Səfəvi–Osmanlı və ya məzhəb mənsubluğu dixotomiyası çərçivəsində aktuallaşdırmağa baş vurursa, eyni dərəcədə anti-Azərbaycan mövqe nümayiş etdirir. Belə hərəkətlərin əsas sifarişçilərinin kənarda olduğuna şübhə yoxdur. Çünki çox böyük boyda Azərbaycanda yaşayanlarda Vətən anlamı yüksəkdir. Bunu Vətən müharibəsi də bir daha təsdiq etdi!

Həmin səbəbdən əsas məsələ də dezinformasiyaların qarşısının alınması mexanizminin mükəmməl hazırlanması ilə bağlıdır. Burada KİV-in üzərinə böyük məsuliyyətin düşdüyünü inkar etmək olmaz! Yəni ortaya atılmış, bölücü, çaşdırıcı düşmənçilik əhvali-ruhiyyəsi yaradan fəaliyyətin gerçəkçi “özünütəftiş” və ya “yeniləşmə” olmadığı cəmiyyətdə təşviq edilməlidir.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Aİ-də balans böhranı və Ukrayna məsələsi

*Strateji uyğunsuzluqların anormal anatomiyası*



**Avropa İttifaqı son onilliklərdə bir neçə paralel böhran dalğası ilə üz-üzə qalıb. Proseslərin hər biri qurumun institusional dayanıqlılığını və siyasi koordinasiya qabiliyyətini sınağa çəkib. Lakin hazırkı mərhələdə problem artıq Birliyin öz daxilində davamlı və işlək balans mexanizmi formalaşdıra bilməməsindən irəli gəlir.**

Xatırladaq ki, Aİ-nin fəaliyyəti kompromislər üzərində qurulmuşdu. Əslində bu, təbiidir, çünki müxtəlif iqtisadi və siyasi mədəniyyətlərə, təhlükəsizlik prioritetlərinə malik dövlətlərin vahid masa arxasında qərar qəbul etməsi heç də asan deyil. Lakin əvvəlki mərhələlərdə Fransa–Almaniya oxu bu balansın əsas dayağı kimi çıxış edirdi. Son illərdə bu mexanizmin zəiflədiyi açıq şəkildə hiss olunur. Almaniyanın daxili siyasi transformasiyası, enerji strategiyasında yaşadığı sarsıntılar və hərbi-siyasi ehtiyatlılığı Fransa üçün liderlik boşluğu yaradıb. Paris bu boşluğu doldurmağa çalışsa da, nəticə etibarilə həm Aİ daxilində, həm də ölkə daxilində artan gərginliklə üzləşir. Fransanın daxili siyasi mənzərəsi ilə Aİ-dəki institusional gərginliklər arasında paralellər də təsadüfi deyil. Parisdə sosial narazılıqların dərinləşməsi, siyasi spektrin kəskin qütbləşməsi və icra hakimiyyətinin manevr imkanlarının daralması Fransa diplomatiyasının Avropa miqyasında daha sərt və bəzən riskli təşəbbüslərlə çıxış etməsinə səbəb olur. Bu isə konsensus üzərində qurulmalı olan Aİ mexanizmlərində əlavə gərginlik yaradır. Nəticədə qurumun aparıcı dövlətlərindən birinin daxili qeyri-sabitliyi ümumi Avropa balansına birbaşa təsir göstərir.

Ukrayna məsələsi ziddiyyətlərin ən kəskin təzahür etdiyi sahələrdən biridir. Aİ daxilində Ukraynaya siyasi, maliyyə və hərbi yardımın zəruriliyi ilə bağlı razılaşma mövcuddur. Əksər üzv dövlətlər bu yardımı həm beynəlxalq hüququn müdafiəsi, həm də Avropanın təhlükəsizlik arxitekturasının qorunması kimi qiymətləndirir. Amma bu yekdillik Ukraynanın Aİ-yə üzv qəbul edilməsi məsələsində yoxdur. Artıq prinsipial dəstəkdən çox, praktiki nəticələr və uzunmüddətli təsirlər ön plana çıxır. Macarıstanın Baş naziri Viktor Orbanın Ukraynanın 2027-ci ildə Aİ-yə üzvlüyü planına qarşı kəskin mövqeyi də məhz sözügedən narahatlıqların ifadəsi kimi dəyərləndirilə bilər. Orbanın arqumentləri əsasən iqtisadi və institusional çərçivəyə söykənir, Ukraynanın sürətli üzvlüyünün Aİ büdcəsinə ciddi yük gətirəcəyi, xüsusilə mərkəzi və şərqi Avropa ölkələrinin struktur fondlarından aldıqları payın azalacağı ehtimalı vurğulanır. Bu mövqe çox vaxt siyasi ritorika prizmasından şərh edilsə də, əslində, Aİ-nin genişlənmə mexanizminin maliyyə dayanıqlılığı ilə bağlı real sualları gündəmə gətirir.

Digər tərəfdən, Ukrayna Prezidenti Volodimir Zelenskinin 2027-ci ili üzvlük hədəfi kimi dəstəkləməsi ölkəsinin strateji seçimlərinin məntiqi davamıdır. Müharibə şəraitində olan bir dövlət üçün Aİ üzvlüyü həm də siyasi təhlükəsizlik və institusional qoruma mexanizmi kimi qəbul edilir. Avropa Komissiyasının 2027-ci il ilə bağlı rəsmi təsdiq verməməsi qurum daxilindəki ehtiyatlı yanaşmanın göstəricisidir. Komissiya bir tərəfdən Ukraynaya siyasi dəstəyi davam etdirməyə çalışır, digər tərəfdən genişlənmə prosesinin texniki və hüquqi şərtlərinin icrasının zaman tələb etdiyini anlayır.

2026-cı ildə Aİ daxilində strateji müzakirələrin kəskinləşməsi təsadüfi deyil. Qarşıdan gələn institusional islahatlar, yeni büdcə dövrü və geosiyasi risklərin artması fonunda üzv dövlətlər öz prioritetlərini yenidən müəyyənləşdirməyə çalışırlar. Bu mərhələdə Ukraynanın üzvlüyü məsələsi bir növ “lakmus kağızı”nı xatırladır. Cənub üzvləri üçün miqrasiya və Aralıq dənizi təhlükəsizliyi ön plandadır. Qərbi Avropa dövlətləri isə sosial-iqtisadi sabitliyi və daxili siyasi balansı qorumağa çalışır. İtaliyanın sözügedən məsələdəki mövqeyi də diqqət çəkir. İtaliya Baş nazirinin müavini və xarici işlər naziri Antonio Tayani “Corriere della Sera”ya müsahibəsində bildirib ki, Balkan ölkələri Avropa İttifaqına qoşulma prosesində bir sıra digər ölkələrə nisbətən prioritetə malikdirlər. “Biz Ukraynanın Aİ-yə daxil olmasını dəstəkləyirik, amma Balkanlar birinci yerdədir. Biz onlara qarşı öhdəliklər götürmüşük və onlar bizim üçün prioritetdir”, – deyə o vurğulayıb.

Aİ daxildə balans formalaşdıra bilməməsini, sadəcə, cari siyasi böhranla əlaqələndirmək düzgün olmaz. Qurumun qərar qəbuletmə mexanizmləri sürətlə dəyişən geosiyasi mühitə adekvat cavab verməkdə çətinlik çəkir. Konsensus prinsipi üzv dövlətlərin suveren narahatlıqlarını qorumaq baxımından əhəmiyyətli olsa da, strateji çevikliyi zəiflədir. Ukrayna məsələsi bu paradoksu açıq şəkildə üzə çıxarır. Yəni siyasi həmrəylik var, lakin institusional qərarlılıq çatışmır. Bu kontekstdə diqqətçəkən məqam Aİ-nin genişlənmə siyasətinin tarixi təcrübəsidir. Şərqi Avropa ölkələrinin 2004 və 2007-ci illərdə sürətli inteqrasiyası həmin dövrdə Avropanın geosiyasi optimizmi ilə müşayiət olunmuşdu. Lakin sonrakı illərdə iqtisadi qeyri-bərabərliklər, hüququn aliliyi ilə bağlı mübahisələr və mərkəz–periferiya gərginliyi göstərdi ki, genişlənmə prosesinin sürəti ilə institusional uyğunlaşma arasında ciddi uyğunsuzluqlar mövcuddur.

Aİ-nin institusional böhranını həm də kommunikasiya böhranı adlandıra bilərik. Üzv dövlətlərin ictimaiyyətlərinə Ukrayna məsələsinin real nəticələri kifayət qədər açıq izah edilmir. Nəticədə populist və sadələşdirilmiş narrativlər üçün geniş meydan yaranır. Bu vəziyyət Aİ daxilində qərar qəbuletmənin legitimliyini sual altına alır və strateji məsələləri daxili siyasi alətə çevirir.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Yeganə HACIYEVA,**
**politoloq**

Aİ-də genişlənmə məsələləri yekdillik prinsipinə əsaslanır. Böyük, ya kiçikliyindən asılı olmayaraq istənilən üzv dövlətin etirazı prosesi faktiki olaraq dayandırır. Qeyd etmək lazımdır ki, Ukraynanın Aİ-yə üzvlüyü məsələsində üzv ölkələrin etiraz səbəbləri müxtəlifdir. Konkret Macarıstan nümunəsinə baxsaq, Orban hökumətinin əsas narahatlığı Aİ-nin tədricən milli dövlətlərdən suveren səlahiyyətləri alaraq onları Brüsseldə mərkəzləşdirməsidir. Bu narahatlıq yalnız Macarıstana xas deyil. Aİ sistemli şəkildə üzv dövlətlərin milli hökumətlərinin məhkəmə sistemi, media, QHT-lər, miqrasiya və ailə siyasəti sahəsindəki səlahiyyətlərini öz üzərinə götürür, birbaşa təsir və nəzarət mexanizmləri formalaşdırır. Ukrayna ilə ortaq müdafiə mexanizmlərinin qurulması və Aİ–NATO koordinasiyasının gücləndirilməsi isə qaçılmaz olaraq milli qərarvermə imkanlarını daha da zəiflədəcək. Macarıstan və bu yanaşmadan narazı olan digər ölkələr milli orduların və müstəqil qərarvermə hüquqlarının qorunmasını vacib hesab edirlər. Bu mövqe həmin ölkələrin konstitusion tələbləri ilə də uzlaşır. Paralel olaraq, Ukraynanın Aİ fondlarından böyük həcmdə maliyyə vəsaiti alması bu resurslara daha sərt nəzarət və mərkəzləşdirilmiş audit mexanizmlərinin yaradılmasını qaçılmaz edəcək. Bu presedent gələcəkdə oxşar mexanizmlərin Macarıstan və digər üzv ölkələrə də tətbiq oluna biləcəyi ehtimalını yaradır.

Aİ tarixində ilk dəfə olaraq aktiv müharibə şəraitində olan bir ölkənin üzvlüyünün müzakirə edilməsi Birliyi avtomatik şəkildə münaqişənin bir tərəfinə çevirə bilər. Bu baxımdan, məsələ mediada təqdim olunduğu kimi yalnız Macarıstanın və ya Orbanın Rusiya ilə münasibətləri izah edilə biləcək qədər bəsit deyil. Əsas narahatlıqlar Brüsselin səlahiyyətlərinin genişlənməsi, milli hökumətlərin manevr imkanlarının daralması, “dəyərlər” adı altında siyasi təzyiq mexanizmlərinin güclənməsi və digər daha dərin struktur riskləri ilə bağlıdır. Ukrayna isə bu proseslərin səbəbi deyil, daha çox Aİ üçün bir növ “bəhanə katalizator” rolunu oynayır. Bir sözlə, Ukraynanın üzvlüyü Aİ-ni daha federal və mərkəzləşmiş bir struktura yaxınlaşdıra bilər. Konsensus məsələsinə gəldikdə isə qeyd etmək lazımdır ki, Brüsseldə artıq klassik “tam üzvlük” modelindən uzaqlaşma tendensiyası açıq şəkildə hiss olunur. Aİ rəsmiləri getdikcə daha çox alternativ, çevik inteqrasiya formalarının müzakirəsinə üstünlük verirlər. Mənim fikrimcə, Ukraynanın Aİ-yə üzvlüyü ilə bağlı ən real ssenari mərhələli üzvlük modelidir. Bu model çərçivəsində Ukrayna ilkin mərhələdə vahid bazara çıxış əldə edə, bəzi Aİ fondlarından yararlana və hətta məhdud qərarvermə hüquqlarına sahib ola bilər.

# Regional böhranlar çevrəsində liderlik amili

**Müasir beynəlxalq münasibətlər sistemində regional böhranların idarə olunması dövlətlərin hərbi və iqtisadi potensialı ilə yanaşı, liderlərin strateji düşüncə qabiliyyəti və diplomatik manevr imkanları ilə müəyyən olunur. Xüsusilə Yaxın Şərq və Cənubi Qafqaz kimi yüksək riskli geosiyasi zonalarda liderlik amili praqmatik vasitəçilik və preventiv diplomatiya modelləri ilə tamamlanır. Məhz bu kontekstdə Azərbaycan Prezidentinin İran ətrafında formalaşan gərginlik fonunda ortaya qoyduğu mövqe diqqətəlayiq analitik təhlil təqdim edir.**



Azərbaycanın son onillikdə keçdiyi hərbi-siyasi yol onu müharibə və sülh arasında strateji seçimlərin real qiymətini bilən aktor kimi formalaşdırıb. Azərbaycan üçün hərbi qələbə yeni və daha mürəkkəb mərhələnin başlanğıcı olub. Postmünaqişə dövründə diplomatik aktivliyin saxlanılması, beynəlxalq platformalarda mövqelərin ardıcıl izahı və regional inteqrasiya təşəbbüslərinin irəli sürülməsi göstərir ki, Bakı müharibədən sonra yaranan reallığı yalnız güc faktoru üzərində saxlamamağın vacibliyini düzgün qiymətləndirir. Azərbaycanın bu təcrübədən çıxardığı əsas dərslərdən biri odur ki, müharibə idarəolunmayan prosesə çevrildikdə onun nəticələri yalnız qarşı tərəfi deyil, bütün regionu qeyri-sabitlik spiralına sürükləyir. Buna görə də rəsmi Bakı hərbi gücü siyasi məqsədlərə xidmət edən alət kimi saxlayır, lakin onu regional böhranlarda avtomatik seçimə çevirmir.

İran ətrafında formalaşan gərginlik fonunda Azərbaycanın mövqeyi məhz bu praktiki təcrübənin məhsulu kimi ortaya çıxır. Bakı üçün burada əsas sual "kim haqlıdır" müzakirəsi deyil, mümkün eskalasiyanın Azərbaycanın təhlükəsizlik mühitinə necə təsir göstərəcəyi məsələsidir. Yəni qərarlar ideoloji simpatiyalar üzərindən deyil, risklərin miqyası və nəticələrin idarəolunma imkanları əsasında formalaşdırılır.

Siyasi analitik baxımdan diqqətəlayiq olan məqam ondan ibarətdir ki, Azərbaycan böhranlara münasibətdə qısamüddətli siyasi dividendlər naminə sərt ritorikaya və ya nümayişkaranə addımlara üstünlük vermir. Əksinə, səssiz diplomatiya, birbaşa təmaslar və balanslaşdırılmış mesajlar vasitəsilə gərginliyin nəzarətdən çıxmasının qarşısını almağa çalışır.

Azərbaycan–İran münasibətləri kontekstində "strateji səbir" anlayışı rasional davranış modelidir. Coğrafi yaxınlıq, uzun sərhəd xətti, qarşılıqlı iqtisadi və humanitar əlaqələr bu münasibətləri alternativsiz edir. Belə şəraitdə impulsiv və emosional xarici siyasət xətti dövlət üçün təhlükəsizlik risklərini artıran faktora çevrilə bilər. Məhz bu səbəbdən Bakı qonşuluq münasibətlərini uzunmüddətli sabitlik prizmasından idarə etməyə üstünlük verir.

*

Keçmiş mərhələlərdə ikitərəfli münasibətlərdə yaşanan gərginliklər Azərbaycanın bu yanaşmasının təsadüfi olmadığını göstərir. Təhlükəsizlik insidentləri və açıq ritorik qarşıdurmalar regional balansı pozmaq potensialı daşısa da, Bakı bu epizodları münasibətlərin struktur əsasını dəyişəcək böhranlara çevirməməyə çalışıb. Burada əsas siyasi seçim ondan ibarət olub ki, vəziyyətə cavab vermək üçün emosional simmetriya yolu seçilməsin. Əksinə, Azərbaycan bu çağırışları daha geniş geosiyasi kontekstdə oxuyaraq, öz davranışını sistemli və qabaqlayıcı şəkildə formalaşdırıb. Reaktiv siyasətdən imtina bu modelin əsas fərqləndirici cəhətidir. Reaktiv yanaşma adətən qarşı tərəfin addımlarına dərhal cavab verməyi, siyasi jestlərin və ritorikanın gücləndirilməsini nəzərdə tutur ki, bu da eskalasiya spiralını sürətləndirir. Proaktiv balanslaşdırma isə prosesin ritmini idarəyə, zaman amilindən öz xeyrinə istifadə etməyə və münasibətləri strateji səviyyədə tənzimləməyə imkan yaradır. Azərbaycan məhz ikinci yolu seçərək vəziyyəti təhlükəsizlik maraqları çərçivəsində nəzarətdə saxlamağa çalışır.

Böhran anlarında diplomatik kanalların açıq saxlanılması Azərbaycanın strateji səbir modelinin praktik ifadəsidir. Bir çox hallarda səfirliklərin bağlanması və ya təxliyə çağırışları böhranı faktiki olaraq beynəlxalqlaşdırır və eskalasiyanı sürətləndirir. Azərbaycan isə diplomatik mövcudluğu qorumaqla qarşı tərəfə açıq mesaj verir: dialoq üçün platforma mövcuddur və vəziyyət nəzarətdən çıxmayıb. Azərbaycanın regional və qlobal proseslərdə nisbi üstünlüklərindən biri onun çoxvektorlu diplomatik arxitekturasıdır. Bu arxitektura Prezident İlham Əliyevin illər ərzində ardıcıl şəkildə qurduğu praqmatik xarici siyasət xəttinin nəticəsidir. Azərbaycanın xarici siyasəti proqnozlaşdırıla bilən davranış və qarşılıqlı fayda prinsipi üzərində qurulub. Bütün bunlar isə rəsmi Bakıya müxtəlif geosiyasi qütblərlə paralel işləmək imkanı verir və onu regional qarşıdurmaların avtomatik iştirakçısına çevrilməkdən qoruyur.

İran–İsrail və ABŞ–İran gərginliyi fonunda bu diplomatik konfiqurasiya Azərbaycanın vasitəçilik imkanlarını obyektiv şəkildə genişləndirir. Azərbaycan bu proseslərdə tərəflərin qərarvermə məntiqini anlayan və onların təhlükəsizlik narahatlıqlarını oxuya bilən aktor kimi çıxış edir. Prezident İlham Əliyevin şəxsi diplomatiyası bu kontekstdə mühüm rol oynayır. Onun həm regional liderlərlə, həm də qlobal güc mərkəzlərinin siyasi rəhbərliyi ilə qurduğu birbaşa ünsiyyət kanalları Bakının diplomatik manevr imkanlarını əhəmiyyətli dərəcədə artırır.

Politoloji dildə desək, Azərbaycan bu konfiqurasiyada "etibarlı kommunikator" funksiyasını yerinə yetirə bilən aktordur. Unikal vasitəçilik potensialının digər mühüm cəhəti ondan ibarətdir ki, Azərbaycan regional proseslərdə tərəflərdən heç birinin təhlükəsizlik maraqlarını açıq şəkildə inkar etmir. Əksinə, Bakı münaqişələrin kəskinləşməsinin bütün tərəflər üçün itkilər yaratdığını vurğulayan rasional xətt yürüdür. Son illərin beynəlxalq təcrübəsi göstərir ki, mürəkkəb və çoxsəviyyəli böhranlar şəraitində boşluğu liderlərarası münasibətlər və şəxsi diplomatiya doldurur. Liderlər arasında formalaşan birbaşa ünsiyyət və qarşılıqlı etimad kanalları bir çox hallarda uzun prosedurları və institusional məhdudiyyətləri aşaraq daha çevik qərarların qəbuluna imkan yaradır.

*

Prezident İlham Əliyevin şəxsi diplomatiyasının əsas xüsusiyyəti proqnozlaşdırıla bilən davranışa söykənməsidir. Beynəlxalq siyasətdə məhz bu xüsusiyyət – sabitlik və ardıcıllıq – liderlərarası etimadın formalaşmasında həlledici rol oynayır. İlham Əliyevin müxtəlif siyasi və ideoloji mövqelərə malik liderlərlə eyni dərəcədə işçi dialoq qura bilməsi Azərbaycanın diplomatik çevikliyini artıran əsas faktorlardan biridir. Şəxsi diplomatiya xətti Azərbaycanın beynəlxalq təşəbbüslərdə konstruktiv tərəfdaş kimi qəbul olunmasına şərait yaradır. Sülh platformalarında iştirak, çoxtərəfli formatlarda fəallıq və regional dialoq təşəbbüslərinin təşviqi bu yanaşmanın praktik nəticələridir.

İran ətrafında formalaşmış vəziyyət bir daha göstərir ki, müasir geosiyasətdə əsas üstünlük böhranların idarə olunması qabiliyyətindədir. Azərbaycan bu prosesdə emosional və populist ritorikadan uzaq, riskləri ölçən və mümkün nəticələri əvvəlcədən hesablaya bilən siyasi davranış modeli nümayiş etdirir. Prezident İlham Əliyevin rəhbərliyi altında formalaşmış bu siyasi davranış modeli Azərbaycanın regional sistemdə "stabilizator aktor" rolunu möhkəmləndirir. Bakı nə qarşıdurmaları qızışdıran, nə də proseslərdən



kənara çəkilən tərəf kimi çıxış edir; Bakı risklərin idarə olunmasına töhfə verən güc funksiyasını yerinə yetirir.

Son olaraq qeyd edək ki, uzunmüddətli perspektivdə məhz bu tip rasional, balanslaşdırılmış və proqnozlaşdırıla bilən liderlik modelləri regional münaqişələrin genişmiqyaslı qarşıdurmalara çevrilməsinin qarşısını alan əsas amillərdən biri kimi çıxış edir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Azərbaycan Cənubi Qafqazın sülh qapısıdır



**Azərbaycan ərazisindən tranzit keçməklə Ermənistana növbəti yük göndərilib. Bu dəfə ümumi çəkisi 1746 ton olan 25 ədəd taxıl yüklü vaqon Biləcəri Dəmiryol Stansiyasından yola salınıb. Fakt onu göstərir ki, Ermənistana dəmir yolu və kommunikasiya xətlərinin açılması praktik icraya keçib. Bu, yalnız nəqliyyat məsələsi deyil, həm də Azərbaycan–Ermənistan münasibətlərində etimadın formalaşması və sülh gündəliyinə təsir edən strateji hadisədir.**

Xüsusi diqqətçəkən məqam odur ki, Rusiya istehsalı olan taxılın Azərbaycan üzərindən Ermənistana göndərilməsi son 35 ildə ilk dəfə baş verir. Yük qatarlarının həcmi təkcə bu partiya ilə məhdudlaşmayıb. İndiyədək 285 vaqon, ümumi çəkisi təxminən 19 min 900 ton olan taxıl Azərbaycan və Gürcüstan ərazilərindən Dalarik stansiyasına çatdırılıb. Baş nazir Nikol Paşinyan bu prosesi müsbət qiymətləndirib. Yəni İrəvanın mövqeyi təkcə taktiki dəyişiklik deyil, strateji baxışda da yenilənib. Əvvəllər Azərbaycan ərazisindən keçən yollar İrəvan tərəfindən təhlükəsizliyinə və suverenliyinə təhdid kimi kimi qəbul edilirdisə, indi eyni marşrut bu ölkə üçün ərzaq təhlükəsizliyi və iqtisadi maraqlar baxımından zəruri hesab olunur.

Digər mühüm aspekt isə regionda marşrutların yalnız Azərbaycan üzərindən səmərəli işləməsidir. Rusiyadan başqa, Qazaxıstanın da Ermənistana taxıl göndərməsi və aylıq 15–20 min ton tədarük potensialı bu reallığı bir daha təsdiqləyib. Aydındır ki, İrəvan üçün bu dönüş nöqtəsi illərdir davam edən logistik təcridin acı nəticələrinin dərk edilməsindən qaynaqlanıb. Ölkənin xarici dünya ilə yeganə quru bağlantısı olan "Yuxarı Lars" keçidinin təbiət hadisələri, qar uçqunları və ya siyasi təlatümlər səbəbindən mütəmadi bağlanması Ermənistan iqtisadiyyatını daimi ərzaq böhranı və inflyasiya riski altında saxlayıb. Azərbaycan üzərindən açılan nəqliyyat imkanı isə bu asılılığı azaldır. Bu, İrəvana nümayiş etdirir ki, real sabitlik "qapalı sərhəd" və hərbi izolyasiya modelində deyil, şəffaf regional inteqrasiyadadır. Azərbaycanla əməkdaşlıq onun maraqlarına xidmət edir.

Bundan başqa, Rusiya və Qazaxıstan kimi böyük aktorların Azərbaycan marşrutunu ən etibarlı və qısa yol kimi seçərək Ermənistana irihəcmli yüklər göndərməsi, əslində, sülh prosesinə beynəlxalq səviyyədə güclü təminat mexanizmini yaradıb. Çünki tranzit əlaqələrinin kəsilməməsi və bu xətlərin təhlükəsizliyi artıq yalnız Bakı və İrəvanın deyil, həm də regional güclərin, iri ixracatçıların və beynəlxalq bazar iştirakçılarının birbaşa iqtisadi marağına çevrilib. Bu iqtisadi zəncir bütün tərəflərin maraqlarına xidmət edir.

"Taxıl diplomatiyası" yalnız qida təhlükəsizliyi və humanitar yardım müstəvisində deyil, həm də Ermənistan daxilindəki destruktiv və revanşist qüvvələrin manipulyasiya imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırıb. Əvvəllər ideoloji xülyalar, mənasız düşmənçilik ritorikası və hərbi şantaj kimi yanaşmalar müəyyən təbəqələr üçün cəlbedici görünə bilərdi. Lakin reallıq budur ki, iqtisadi mənfəət, ucuz və etibarlı logistika, dolanışıq imkanları və gündəlik həyatın rahatlığı qarşısında belə ideyalar öz təsirini itirir. İnsanlar artıq hərbi ritorikanın və millətçi hay-küyçülüyün yox, praktiki və əlçatan həllərin nəticəsini görürlər.

Hazırda bölgədə polad relslər və asfalt yollar üzərində qurulmuş ən güclü və dayanıqlı infrastruktur formalaşır. Bu, təkcə Azərbaycanın ixrac və nəqliyyat potensialının artmasını təmin etmir, eyni zamanda, Ermənistan üçün də yeni imkanlar açır. Azərbaycanın təqdim etdiyi logistik imkanlar Ermənistan üçün sadəcə tranzit və ya iqtisadi əməkdaşlıq vasitəsi deyil, onun "həyat yolu"dur. Bu yol vasitəsilə ölkə ərzaq təchizatı, enerji resursları və digər strateji malları daha sərfəli və etibarlı şəkildə əldə etmək imkanı qazanıb. Yanacaq tədarükü də bu reallıqdan xəbər verir. Artıq Azərbaycan ərazisi vasitəsilə taxıl və neft məhsullarının tədarükündən sonra Ermənistan bu marşrutla mayeləşdirilmiş təbii qazın (LNG) idxalı imkanlarını da nəzərdən keçirir. Bununla da Azərbaycan öz iqtisadi resursları və imkanları ilə Ermənistana bir növ "süni nəfəs" verərək ticarət əlaqələrinin formalaşmasına dəstək olub. Ölkəmiz qarşıdakı illərdə də ticarət əlaqələrini genişləndirməklə müxtəlif sahələrdə əməkdaşlıq imkanlarını artırmağı hədəfləyib.

Hadisələrin bu fonunda İrəvan üçün ən yaxşı seçim isə məhz açıq əməkdaşlıq və inteqrasiyadır. Ona görə də, "taxıl diplomatiyası" onlar üçün həm iqtisadi, həm siyasi, həm də sosial baxımdan səmərəlidir.

Beləliklə, Cənubi Qafqazda nəqliyyat yollarının açılması prosesi artıq subyektiv siyasi qərarların çərçivəsindən çıxaraq obyektiv iqtisadi qanunauyğunluğa çevrilib. Azərbaycanın strateji vizyonu və regional layihələri sayəsində Ermənistanın onilliklər boyu "təhlükə" kimi baxdığı coğrafi mövqe, nəhayət ki, iqtisadi dividendlər vəd edən bir fürsətə çevrilib. Bu yeni dövrdə yolların açılması təkcə yüklərin hərəkəti deyil, həm də köhnə münaqişə psixologiyasının yerini yeni iqtisadi rəqabət və əməkdaşlıq reallığına verməsi deməkdir.

Mövzu ilə bağlı **İnformasiya Təşəbbüslərinə dəstək İctimai Birliyinin sədri Cəsarət Hüseynzadə** XQ-yə bildirdi ki, müasir geosiyasətdə tərəflərin bir-birinə iqtisadi tellərlə bağlanması hərbi eskalasiya riskini minimuma endirən ən effektiv "yumşaq güc" mexanizmidir: "Biləcəridən yola düşən hər bir vaqon sadəcə texniki bir logistik əməliyyat deyil, həm də regionun yeni sülh arxitekturasının təməl daşıdır. Bu vaqonların hərəkəti onilliklər boyu keçilməz görünən psixoloji sədlərin polad relslər üzərində aşılma-



sı deməkdir. Daşınan hər bir ton taxıl yükü, əslində, qarşılıqlı iqtisadi asılılıq yaradır ki, bu da hərbi ritorikanı iqtisadi səmərə ilə əvəzləyən ən effektiv sülh təminatıdır.

Bu proses region xalqlarının təfəkküründəki köhnə inamsızlığı müştərək qazanc reallığı ilə əvəzləyir. İnsanlar artıq sərhədlərə təkcə hərbi zastavalar kimi deyil, gəlir gətirən tranzit qovşaqları kimi baxmağa başlayırlar. "Düşmən" obrazının yerini "biznes tərəfdaşı" reallığının alması sülhün cəmiyyətlərin daxilinə sirayət etməsini sürətləndirir. İqtisadi tellərlə bir-birinə bağlanan tərəflər üçün hər hansı eskalasiya artıq sadəcə siyasi itki deyil, həm də birbaşa maliyyə iflası deməkdir. İqtisadi maraqlar sülhü hər hansı diplomatik sənəddən daha etibarlı qoruyur.

"Taxıl diplomatiyası" ilə təməli qoyulan bu əməkdaşlıq, uzunmüddətli sülhün yalnız kağız üzərində deyil, sarsılmaz infrastruktur – polad relslər, müasir qovşaqlar və rəqəmsal gömrük sistemləri üzərində qurulmasını təmin edir. İqtisadi maraqların kəsişməsi revanşist ideyaların dayaqlarını sarsıdır, çünki sabit gəlir və ucuz logistika hər hansı hərbi ritorikadan daha cəlbedici gələcək vəd edir. Tranzit yollarının işlək qalması artıq təkcə Bakı və İrəvanın siyasi iradəsindən deyil, həm də bu xətlərdən bəhrələnən beynəlxalq bazar iştirakçılarının marağından asılıdır ki, bu da sülhün davamlılığı üçün ən güclü qlobal zəmanətdir".

Ekspertin sözlərinə görə, bu prosesin davamlı və tam sülhə çevrilməsi üçün Ermənistanın selektiv yanaşmadan imtina edərək bütün razılaşdırılmış öhdəlikləri ardıcıl şəkildə yerinə yetirməsi vacibdir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Hərbi-diplomatik uğurdan sabaha baxış




**(əvvəli 1-ci səhifədə)**

Diqqətçəkən əsas məqamlardan biri Azərbaycanın hərbi tərəfdaşlar coğrafiyasını genişləndirmək strategiyasıdır. Türkiyə ilə sarsılmaz qardaşlıq və strateji müttəfiqlik münasibətləri, İsrail ilə yüksəksəviyyəli hərbi-texniki əməkdaşlıq və Pakistanla dərinləşən hərbi əlaqələr fonunda BƏƏ ilə hərbi dialoqun rəsmi platformaya daşınması rəsmi Bakının suveren praqmatizm siyasətinin bariz nümunəsidir. Körfəz regionunun ən qüdrətli və texnoloji baxımdan inkişaf etmiş ordularından birinə sahib olan BƏƏ ilə əməkdaşlıq Azərbaycan Silahlı Qüvvələrinin modernizasiyası prosesinə əlavə təkan verəcək. BƏƏ son illərdə yerli müdafiə sənayesinin inkişafına milyardlarla dollar sərmayə yatıraraq, xüsusilə "EDGE Group" kimi nəhəng holdinqlər vasitəsilə qlobal silah bazarında ciddi ölkəyə çevrilib.

***

Azərbaycan Ordusunun 44 günlük müharibə zamanı tətbiq etdiyi taktiki yeniliklər, pilotsuz uçuş aparatlarından (PUA) effektiv istifadə və müasir döyüş idarəetmə sistemləri bütün dünyada olduğu kimi, Körfəz ölkələrində də ciddi maraq doğurub. BƏƏ üçün Azərbaycan hərbçilərinin real döyüş təcrübəsini öyrənmək, dağlıq və mürəkkəb relyef şəraitində aparılan əməliyyatların taktiki xüsusiyyətlərini mənimsəmək böyük əhəmiyyət kəsb edir. Azərbaycan–BƏƏ hərbi yaxınlaşmasını regionda formalaşan yeni logistik və enerji dəhlizləri kontekstindən ayrı təhlil etmək qeyri-mümkündür. Orta Dəhliz vasitəsilə Çindən Avropaya uzanan ticarət marşrutunun təhlükəsizliyi, Xəzər dənizinin dibi ilə çəkilməsi planlaşdırılan "Yaşıl Enerji" kabeli layihəsi və digər strateji infrastrukturlar hərbi təhlükəsizlik komponenti ilə tamamlanmalıdır. BƏƏ-nin Azərbaycanın bərpaolunan enerji sektoruna qoyduğu nəhəng investisiyalar, məsələn, "Masdar" şirkətinin həyata keçirdiyi meqalayihələr həm də təhlükəsizlik zəmanəti tələb edən strateji aktivlərdir. İqtisadi inteqrasiya hərbi-siyasi yaxınlaşmanı labüd edən əsas amil kimi çıxış edir. Müasir müharibələrin hibrid xarakter alması, kritik infrastrukturlara kiberhücumların artması fonunda BƏƏ-nin inkişaf etmiş rəqəmsal müdafiə sistemləri Azərbaycan üçün cəlbedici istiqamətdir.

Diqqətdən qaçırılmamalı vacib nüanslardan biri də Azərbaycanın İslam dünyası ilə əlaqələrinin dərinləşməsi faktorudur. BƏƏ ilə hərbi ittifaqın möhkəmlənməsi rəsmi Bakının İslam Həmrəyliyi ideologiyasına sadiqliyini nümayiş etdirməklə yanaşı, bəzi qonşu dövlətlərin dini amildən siyasi təzyiq vasitəsi kimi istifadə etmək cəhdlərini neytrallaşdırır. Əbu-Dabi ilə Bakı arasındakı hərbi dialoq həm də Türk Dövlətləri Təşkilatı ilə Körfəz Əməkdaşlıq Şurası arasında körpü rolunu oynamaq potensialına malikdir.

Komitənin iclasından sonra baş verə biləcək hadisələrin proqnozu zamanı, ilk növbədə, birgə hərbi təlimlərin intensivləşəcəyi gözlənilir. İndiyədək keçirilən "Anadolu Qartalı" və ya digər beynəlxalq təlimlərdə Azərbaycan və BƏƏ hərbçiləri iştirak etsələr də, ikitərəfli formatda, xüsusi təyinatlı qüvvələrin iştirakı ilə keçiriləcək manevrlər qarşılıqlı uyarlılığı artıracaq. Xüsusilə, dağlıq ərazilərdə antiterror əməliyyatları və şəhər döyüşləri ssenariləri üzrə təcrübə mübadiləsi hər iki tərəf üçün faydalı olacaq. Bununla yanaşı, BƏƏ istehsalı olan "NIMR" tipli zirehli maşınların, "Hunter" seriyalı PUA-ların və digər yüksək texnoloji avadanlıqların Azərbaycan Ordusunun arsenalına daxil edilməsi ehtimalı yüksəkdir. Artıq sınaqdan çıxmış Bayraktar TB2 və İsrail istehsalı dronlarla yanaşı, BƏƏ texnologiyalarının tətbiqi Azərbaycanın hava hücumundan müdafiə və kəşfiyyat imkanlarını şaxələndirəcək. Hərbi sənaye sahəsində birgə müəssisələrin yaradılması, döyüş sursatlarının istehsalı və texniki xidmət mərkəzlərinin açılması da müzakirə edilən perspektivlər sırasındadır.

Mövcud prosesin digər mühüm tərəfi kadr hazırlığı və hərbi təhsil sahəsində əməkdaşlıqdır. Protokolun müddəalarına uyğun olaraq, Azərbaycan zabitlərinin BƏƏ-nin qabaqcıl hərbi kolleclərində təhsil alması, eləcə də ərəb hərbçilərinin Azərbaycanın Hərbi Akademiyasında təlim keçməsi insan kapitalının inkişafına xidmət edəcək. Fərqli hərbi məktəblərin sintezi, müxtəlif döyüş taktikalarının öyrənilməsi zabit heyətinin peşəkarlığını artırmaqla bərabər, ordunun intellektual potensialını zənginləşdirəcək.

***

Əbu-Dabi görüşü həm də informasiya müharibəsi və strateji kommunikasiya baxımından əhəmiyyətlidir. İmzalanan sənəd dünyaya mesaj verir ki, Azərbaycan suverenliyini qorumaq üçün lazım olan bütün vasitələrdən istifadə etməyə, etibarlı tərəfdaşlarla ittifaqlar qurmağa qadirdir. Qərbdəki bəzi dairələrin və Cənubi Qafqazda revanşist qüvvələrin təxribatçı ritorikasına qarşı ən tutarlı cavab məhz real hərbi gücün və diplomatik uğurların nümayişidir. BƏƏ kimi qlobal təsir imkanlarına malik dövlətlə hərbi sahədə rəsmi əməkdaşlıq sənədinin imzalanması Azərbaycanın beynəlxalq arenadakı nüfuzunun göstəricisidir.

Bu proseslərin davamı olaraq, gələcəkdə Azərbaycanın BƏƏ-də keçirilən İDEX və NAVDEX kimi nəhəng hərbi sərgilərdə daha geniş miqyasda təmsil olunması, milli hərbi sənaye məhsullarımızın Körfəz bazarına çıxarılması real perspektivə çevrilir. Azərbaycan istehsalı olan snayper tüfəngləri, zirehli texnika və PUA-lar üçün ərəb bazarı yeni ixrac imkanları yarada bilər. Qarşılıqlı sərmayə qoyuluşu prinsipi əsasında birgə hərbi zavodların inşası isə hər iki ölkənin idxaldan asılılığını azaldacaq strateji addım olardı. Nəticə etibarilə, Əbu-Dabidə atılan imza onilliklər boyu davam edəcək dərin strateji tərəfdaşlığın təməl daşıdır. Mükəmməl şəkildə planlaşdırılmış və dövlət maraqlarına tam cavab verən mövcud siyasət Azərbaycan Prezidentinin uzaqgörən strategiyasının tərkib hissəsi olaraq, ölkəmizin hərbi qüdrətini artırmağa və dövlət suverenliyini möhkəmləndirməyə xidmət edir.

Əbu-Dabidə imzalanan "Azərbaycan Respublikası və BƏƏ-nin Müdafiə nazirlikləri arasında keçirilmiş Birgə Hərbi Əməkdaşlıq Komitəsinin iclasının Protokolu" müasir Azərbaycan dövlətçilik tarixinin diplomatik uğurlarından biridir. Bu sənəd İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli xarici siyasətin təntənəsi, Azərbaycanın qlobal təhlükəsizlik sisteminə inteqrasiyasının bariz nümunəsidir. Hərbi sahədə atılan hər bir addım sülhün və sabitliyin qorunmasına xidmət edir. Güclü ordu güclü dövlət deməkdir və BƏƏ ilə qurulan əməkdaşlıq Azərbaycan Ordusunun daha da qüdrətlənməsinə, regionda sülhün və əmin-amanlığın təmin olunmasına mühüm töhfə verəcək.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Modernləşmə cəhdi, yoxsa geosiyasi manevr?

## *İrəvan–Yeni Dehli hərbi əməkdaşlığı fəallaşır*

**Hindistan Silahlı Qüvvələrinin Müdafiə Qərargahının rəisi, general Anil Çauhanın başçılıq etdiyi nümayəndə heyəti fevralın 1-də Ermənistana rəsmi səfər edib. Bu barədə Ermənistan müdafiə nazirliyi məlumat yayıb. Nazirlik səfər zamanı hansı mövzuların müzakirə olunacağını açıqlamayıb. Yeri gəlmişkən, onu da qeyd etmək lazımdır ki, Hindistan Müdafiə Qərargahı rəisinin İrəvana səfər edəcəyi ilə bağlı da əvvəlcədən heç bir məlumat açıqlanmayıb.**



Hindistanlı generalın rəsmi görüşləri dünən keçirilib. Anil Çauhanı əvvəlcə Ermənistanın müdafiə naziri Suren Papikyan qəbul edib. “Armenpress” agentliyinin məlumatına görə, S.Papikyan bu barədə özünün “Facebook” səhifəsində paylaşım edərək görüşə dair videomaterial da yayımlayıb. “Bu gün rəsmi səfər çərçivəsində Ermənistanda olan Hindistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general Anil Çauhanı qəbul etdim”, – deyə Papikyan qeyd edib.

Ermənistan müdafiə nazirliyinin mətbuat xidmətinin yaydığı ayrıca açıqlamada isə qeyd olunub ki, görüşdə Ermənistan tərəfi Hindistanla hərbi və hərbi-texniki əməkdaşlığın hazırkı səviyyəsini yüksək qiymətləndirərək bu prosesin davam etdirilməsinə hazır olduğunu bəyan edib: “Nazir Papikyan Ermənistan və Hindistan arasında müdafiə sektorunda mövcud əməkdaşlığın səviyyəsini yüksək qiymətləndirərək, əməkdaşlıq proqramlarının müntəzəm olaraq həyata keçirilməsinin vacibliyini vurğuladı”. General Anil Çauhan öz növbəsində mövcud istiqamətlər üzrə birgə fəaliyyətin davam etdirilməsinə, eyni zamanda, qarşılıqlı maraq doğuran yeni layihələr üzrə təşəbbüs irəli sürülməsinə hazır olduğunu ifadə edib. Görüş zamanı regional və beynəlxalq təhlükəsizlik məsələləri də müzakirə olunub.

Hindistanlı general daha sonra Ermənistan müdafiə nazirliyinin inzibati kompleksində müdafiə nazirinin birinci müavini, silahlı qüvvələrin baş qərargah rəisi, general-leytenant Edvard Asryanla bir araya gəlib. Onların əvvəlcə təkbətək, sonra isə nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü baş tutub. Görüş zamanı tərəflər Ermənistan və Hindistan arasında müdafiə sahəsində əməkdaşlığın mövcud vəziyyətini müzakirə edib, ikitərəfli əməkdaşlıq planı çərçivəsində həyata keçirilmiş tədbirlərin nəticələrini dəyərləndiriblər. Eyni zamanda, 2026-cı il üçün nəzərdə tutulan tədbirlərin səmərəli icrası ilə bağlı bir sıra məsələlərə toxunulub. Təhsil proqramlarının həyata keçirilməsinin, peşəkar hazırlıq və yenidən hazırlıq kurslarının, təlim və hərbi təlimlərin təşkili, eləcə də Ermənistan və Hindistan arasında müxtəlif sahələr üzrə təcrübə mübadiləsinin əhəmiyyəti qarşılıqlı şəkildə vurğulanıb. General-leytenant Edvard Asryan Ermənistan silahlı qüvvələrində aparılan transformasiya prosesinin əsas istiqamətlərini təqdim edərək, bu proses çərçivəsində Ermənistan–Hindistan müdafiə əməkdaşlığının xüsusi önəm daşıdığını qeyd edib.

***

Qeyd edək ki, son illərdə Ermənistan və Hindistan arasında kifayət qədər sıx hərbi-texniki əməkdaşlıq inkişaf edir. Hindistan mənbələri dəfələrlə İrəvan və Yeni Dehli arasında böyük sövdələşmələr barədə məlumat veriblər. Xüsusilə Ermənistan bu ölkədən çox sayda raket buraxılış sistemləri, müxtəlif artilleriya qurğuları və zenit-raket sistemləri alıb. Sonuncu belə xəbər 2026-cı il yanvarın 18-də yayılıb. Hindistan mediası “Pinaka” idarəolunan raketlərinin ilk partiyasının Ermənistana göndərildiyini bildirib.

İki ölkənin hərbi və hərbi-texniki əməkdaşlığında son illərdə müşahidə olunan dinamika təsadüfi xarakter daşımır. Bu yaxınlaşma həm regionda dəyişən təhlükəsizlik mühitinin, həm də İrəvanın ənənəvi tərəfdaşlara alternativ axtarışlarının nəticəsi kimi dəyərləndirilə bilər. Xüsusilə, 2020-ci ildən sonra Ermənistanın müdafiə strategiyasında baş verən dəyişikliklər Hindistanla əlaqələrin intensivləşməsini sürətləndirib.

Ermənistan üçün Hindistan, ilk növbədə, silah tədarükü baxımından yeni və siyasi şərtlər irəli sürməyən tərəfdaş kimi önə çıxır. Son illər artilleriya sistemləri, raket qurğuları, pilotsuz uçuş aparatları və digər hərbi texnikanın tədarükü üzrə əldə olunan razılaşmalar bu əməkdaşlığın artıq sistemli xarakter aldığını göstərir. Paralel olaraq hərbi təhsil, kadr hazırlığı, təlimlər və təcrübə mübadiləsi də ikitərəfli gündəmdə mühüm yer tutur. Hindistan üçün isə Ermənistanla hərbi əməkdaşlıq daha geniş geosiyasi kontekstin tərkib hissəsidir. Yeni Dehlinin Cənubi Qafqaza marağı təkcə iqtisadi və diplomatik müstəvi ilə məhdudlaşmır. Hindistan bu regionda öz hərbi-sənaye məhsullarını bazara çıxarmaqla yanaşı, Türkiyə–Pakistan xəttinə qarşı dolayı balans yaratmağa çalışır. Bu baxımdan, Ermənistan Hindistan üçün əlverişli platforma rolunu oynayır. Diqqətçəkən məqam ondan ibarətdir ki, İrəvan bu əməkdaşlığı açıq şəkildə “müdafiə qabiliyyətinin gücləndirilməsi” kimi təqdim etsə də, proses bölgədə silahlanma meyillərini stimullaşdırır. Xüsusilə sülh gündəminin müzakirə olunduğu bir dövrdə Ermənistanın yeni silah tədarükünə üstünlük verməsi suallar doğurur. Bu yanaşma bəyan edilən sülh ritorikası ilə real addımlar arasında ziddiyyəti daha da qabardır.

Hindistanlı generalın Ermənistana rəsmi səfəri son illər İrəvan–Yeni Dehli xəttində formalaşan hərbi və hərbi-texniki yaxınlaşmanın ardıcıl xarakter aldığını bir daha nümayiş etdirdi. General Çauhanın Ermənistanın müdafiə naziri tərəfindən qəbul edilməsi və bu görüşün açıq şəkildə ictimailəşdirilməsi tərəflərin əməkdaşlığa verdiyi siyasi çəkini göstərir. Ermənistan Müdafiə Nazirliyinin yaydığı açıqlamalarda əməkdaşlığın mövcud səviyyəsinin yüksək qiymətləndirilməsi və onun davam etdirilməsinə hazır olunduğunun vurğulanması təsadüfi deyil. Xüsusilə hərbi və hərbi-texniki sahədə müntəzəm proqramların icrasına edilən istinadlar İrəvanın Hindistanla münasibətləri uzunmüddətli strateji xətt kimi gördüyünü göstərir. Bu yanaşma Ermənistanın son illər təhlükəsizlik siyasətində müşahidə olunan ümumi transformasiya ilə üst-üstə düşür.

General Anil Çauhanın mövcud istiqamətlərlə yanaşı, yeni layihələrə də açıq olduqlarını bəyan etməsi isə əməkdaşlığın yalnız silah tədarükü ilə məhdudlaşmadığını deməyə əsas verir. Regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsi Hindistanın Cənubi Qafqazı daha geniş geosiyasi kontekstdə dəyərləndirdiyini göstərir. Yeni Dehli üçün Ermənistan həm hərbi-sənaye məhsullarının ixracı, həm də regional təsir imkanlarının genişləndirilməsi baxımından əhəmiyyətli platforma kimi çıxış edir.

**Politoloq Ramiyə Məmmədova** XQ-yə açıqlamasında bildirdi ki, Hindistan Silahlı Qüvvələrinin ali rəhbərliyinin Ermənistana səfəri ilk baxışdan ikitərəfli əməkdaşlığın adi epizodu kimi təqdim olunsa da, prosesin arxa planı daha mürəkkəbdir. Onun sözlərinə görə, burada əsas diqqətçəkən məqam Ermənistanın təhlükəsizlik siyasətində prioritetlərin dəyişməsi



deyil, Hindistanın Cənubi Qafqaza yanaşmasında müşahidə olunan aktivləşmədir: “Yeni Dehli üçün Ermənistan klassik müttəfiqdən daha çox, strateji mövqe baxımından əlverişli platformadır. Hindistan bu ölkə vasitəsilə həm hərbi-sənaye məhsullarının ixrac coğrafiyasını genişləndirir, həm də regionda geosiyasi mövcudluğunu artırır. Bu, xüsusilə Türkiyə və Pakistanla rəqabət fonunda diqqətəlayiqdir. Ermənistanın bu rəqabətdə dolayı alətə çevrilməsi ehtimalı isə riskləri artırır. Ermənistan tərəfi əməkdaşlığı ordunun modernləşdirilməsi kimi təqdim etsə də, real nəticələrin qısa müddətdə əldə olunacağı şübhə doğurur. Müxtəlif mənşəli silah sistemlərinin inteqrasiyası, kadr hazırlığı və texniki uyğunluq məsələləri vaxt və resurs tələb edir. Üstəlik, Ermənistanın iqtisadi imkanları bu planların tam reallaşmasına məhdudiyyət yarada bilər”.

Politoloq onu da bildirdi ki, digər tərəfdən, Hindistan–Ermənistan hərbi yaxınlaşması regionda etimad mühitinin formalaşmasına töhfə vermir. Sülh danışıqlarının gündəmdə olduğu bir mərhələdə hərbi əlaqələrin ön plana çıxarılması qarşılıqlı inamsızlığı dərinləşdirir və təhlükəsizlik dilemmasını gücləndirir. Bu isə uzunmüddətli sabitlik baxımından mənfi siqnaldır.

***Səxavət HƏMİD***
***XQ***

# İqtisadi investisiya, yoxsa geosiyasi nəzarət?

**ABŞ-ın ərazi genişləndirmə strategiyası onun tarixi boyunca yalnız torpaq qazanmaq məqsədindən ibarət olmadı, həm də ölkənin siyasi, iqtisadi və hərbi üstünlüyünü artırmaq üçün formalaşdırdı. Müstəqilliyini əldə etdikdən sonra ABŞ şərq sahillərindən qərbə doğru ərazilərini genişləndirməyə başladı. Bu dövrdə “Manifest Destiny” (Aşkar Tale) ideyası ön plana çıxdı. Luizirananın alışı, Florida və Texasın birləşməsi, həmçinin Oregon və Kaliforniya ərazilərinin ölkəyə qatılması yalnız torpaq genişlənməsi deyil, həm də strateji və iqtisadi mövqelərin gücləndirilməsi baxımından kritik əhəmiyyət daşıyırdı. Bu genişlənmə ABŞ-a kənd təsərrüfatı, ticarət yolları və hərbi imkanlar baxımından üstünlük qazandırdı, həmçinin daxili siyasi stabilliyin formalaşmasına xidmət etdi.**

“Manifest Destiny” termin ilk olaraq 1845-ci ildə jurnalist Con O'Sallivan tərəfindən işlədilmişdi. O, ABŞ-ın Texası ilhaq etməsini müdafiə edərək yazırdı ki, Amerikanın “ildən-ilə artan milyonlarla insanının azad inkişafı üçün Tanrı tərəfindən ayrılmış qitəyə yayılmaq bizim aşkar taleyimizdir”. Bu ideya ABŞ-ı okeandan-okeana uzanan böyük bir dövlətə çevirdi və bu ideologiya, həmçinin Amerikanın özünü dünyada “demokratiya carçısı” kimi görməsinin başlanğıc nöqtəsi hesab olunur.

XIX əsrin sonları və XX əsrin əvvəllərində ABŞ ərazi genişlənməsini qitədən kənara daşıdı. İspan-Amerika müharibəsi nəticəsində ABŞ Filippin, Kuba, Porto-Riko və Qvama sahib oldu. Bu ərazilər ölkəyə qlobal iqtisadi təsir imkanları qazandırdı, ABŞ-ı beynəlxalq siyasətdə daha dominant mövqeyə çıxardı və strateji hərbi mövqelər yaratdı. Xarici imperiya mərhələsi ABŞ-ın qlobal enerji resurslarına, ticarət yollarına və hərbi bazalara nəzarət imkanını genişləndirdi.

İkinci Dünya müharibəsindən sonra başlayan “soyuq müharibə” dövründə ABŞ-ın ərazi və strateji maraqları daha da mürəkkəbləşdi. Bu dövrdə ABŞ yalnız qitə daxilində deyil, qlobal səviyyədə strateji mövqelərini genişləndirməyə başladı. Dünya üzrə hərbi bazalar və strateji ərazilərin əldə edilməsi Sovet İttifaqına qarşı hərbi üstünlüyün təmin edilməsinə xidmət edirdi. Eyni zamanda, bu strategiya iqtisadi maraqların qorunması və qlobal təsirin artırılması üçün də əhəmiyyətli idi. Arktika regionu ABŞ-ın diqqətində olan strateji sahələrdən biri idi. Buradakı resurslar və hərbi mövqelər qlobal rəqabətdə kritik əhəmiyyət daşıyırdı.



Müasir dövrdə ABŞ-ın ərazi genişləndirmə siyasəti daha çox strateji və resursyönümlü xarakter daşıyır. Qrenlandiya məsələsi bu strategiyanın ən bariz nümunəsidir. Qrenlandiya zəngin minerallar, nadir torpaq elementləri və strateji hərbi mövqeləri ilə ABŞ-ın geosiyasi maraqlarına xidmət edir. Hələ 2019-cu ildə ABŞ prezidenti Donald Tramp Qrenlandiyanı almaq niyyətini açıq şəkildə ifadə etmişdi. Politoloqların sözlərinə görə, bu təşəbbüs yalnız ərazi əldə etmək məqsədi daşımır, eyni zamanda, Arktikada Çin və Rusiya təsirinə qarşı ABŞ-ın strateji üstünlüyünü təmin etmək üçün bir addım kimi nəzərdən keçirilir. Qrenlandiya məsələsi, həmçinin ABŞ-ın qlobal resurslara, enerji təhlükəsizliyinə və hərbi yerləşmələrə nəzarət strategiyasının bir hissəsi kimi qiymətləndirilir.

Siyasi müşahidəçilərin sözlərinə görə, ABŞ-ın ərazi genişləndirmə strategiyasının əsas motivləri yalnız torpaq qazanmaqla bitmir. Onun məqsədi, həmçinin qlobal təsir dairəsini genişləndirmək, strateji və iqtisadi üstünlük əldə etmək, hərbi mövqeləri gücləndirmək və beynəlxalq rəqabətdə dominant mövqeyi qorumaqdır. Tarixi boyunca bu strategiya kontinental genişlənmədən xarici imperiya mərhələsinə, müasir strateji maraqlara qədər inkişaf etmişdir. Qrenlandiya məsələsi bu strategiyanın müasir dövrdəki təzahürüdür və ABŞ-ın qlobal geosiyasi və iqtisadi maraqlarını qorumaq üçün strateji ərazilərin əhəmiyyətini bir daha göstərir.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# İran təhdid hədəfində



**Son dövrdə İran ətrafında müşahidə olunan proseslər regional və beynəlxalq təhlükəsizlik mühitində gərginliyin artdığını göstərir. Avropa İttifaqının İslam İnqilabı Keşikçiləri Korpusunu (SEPAH) terror təşkilatları siyahısına salmaq istiqamətində atdığı addımlar Tehran–Brüssel münasibətlərində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir. İran tərəfi bu qərara diplomatik və hüquqi müstəvidə cavab verib.**

Aİ-nin qərarı İran tərəfindən daxili təhlükəsizlik strukturlarına qarşı siyasi təzyiq kimi qəbul olunur. Cavab olaraq İran Xarici İşlər Nazirliyi Aİ-yə üzv ölkələrin səfirlərini XİN-ə çağıraraq rəsmi etirazını çatdırıb və qarşılıqlı tədbirlərin nəzərdən keçirildiyini bəyan edib. Tehran “Cavab tədbirləri” qanununun tətbiqi çərçivəsində Aİ üzv dövlətlərinin silahlı qüvvələrini terror təşkilatları siyahısına daxil edib. Bu addımlar münasibətlərin hüquqi və institusional müstəvidə daha da sərtləşdiyini göstərir.

ABŞ administrasiyası İranla bağlı paralel yanaşma nümayiş etdirir. Bir tərəfdən hərbi çəkindirmə mexanizmləri gücləndirilir, digər tərəfdən isə diplomatik həll imkanlarının açıq qaldığı bildirilir. ABŞ rəhbərliyinin açıqlamaları Vaşinqtonun hələlik yekun qərar vermədiyini və vəziyyəti idarəolunan çərçivədə saxlamağa çalışdığını göstərir.

Körfəz Əməkdaşlıq Şurasına üzv ölkələr ABŞ–İran gərginliyinin birbaşa təsir zonasındadır. Mövcud məlumatlara görə, region ölkələri Vaşinqtonun İranla bağlı strateji planları barədə tam aydınlığa malik deyil. Bu səbəbdən Körfəz dövlətləri ehtiyatlı mövqe tutaraq hərbi eskalasiyada iştirakdan yayınmağa və diplomatik kanalların açıq saxlanmasına üstünlük verir.

Hazırkı mərhələdə İran ətrafında yaranmış vəziyyət açıq hərbi qarşıdurma səviyyəsində deyil. Lakin qarşılıqlı sanksiyalar, hüquqi addımlar və sərt ritorika risklərin artmasına səbəb olur. Əsas təhlükə lokal insidentlərin nəzarətsiz eskalasiyaya çevrilməsi ehtimalıdır. Qısa perspektivdə tərəflərin gərginliyi idarəetməyə yönəlmiş siyasəti davam etdirəcəyi ehtimal olunur.

Bir sözlə, İran ətrafında formalaşan geosiyasi vəziyyət çoxqatlı və balans üzərində qurulub. Aİ, ABŞ və regional aktorların fərqli yanaşmaları vahid strategiyanın mövcud olmadığını göstərir. Belə şəraitdə əsas tendensiya qarşıdurmanın genişlənməsinin qarşısını almaq və siyasi-diplomatik manevr imkanlarını qorumaqdan ibarətdir.

**P.S.** ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkov və İran xarici işlər naziri Abbas Əraqçinin fevralın 6-da İstanbulda mümkün nüvə sazişini müzakirə etmək üçün görüşməsi gözlənilir. Bu barədə “Axios” iki mənbəyə istinadən yazıb ki, görüş ən yaxşı ssenaridir, lakin bununla bağlı qərar hələ qəti deyil.

Planlaşdırılan görüş Türkiyə, Misir və Qətərin son bir neçə gün ərzində diplomatik səyləri nəticəsində gerçəkləşəcək. Bu, danışıqların dayandırılmasından və ötən ilin iyun ayında baş verən 12 günlük müharibədən sonra ABŞ və İran rəsmiləri arasında ilk görüş olacaq.

***S.ELAY***
***XQ***

# Bakı Şəhərsalma Forumuna hazırlaşır

## *Azərbaycan paytaxtı WUF13-ə də layiqli sahiblik edəcək*




**Bu il mayın 17–22-də Bakı bir daha dünya ictimaiyyətinin diqqət mərkəzində olacaq. Birləşmiş Millətlər Təşkilatının (BMT) ən nüfuzlu tədbirlərindən biri sayılan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) ölkəmizdə keçiriləcək.**

Mövzu dairəsi və beynəlxalq miqyası baxımından bu Forum BMT-nin İqlim Dəyişikliyi üzrə Tərəflər Konfransından (COP) sonra ən iri və strateji baxımdan önəmli qlobal platformalardan biri hesab edilir. Bakıda bu səviyyəli beynəlxalq tədbirin keçirilməsi ölkəmizin dünya miqyasında şəhərsalma, ətraf mühitin mühafizəsi və davamlı inkişaf sahələrində öncül mövqeyə sahib olduğunu göstərir.

Ölkənin həm zəngin memarlıq irsi, həm də müasir inkişaf təşəbbüsləri WUF13-ün məhz Bakıda keçirilməsinə şərait yaradıb. Qədim İpək Yolunun üzərində yerləşən Azərbaycan şəhərləri tarixboyu ticarət və mədəniyyət mərkəzləri olmuş, Bakıdakı İçərişəhər və Qız Qalası, Şəki Xan Sarayı kimi bir sıra abidələr UNESCO Dünya İrsi siyahısına daxil edilib. Son illərdə paytaxt Bakının və regionların siması müasir memarlıq nümunələri və genişmiqyaslı abadlıq layihələri ilə yenilənib. Balanslı regional inkişaf, davamlı şəhərsalma və yaşayış məskənlərinin planlanması hökumətin prioritetləri sırasındadır. Beləliklə, WUF13-ə ev sahibliyi etmək missiyası Azərbaycan üçün öz nailiyyətlərini sərgiləməklə yanaşı, dayanıqlı şəhərsalma sahəsində dünyaya töhfə vermək imkanı deməkdir.

Yeri gəlmişkən, parlament diplomatiyası da WUF13 uğrunda Azərbaycanın gördüyü işlərin əsas istiqamətlərindən birinə çevrilib. Yanvarın 30-da Bakıda ilk dəfə olaraq 30 ölkədən 32 parlament üzvünün iştirakı ilə "Parlamentlərin Dayanıqlı Şəhərlərin İnkişafında və Davamlı Şəhərsalmanın Təşviqində Rolu" mövzusunda xüsusi tədbir keçirilib. Tədbirin məqsədi WUF13 ərəfəsində parlament diplomatiyasının gücləndirilməsinə töhfə vermək, yəni qanunvericiləri dayanıqlı şəhərsalma məsələləri ətrafında bir araya gətirmək idi.

Forumda UN-Habitat və digər BMT qurumlarının nümayəndələri, həmçinin xarici parlament üzvləri çıxış edərək ölkələrinin şəhərsalma təcrübəsini paylaşıb, xüsusilə dayanıqlı şəhərsalma və mənzil məsələləri ilə bağlı çağırışları səsləndiriblər. Dominikanın ətraf mühit naziri Kozier Frederik ada dövlətlərinin fəlakət təcrübələrindən çıxarılan dərsləri bölüşərək tənzimləmə və planlaşdırmanın vacibliyini vurğulayıb.

Tədbirdə Azərbaycanın WUF13-ə hazırlıq prosesi barədə təqdimatla çıxış edən Gülşən Rzayeva həm ölkənin şəhərsalma təcrübəsini, həm də forumun məqsəd və perspektivlərini iştirakçılarla bölüşüb. O, qanunvericiliyin və parlamentlərarası əməkdaşlığın bu sahədəki roluna xüsusi diqqət çəkib. Toplantı iştirakçıları yekdilliklə birgə müraciət qəbul ediblər.

Müraciətdə qeyd olunub ki, şəhərlər bu gün qarşıya çıxan bir çox qlobal çağırışların – iqlim dəyişiklikləri, bərabərsizlik, miqrasiya və mənzil böhranının – həm mərkəzində dayanır, həm də onların həlli üçün əsas fürsətləri təqdim edir. Parlamentlər bu çağırışlara cavab olaraq qanunvericilik təşəbbüsləri, siyasət inteqrasiyası və maliyyələşmə mexanizmləri vasitəsilə həlledici rol oynayırlar.

Müraciətdə dünya parlamentlərinə sosial ədalətli şəhərsalmanı, inklüziv zonalaşdırmanı və dayanıqlı yaşayış siyasətlərini dəstəkləyən addımlar atmaq çağırışı yer alır. Eyni zamanda, Azərbaycan Respublikasına WUF13-ün ev sahibi kimi güclü dəstək ifadə olunur və ölkənin dayanıqlı urbanizasiya sahəsindəki qlobal liderlik təşəbbüsü yüksək qiymətləndirilir.

***XQ***

*XQ-yə özəl*

# "Ağ sənəd"də süni intellekt şurası təklifi

**Azərbaycanda milli süni intellekt etikası üzrə müxtəlif sektorları təmsil edən məsləhət şurasının yaradılması gündəmə gəlib. Bu təklif ABŞ-ın Azərbaycandakı Ticarət Palatasının (AmCham) hazırladığı "Ağ sənəd" hesabatında yer alıb. Qeyd edilir ki, belə bir şuranın yaradılması ölkədə qlobal çərçivələri yerli dəyərlərə və hüquqi strukturlara uyğunlaşdırmaq, ictimai etimadı gücləndirmək və məsuliyyətli innovasiyanı dəstəkləmək baxımından mühüm addım ola bilər.**

AMCHAM
AMERICAN CHAMBER OF COMMERCE IN AZERBAIJAN

"AmCham" vurğulayır ki, Azərbaycan beynəlxalq Sİ idarəçilik təşəbbüslərində fəal iştirak etməlidir. Xüsusilə, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Qlobal Süni İntellekt Tərəfdaşlığı (GPAI), UNESCO-nun Sİ etik proqramları və Beynəlxalq Telekommunikasiya İttifaqının (ITU) Sİ üzrə işçi qruplarında ölkəmizin fəal olması tövsiyə edilir. Bu addımlar Azərbaycan qanunvericiliyinin gələcəkdə qabaqcıl qlobal təcrübələrlə uyğunlaşdırılmasına, beynəlxalq texniki bilik və ekspertizaya çıxış əldə etməsinə və etik, şəffaf, insan mərkəzli Sİ standartlarının formalaşdırılmasında pay sahibi olmasına imkan yaradacaq.

Məlumdur ki, ölkəmiz sürətlə dəyişən texnologiyalar fonunda məlumat məxfiliyini, şəffaflığı və cəmiyyətin etimadını qorumaqla Sİ sahəsində hərtərəfli normativ-etik çərçivə formalaşdırmaqda çətinliklərlə üzləşir. Hazırda vahid standartların olmaması səbəbindən gələcəkdə tənzimləmədə parçalanma yaranması, qlobal uyğunluğun zəifləməsi riski mövcuddur. Bu kimi boşluqlar həm də Sİ innovasiyalarına potensial investor etimadının azalmasına səbəb ola bilər. Mütəxəssislər hesab edirlər ki, məhz beynəlxalq standartlara uyğunlaşma bu riskləri azaltmaq üçün vacibdir. Milli etik şuranın yaradılması da bu kontekstdə Sİ-nin inkişafına dair qərarların daha məsuliyyətli və etibarlı çərçivədə qəbuluna yardım edəcək bir addım kimi görülür.

Hesabatda süni intellekt sahəsində kadr hazırlığı və savadlılığın artırılması da xüsusi önəm daşıyır. Qeyd olunur ki, süni intellekt savadlılığının yüksəldilməsi gələcəyin işçi qüvvəsinin formalaşdırılması üçün həlledici amildir. Bu məqsədlə, məktəblərdən başlayaraq universitetlərə qədər təhsil proqramlarının müasir Sİ alət və mexanizmlərini əhatə edəcək şəkildə yenilənməsi tövsiyə edilir. Yeni kurikulumlar təkcə texniki bilikləri deyil, eyni zamanda, etik bilik və dəyərləri də aşılamalıdır ki, gələcəyin mühəndisləri və tədqiqatçıları süni intellektdən məsuliyyətli istifadə etsinlər.

Hesabat konkret addımlar da təklif edir. Orta və ali təhsil səviyyələrində süni intellektin əsasları və maşın öyrənməsi modulları tədrisə daxil edilməlidir. Müxtəlif ixtisaslarda çarpaz Sİ savadlılığı (məsələn, hüquqşünaslar üçün "Sİ + Hüquq", tibb tələbələri üçün "Sİ + Tibb") təşviq olunması gənc mütəxəssislərin hər sahədə süni intellekt anlayışına malik olmasını təmin edər. Müəllimlərin rəqəmsal alətlər və süni intellekt anlayışları üzrə təlimi də vacibdir ki, onlar yeni proqramları effektiv şəkildə həyata keçirə bilsin.

Bundan əlavə, məktəblərdə kodlaşdırma və robotexnika klublarının dəstəklənməsi, eləcə də texnologiya şirkətləri ilə birgə "Sİ bootcamp"lərinin keçirilməsi təklif olunur. Bu kimi təşəbbüslər şagird və tələbələrə erkən yaşdan innovativ düşüncə və praktiki bacarıqlar aşılamaq məqsədi daşıyır. Həmçinin ölkə miqyasında innovasiya və maarifləndirmə məqsədilə süni intellekt müsabiqələrinin təşkil edilməsi gəncləri təşviq edərək, süni intellekt sahəsində istedadların üzə çıxmasına şərait yaradacaq.

Məsələ ilə bağlı Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyasından (AİKTSA) XQ-yə bildirildi ki, süni intellekt etikası üzrə məsləhət şurasının yaradılması məsələsi, AİKTSA-nın apardığı araşdırmalarla da üst-üstə düşən strateji bir addımdır:

–AİKTSA ekspertlərinin araşdırmasının nəticəsinə görə, ölkədə süni intellektin sürətli tətbiqi fonunda məlumatların məxfiliyi və alqoritmik şəffaflıq məsələlərində ciddi hüquqi-etik boşluqlar yaranmaqdadır. Bu boşluqlar tənzimlənmədikdə, rəqəmsal sistemlərin qəbul etdiyi qərarların qərəzliliyi və ya şəxsi həyata müdaxilə riskləri cəmiyyətdə texnologiyaya qarşı inamsızlıq yaradır ki, bu da rəqəmsal transformasiya prosesini daxildən ləngidə bilər.

Qlobal trendlərə uyğun olaraq belə bir şuranın formalaşdırılması Azərbaycanın beynəlxalq rəqəmsal bazarlara inteqrasiyası və investor etimadının qazanılması üçün zəruridir. Ekspertlər qeyd edirlər ki, beynəlxalq standartlarla uyğunlaşma olmadıqda yerli texnoloji ekosistemin qlobal sistemlərdən təcrid olunma və tənzimləmə parçalanması ilə üzləşmə ehtimalı artır. Şuranın yaradılması həm "deepfake" kimi manipulyativ təhdidlərin qarşısında hüquqi süzgəc rolunu oynayacaq, həm də süni intellektin tətbiqi zamanı milli maraqların və etik normaların qorunmasını təmin edən bir mexanizm kimi çıxış edəcəkdir.

"AmCham"ın "Ağ Sənəd 2025" hesabatındakı bu tövsiyələr ölkəmizin rəqəmsal gələcəyə hazırlanması yolunda atılacaq addımlar üçün yol xəritəsidir. Milli süni intellekt etikası şurasının təsis olunması, beynəlxalq əməkdaşlığın gücləndirilməsi və təhsildə aparılacaq islahatlar Azərbaycan cəmiyyətində süni intellektə dair etimadın formalaşmasına, innovasiyaların məsuliyyət çərçivəsində inkişafına xidmət edəcək. Bu, ölkəmizin qlobal rəqəmsal transformasiya prosesində həm ayaqlaşmasını, həm də öz dəyərlərini qorumaqla qabaqcıl mövqeyə çıxmasını təmin edə bilər.

***Nurlan ABDALOV***
***XQ***

# Potidən Bakıya ekspres qatar gəlib

**Dünən Gürcüstanın Poti Limanında "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti və "Gürcüstan Dəmir Yolları" Səhmdar Cəmiyyətinin rəhbər heyətlərinin iştirakı ilə Poti–Bakı ekspres blok-qatarının yola salınması mərasimi keçirilib.**



Mərasimdə yeni ekspres qatarının işə salınmasının əhəmiyyəti qeyd olunub. Bildirilib ki, bu xidmət sayəsində yük sahibləri yalnız vaxtlarına deyil, həm də terminalda yük və boş konteynerlərin saxlanması kimi xərclərə qənaət edə biləcəklər.

ADY-dən verilən məlumata görə, Poti–Bakı marşrutu üzrə işləyəcək blok-qatar Qara dəniz limanlarını Azərbaycanın liman və terminalları ilə birləşdirəcək. Bu, həm də yük sahiblərinə Potidən Bakıya və geriyə müəyyən edilmiş vaxtlarda, heç bir gecikmə olmadan konteynerlər əldə etməyə imkan verən sadələşdirilmiş logistika xidmətidir.

***XQ***

# Körfəz ölkələrinin Azərbaycana marağı yüksəlir

## *Regionun ölkəmizə yatırımı 600 milyon ABŞ dollarını keçib*

**Fars körfəzi ölkələrinin Avrasiya məkanına artan investisiya marağı fonunda Azərbaycan da bu axınlardan pay alan ölkələr sırasında yer alır. 2025-ci ilin birinci yarısının sonuna Körfəz ölkələri tərəfindən Azərbaycana yatırılan investisiyaların həcmi 606 milyon ABŞ dollarına çatıb. Bu göstərici regionlararası iqtisadi əməkdaşlığın genişlənməsi və Körfəz kapitalının Cənubi Qafqaza doğru istiqamətlənməsi baxımından diqqət çəkir.**



Bu barədə Avrasiya İnkişaf Bankının "Avrasiya regionu və Asiyadan olan tərəfdaş ölkələr: investisiya axınlarının təhlili" adlı hesabatında qeyd olunur. Hesabata əsasən, Körfəz ölkələrinin Avrasiya regionuna investisiya qoyuluşları yüksək templə artmaqdadır. Ötən ilin ilk altı ayında bu ölkələrdən regiona yönələn investisiyaların ümumi həcmi 23,9 milyard ABŞ dolları təşkil edib. Bu məbləğ 2016-cı illə müqayisədə 3,2 dəfə, 2023-cü illə müqayisədə isə 60 faiz çoxdur.

Sənədə görə, 2025-ci ilin ilk yarısında Fars körfəzi ölkələrinin investorları Avrasiya məkanında ümumi dəyəri təxminən 1 milyard ABŞ dolları olan 10 yeni layihənin icrasına start veriblər. Bu təşəbbüslər tam şəkildə reallaşdırılacağı təqdirdə, layihələrin ümumi dəyəri 6,5 milyard ABŞ dollarını ötəcək. Ümumilikdə isə 2016-cı ildən etibarən region üzrə aktiv layihələrin sayı 55-ə çatıb. Cari ildə yeni layihələrin beşi Özbəkistanda, üçü Qazaxıstanda, ikisi isə Azərbaycanda həyata keçirilməyə başlanılıb.

Avrasiya regionuna yönələn investisiyaların ölkələr üzrə bölgüsündə Birləşmiş Ərəb Əmirlikləri lider mövqedədir. Körfəz kapitalının 68 faizi, yəni 16,1 milyard ABŞ dolları məhz BƏƏ-nin payına düşür. Səudiyyə Ərəbistanı 18 faiz (4,2 milyard dollar), Qətər 10 faiz (2,4 milyard dollar), Oman isə 5 faiz (1,1 milyard dollar) göstərici ilə növbəti yerlərdə qərarlaşıb.

Körfəz kapitalının Azərbaycandakı əsas layihələri enerji sektorunda cəmləşib. BƏƏ-nin Masdar şirkəti ölkənin Neftçala və Biləsuvar rayonlarında günəş elektrik stansiyalarının tikintisini nəzərdə tutan iki iri layihə həyata keçirir. Bu layihələr həm güc, həm də investisiya həcmi baxımından Azərbaycanın bərpaolunan enerji strategiyasında mühüm yer tutur və regionlarda iqtisadi aktivliyin artmasına töhfə verir.

Qeyd edək ki, son illər Azərbaycanla Fars körfəzi ölkələri arasında iqtisadi münasibətlər yeni mərhələyə qədəm qoyub. Körfəz ölkələrinin diqqətini Cənubi Qafqaza yönəltməsi regionlararası əməkdaşlığın strateji mahiyyətini daha aydın göstərir. Azərbaycan bu prosesdə sabitlik, etibarlılıq və proqnozlaşdırıla bilən iqtisadi siyasət nümunəsi kimi ön plana çıxır. Ölkənin makroiqtisadi dayanıqlığı, fiskal intizamı və uzunmüddətli inkişaf strategiyası xarici investorlar üçün cəlbedici mühit formalaşdırıb. Xüsusilə enerji sektorunda aparılan institusional islahatlar Körfəz kapitalı üçün əlverişli platforma yaradıb.

Fars körfəzi ölkələrinin investisiya maraqları Azərbaycanın milli prioritetləri ilə üst-üstə düşür. Etibarlı tərəfdaşlıq indi elektrik enerjisi və bərpaolunan mənbələr sahəsində davam etdirilir. Günəş və külək enerjisi layihələri ölkənin "yaşıl enerji" strategiyasının əsas dayaqlarından birinə çevrilib və bu istiqamətdə Körfəz şirkətləri aparıcı rol oynayır.

BƏƏ-nin "Masdar" şirkəti tərəfindən inşa edilən "Qaradağ" Günəş Elektrik Stansiyası Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasıdır. Stansiya 262 milyon ABŞ dolları dəyərindədir. Bu, ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş elektrik stansiyasıdır. Stansiyada hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət edilir. 550 hektar ərazini əhatə edən elektrik stansiyada 570 min günəş paneli quraşdırılıb.

Azərbaycanın əməkdaşlıq etdiyi və ölkəyə investisiya qoyuluşu edənlər sırasında Səudiyyə Ərəbistanına məxsus "ACWA Power" şirkəti də var. Şirkətin inşa etdiyi və bu yaxınlarda istifadəyə verilən 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının ümumi dəyəri təqribən 300 milyon ABŞ dolları təşkil edir.

Fars körfəzi ölkələrinin Azərbaycana yönələn investisiyaları həm maliyyə axınının, həm də regionlararası strateji tərəfdaşlığın möhkəmlənməsi deməkdir. Bu əməkdaşlıq Azərbaycanın enerji keçidi, iqtisadi şaxələndirmə və beynəlxalq iqtisadi sistemdə mövqeyinin güclənməsi baxımından mühüm rol oynayır. Qarşıdakı dövrdə bu xəttin daha da dərinləşməsi regionlararası əməkdaşlığı yeni keyfiyyət mərhələsinə daşıya bilər.

***Musa BAĞIRLI***
***XQ***

# Ötən il 3,6 milyard dollarlıq qeyri-neft məhsulları ixrac edilib

**2025-ci ildə Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı əvvəlki illə müqayisədə 8,1 faiz artaraq 3,6 milyard ABŞ dolları təşkil edib. Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin nəşr etdirdiyi "İxrac icmalı"nın yanvar sayında ətraflı məlumat verilib.**



Ötən ilin yekunlarına həsr olunmuş icmala əsasən, il ərzində ixrac edilən şəkər əvvəlki ilin müvafiq dövrünə nəzərən 57,4 faiz, meyvə-tərəvəz 27,4 faiz, alüminium və onlardan hazırlanan məmulatlar 24,2 faiz, pambıq iplik 19,3 faiz, kimya sənayesi məhsulları 8 faiz, bitki və heyvan mənşəli piylər və yağlar isə 2 faiz artıb.

Hesabat dövründə aqrar məhsullar üzrə ixrac 26,7 faiz artaraq 1 milyard ABŞ dolları, aqrar-sənaye məhsulları üzrə ixrac isə 314,7 milyon dollara bərabər olub. Bütövlükdə, il ərzində aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 18,9 faiz artaraq 1,3 milyard dollar təşkil edib.

Ötən il ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (326,2 milyon dollar) birinci olub. Bu siyahıda pomidor (tomat) (192,5 milyon dollar) ikinci, karbamid (170,8 milyon dollar) isə üçüncü yerdə qərarlaşıb.

İlin son ayı ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında xurma (36,4 milyon dollar) birinci olub. Bu siyahıda qızıl (29,2 milyon dollar) ikinci, qabığı təmizlənmiş meşə fındığı (20,3 milyon dollar) isə üçüncü olub.

2025-ci ildə ölkəmizdən Rusiya Federasiyasına 1,2 milyard dollar, Türkiyəyə 597,3 milyon dollar, Gürcüstana 347,9 milyon dollar, İsveçrəyə 347,8 milyon dollar, Ukraynaya isə 201 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac edilib.

***XQ***

*Ana dilimiz – mənəvi Vətənimiz*

# Heydər Əliyevin ana dili konsepsiyasının nəzəri tədqiqi

**Azərbaycan dövlətçiliyinin zəngin ənənəsi milli dövlətçilik prinsiplərinə əsaslanaraq milli varlığı özündə ehtiva edən milli dilin inkişafına zəmin yaradır. Dilin ünsiyyət vasitəsi kimi inkişafı ictimai münasibətlər əsasında meydana çıxır və buna görə də dövlətçilik prinsipi dilə siyasi amil kimi yanaşaraq onun hüquqi statusunu və fəaliyyət qaydalarını təyin edir.**




Aparılan dil siyasətində dilin funksional imkanları dövlət tərəfindən qanunlar çərçivəsində həyata keçirilir. Ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlət dilinin inkişafı ilə apardığı dil siyasətinin konseptual əsaslarının müəyyənləşdirilməsi dilçiliyin qarşısında duran əsas vəzifələrdəndir. Bu baxımdan, professor Mahirə Hüseynova və Sayalı Sadıqovanın "Heydər Əliyev və Azərbaycan dilinin inkişaf konsepsiyası" monoqrafiyasında qoyulan problemlər aktuallığı ilə seçilir. Bu dəyərli tədqiqat ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuşdur.

Monoqrafiyada Heydər Əliyevin apardığı dil siyasəti, onun dövlətçiliyin əsas atributlarından biri kimi funksionallaşmasını şərtləndirən cəhətlər təyin edilərək elmi-nəzəri əsasları müəyyənləşdirilmişdir. Əsərin giriş hissəsində ana dilinin inkişafına dair konseptual xüsusiyyət kəsb edən zəruri aspektlər təyin edilmiş və dillə bağlı meydana çıxan problemlərin operativ həllinə təsirini göstərən mühüm amillər, milli demokratik dövlət quruculuğu prosesində aparılan dil siyasəti etnik-mədəni mövcudluğumuzun kontekstində təhlil edilmişdir.

Ümummilli lider Heydər Əliyevin vahid ümumi məqsədə yönələn Azərbaycan dilinin inkişaf konsepsiyasının istiqamətlərinə həsr olunan əsər üç fəsildən və əlavə hissədən ibarətdir. Əsərin birinci fəslində dövlətçilik və dil siyasəti, dövlətçilik və dil quruculuğu, dövlət dil konsepsiyası anlayışları geniş şəkildə təhlil olunmuşdur.

Dövlətin yeritdiyi dil siyasəti dövlət dilinin inkişafını tənzimləyir. Dil quruculuğu prosesini planlı şəkildə həyata keçirən dövlət siyasəti ayrı-ayrı fərdlərin mənafeyini deyil, millət və xalqın mənafeyini özündə əks etdirir. Bu baxımdan, milli və mənəvi dəyərləri yüksək qiymətləndirən Heydər Əliyev Azərbaycan dilinin dövlət dili kimi inkişafı və yüksəlişi uğrunda davamlı olaraq mübarizə aparmışdır. Monoqrafiyada dövlətçiliyinin inkişafı və onun atributlarının formalaşması əsaslandırılaraq, Azərbaycan dövlətçiliyində Heydər Əliyev və dil quruculuğu prosesi, dövlətçilik və dil siyasətinin istiqamətləri araşdırılmışdır.

Müəlliflər dil quruculuğunda dil siyasətinin geniş sosial siyasi məzmununu linqvistik məzmunla qarşılıqlı əlaqədə götürür və aparılan dil siyasəti hər şeydən əvvəl dövlətçiliklə əlaqələndirilir. Dövlət tərəfindən aparılan dil siyasətinə cəmiyyətdə onun sosial mövqeyindən irəli gələn tələbata uyğun olaraq məqsədyönlü hərəkət kimi yanaşılır. Dil siyasətinin əsas məqsədi aydınlaşdırılaraq, onun obyektiv hüdudları müəyyənləşdirilir.

Azərbaycanşünaslıqda milli dil siyasətinin həyata keçirildiyi ən yeni dövr Heydər Əliyevin adı ilə bağlı olması ilə bağlı qeyd edilir ki, bu siyasətin başlıca məqsədi Azərbaycan dilinin dövlət dili kimi qorunması, möhkəmlənməsi və inkişaf etməsinin təminatının yaradılmasıdır. Əsərdə ictimai həyatda dövlət quruculuğunda dilin tutduğu mövqe yüksək dəyərləndirilir və bu məsələnin həlli aparılan düzgün dil siyasəti ilə əlaqəli şəkildə araşdırılmışdır.

Ulu öndər Heydər Əliyevin dil siyasətinin aparılmasında mövqeyinin sabitliyi Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsinə və onun bütün sahələrdə inkişafına təminat verilməsi nəticəsində dil dövlətçiliyin əsas atributlarından hesab edilərək, kitabda dilin funksionallaşmasını şərtləndirən cəhətlər təyin edilərək onun qorunmasının və inkişafının əsas amilləri müəyyənləşdirilir.

Azərbaycan dilinin dövlət dili adlandırılmasının siyasi mahiyyəti odur ki, dövlət dili böyük ictimai-siyasi hadisədir, dilin rəsmi, diplomatik, hüquqi sənədlərdə, inzibati orqanlarda, hərbi sahədə dil kimi işləkliyi təmin edilsin. Əsərdə dövlətçilik quruculuğunda dil siyasətinin bu hədəfi, dil quruculuğu, dil mədəniyyəti, yazı və əlifba problemləri, tarixilik, müasirlik, varislik və ənənə əsas prinsiplərdən biri kimi götürülür.

Azərbaycan xalqının milli müstəqillik və dövlət müstəqilliyi əldə etdiyi dövrdə isə yürüdülən dil siyasəti milli dilin inkişaf etdirilməsinin təməl daşları olaraq qəbul olunur və onun ideyaları fundamental konseptual əsaslarda inkişaf etdirilir. Dili millətin varlığının əsas şərtlərindən, göstəricilərindən biri hesab edən Azərbaycanın dahi rəhbəri öz praktik fəaliyyəti ilə elmi-pedaqoji mühitdə Azərbaycan dilinin tətbiqi məsələlərinin genişləndirilməsi strateji gələcəyə hesablanmış bir təşəbbüsdür.

Əsərdə ana dilinin respublikanın dövlət dili səviyyəsində inkişafında dil məsələsinə xalqın mənəvi problemlər kontekstində yanasilir və ana dilinin müxtəlif istiqamətlərdə inkişafı üçün perspektivləri müəyyənləşdirilir. Azərbaycan müstəqilliyini qazandıqdan sonra milli şüurun inkişafı, demokratik cəmiyyət yaranması ana dilimizin tətbiq sahəsini genişləndirməyi bir zərurətə çevirdi.

Monoqrafiyada XX əsrin əvvəllərində dövlətçilik və dil siyasəti, XX əsrin 20–60-cı illərində Azərbaycan Respublikasında dil siyasəti, ötən əsrin 60–80-ci illərində milli dövlətçilikdə dil siyasəti, Azərbaycan dilinin inkişafında Heydər Əliyev mərhələsi geniş şəkildə araşdırılmışdır. Bu mərhələlər müəyyənləşdirilən zaman dövlətçilik və dil siyasəti, dövlət dil konsepsiyası, dil quruculuğunun istiqamətləri, Azərbaycan dövlət dil siyasətinin formalaşması tarixi və müstəqillik illərində dil quruculuğu prosesi ardıcıllıqla tədqiq olunmuşdur. Əsərdə Heydər Əliyevin Azərbaycan dilinin inkişaf konsepsiyası ilə bağlı apardığı dil siyasəti iki mərhələyə ayrılmış və milli dilə münasibət və onun tətbiq sahələri xarakterizə edilmişdir.

Ulu öndər Heydər Əliyevin apardığı dil siyasətində respublikanın milli-ictimai maraqları əsas götürülərək ana dili müstəqil dövlət dili kimi inkişaf etdirilmişdir. Ümummilli liderin Azərbaycan dilinin dövlət dili kimi inkişafı ilə bağlı 1969–2003-cü illərdə apardığı dil siyasəti rəsmi sənədlər əsasında xarakterizə edilmişdir. Heydər Əliyev Azərbaycan dilinin tarixi keçmişinin tədqiqi ilə bağlı işlərin gücləndirilməsi ilə yanaşı, müstəqillik illərində Azərbaycan dilinin tətbiqi ilə bağlı mövcud problemləri də daim diqqət mərkəzində saxlamışdır.

Azərbaycan dilinin dövlət dili statusunun hüquqi cəhətdən tənzimlənməsi və dövlətçilikdə dil problemlərinin həlli istiqamətində bir sıra mühüm tədbirlərin həyata keçirilməsinə ilkin olaraq ulu öndər imza atmışdır. Heydər Əliyev epoxası kimi tarixə daxil olmuş bu dövr Azərbaycan dilinin beynəlxalq münasibətlər sisteminə, dünya diplomatiyasına yol tapması ulu öndərin düşünülmüş və uzaqgörən dil siyasətinin nəticəsində olmuşdur.

Əsərin sonunda Prezident İlham Əliyevin ana dilinin dövlət dili statusunun qorunması və onun inkişafını şərtləndirən dil quruculuğu siyasəti də tədqiq olunmuşdur. Dövlət başçısı İlham Əliyevin dövlət idarəçiliyinin bütün sahələrində olduğu kimi, dil siyasətində də ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu strateji xətti inkişaf etdirməsi əsaslandırılmışdır. Bununla da Azərbaycan dilinin inkişafı ilə bağlı aparılan konsepsiyanın birmənalı şəkildə ana dilinin dövlət dili kimi tətbiqi, sabit qayda-qanunlar və əsaslı təməllər üzərində təkmilləşməsi yolları müəyyənləşdirilmişdir.

Əsərdə Heydər Əliyevin dövlət dili siyasətinin əsas prinsipləri ilə bağlı irəli sürülən və zəngin faktlarla əsaslandırılan dövlətçilik və dil haqqında müddəalar azərbaycançılıq ideologiyasının son illərdəki nailiyyətlərinin parlaq təzahürüdür. Professor Mahirə Hüseynova və professor Sayalı Sadıqovanın "Heydər Əliyev və Azərbaycan dilinin inkişaf konsepsiyası" əsəri milli varlığımız olan Azərbaycan dilinin möhkəm təməllər üzərində inkişaf konsepsiyasını müəyyənləşdirən fundamental tədqiqat əsəridir.

Geniş və çoxcəhətli problemləri özündə ehtiva edən bu əsər dilçiliyimiz üçün dəyərli bir mənbədir. Əsər dilin sosiolinqvistik aspektdən tədqiqinə, nəzəri qənaətlərin və müddəaların formalaşdırılmasına istiqamət verir. Azərbaycan filologiyasında əhatə dairəsi və yüksək elmliyi ilə seçilən poliqrafik baxımdan da yüksək səviyyədə nəşr olunan bu monoqrafiya Azərbaycan dilçiliyi üçün əhəmiyyətli bir əsərdir.

***Möhsün NAĞISOYLU,***
***AMEA-nın müxbir üzvü***

# Cenevrədən "Piano Trio Areal" sənət töhfəsi

## *Qara Qarayevin, onun müəlliminin və tələbəsinin əsərləri İsveçrədə*

**Görkəmli bəstəkar, "Şərəf" ordenli Xalq artisti Tofiq Bakıxanova 95 illik yubileyi ərəfəsində Cenevrədən xoş xəbər və dəyərli bir hədiyyə alınıb. Avropanın mədəniyyət mərkəzlərindən olan Cenevrədəki "Salle Frank Martin" zalında "Piano Trio Areal" adlı klassik Azərbaycan və dünya musiqisini birləşdirən debüt albomu təqdim edilib.**



Bu münasibətlə təşkil edilmiş konsert proqramında Frank Martinin "İrlandiya xalq nəğmələri üzərində Trio", Dmitri Şostakoviçin Piano Triosu və Tofiq Bakıxanovun III Piano Triosu səsləndirilib. Konsert ansamblın Kelt xalq melodiyalarından tutmuş Şostakoviçin müharibə dövrü elegiyasına, muğam ritmlərini Qərbin klassik formaları ilə sintez etmiş Tofiq Bakıxanov musiqisinə qədər müxtəlif ənənələri bir araya gətirmək bacarığını nümayiş etdirib.

Göndərilmiş hədiyyə isə görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevin özünün, onun müəllimi olmuş Dmitri Şostakoviçin (böyük bəstəkarımız 1946-cı ildə Pyotr İliç Çaykovski adına Moskva Dövlət Konservatoriyasında Dmitri Şostakoviçin bəstəkarlıq sinfini bitirmişdir) və Qara müəllimin sonuncu tələbələrindən birinin – Tofiq Bakıxanovun əsərləri yazılmış musiqi albomudur. Tofiq müəllim dedi ki, həmin albomda onun III Fortepiano Triosunun dünya üzrə ilk səsyazmasının yer alması Azərbaycan musiqisinə Avropada göstərilən marağın təzahürüdür.

Xatırladaq ki, adıçəkilən əsər Azərbaycan musiqi irsinin zənginliyini əks etdirir, həm Şərq, həm də Qərb ənənələri ilə ritmik və melodik bağlara malikdir. Musiqişünasların fikrincə, İsveçrədə ərsəyə gəlmiş yeni albom Tofiq Bakıxanov musiqisinin müxtəlif beynəlxalq festivallarda və böyük konsert salonlarında ifa olunmasına, bununla da onun yaradıcılığının daha geniş auditoriyaya çatmasına təkan verəcək.

Qeyd edilir ki, bu albom Avropada Azərbaycan mədəni irsinin təbliğatçısı kimi tanınan və Cenevrədə fəaliyyət göstərən "Heritage Association"ın dəstəyi və sponsorluğu, eləcə də yenilikçi musiqi layihələrini dəstəkləyən "Odradek Records"la əməkdaşlıq sayəsində ərsəyə gəlib.

İtaliyanın Peskara – Montesilvano şəhərindəki "The Spheres" studiyasında yazılmış musiqini trio üzvləri – gənc və beynəlxalq səviyyədə tanınmış skripkaçı Cəmilə Qarayusifli, violonçel ifaçısı Sandro Mezaros və pianoçu Darya Korotkova ifa etmişlər. Bildirilir ki, onların dərin emosional və təsirli ifası Cenevrə tamaşaçıları tərəfindən böyük rəğbətlə qarşılanıb və ansamblın musiqi vasitəsilə mədəniyyətləri birləşdirmək missiyasını bir daha nümayiş etdirib. Vurğulanmalı daha bir məqam ondan ibarətdir ki, bu albomun "Spotify" və "Apple Music" kimi əsas platformalarda, eləcə də ansamblın rəsmi kanalları vasitəsilə dinlənilməsi mümkündür.

Bəstəkar qeyd etdi ki, ötən ilin son ayı onun üçün, sözün həqiqi mənasında, uğurlu olub. Belə ki, həmin müddətdə Bakıdakı "AVE Print" nəşriyyatı (Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin xətti ilə) bəstəkarın "Həmişə bizimləsən" simfonik poemasını kitab şəklində nəşr etmişdir. Akademik Rafael Hüseynovun redaktorluğu və ön sözün müəllifliyi ilə ərsəyə gəlmiş yeni kitabda ulu öndər Heydər Əliyevə həsr olunmuş əsər barədə mükəmməl məlumat verilir və həm o böyük siyasət dahisinin həyatı, həm də bəstəkarın yaradıcılığı böyük ustalıqla xarakterizə edilir.

Bəstəkarı məmnun edən başqa bir fakt isə ona Qahirədən yeni bir kitabın göndərilməsidir. Belə ki, qədirbilən misirli ədəbiyyatsevərlər Tofiq Bakıxanovun qızı, filologiya elmləri namizədi, xeyli müddət Qahirədə çalışmış Nigar Bakıxanovanın "Əhməd Şövqinin dramaturgiyası" (bu ərəb şairi öz pyeslərini nəzmlə yazmış, klassik ərəb ədəbiyyatı ənənələri ilə Qərb dramaturgiyasını birləşdirmişdir) adlı elmi əsərini mərhumun vəfatından düz otuz il sonra, növbəti dəfə kitab şəklində ərsəyə gətirmişdir.

***İttifaq MİRZƏBƏYLİ***

*Kino aləmi*

# Gənc rejissorun sənət "nübar"ları

## *"Canqurtaranlar"ın ekran dastanı*



**Onun filmoqrafiyası hələlik elə də zəngin deyil, amma azdan-çoxdan yaratdıqları gələcəyin tanınan kinorejissoru olacağına zəmanət verir. Söhbət "Azərbaycantelefilm" Yaradıcılıq Birliyində çalışan gənc rejissor Murad Quliyevdən gedir.**

Murad 2006-2010-cu illərdə Mədəniyyət və İncəsənət Universitetində Eldar Quliyevin kursunda kinorejissorluq ixtisası üzrə təhsil alıb. Tələbə vaxtlarından ərsəyə gətirdiyi sənədli ekran işləri ilə tay-tuşlarından seçilə bilib.

Onun yaddaqalan son əsərlərindən biri "Canqurtaranlar" sənədli filmidir. Bu kinolent 2023-cü ildə Türkiyə Cümhuriyyətində baş vermiş zəlzələ zamanı Azərbaycan Respublikası FHN-in Xüsusi Riskli Xilasetmə Xidməti əməkdaşlarının göstərdiyi fədakarlıqdan bəhs edir.

Filmin qəhrəmanları hadisə zamanı Kahramanmaraş və Hatay şəhərlərində bir ay ərzində 53 nəfər insanın həyatını xilas edib, 700-dən çox cəsəd, çoxlu zinət əşyaları və sənədlər taparaq aidiyyəti üzrə təhvil veriblər. Qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan onlardan birini – filmin qəhrəmanı Elvin İsgəndərovu xidmətdə yüksək peşəkarlığa görə "Türkiyə Cümhuriyyəti dövlət üstün fədakarlıq nişanı" medalı ilə təltif edib.

"Azərbaycantelefilm"in istehsalı olan ekran əsərinin metrajı 50 dəqiqədir. Faciənin miqyası, xilasedicilərin hünəri yığcam, xarakterik detallarla təqdim olunur. Filmdə kadrarxası mətn yoxdur, bunu əməliyyat dialoqları və qəhrəmanların ürək sözləri əvəz edir. Uçqunlar altından xilas edilən balaca Zeynəbin, Nazın və digərlərinin sarsıntılı anları, həyəcanları təbii boyalarla əks etdirilir. Azərbaycandan zəlzələ məkanına köməyə yollanan peşəkarların təəssüratları epizodlar arasında elə ustalıqla yerləşdirilib ki, vacib ssenari elementlərinə çevrilib. Xilasedicilərin Bakıda müxtəlif fövqəladə hadisələr zamanı çağırışla ayrı-ayrı ünvanlara getdikləri kadrlar da filmdə əsas süjet xətti ilə paralel olaraq verilməklə onların çətin və şərəfli peşəsi barədə təsəvvürləri dolğunlaşdırır…

Söz vaxtına çəkər. Düz 7 il əvvəl, XQ-nin Cənub bölgəsi üzrə müxbir işlədiyim vaxt Gənclər Günü münasibətilə Masallı Regional "ASAN həyat" kompleksindəki kinoklubda "Gəncliyin səsi" festivalı təşkil olunmuşdu. Orada Murad Quliyevin çıxışını maraqla dinlədik. Gənc istedadların üzə çıxarılması, onların yaradıcılıq axtarışlarının, bilik və bacarıqlarının, əldə etdiyi nailiyyətlərin dəstəklənməsi, yeni simaların aşkar olunması məqsədini daşıyan həmin festivalda Murad Quliyev gənclərin festival və müsabiqələrdə iştirakının dövlət tərəfindən dəstəkləndiyindən danışdı, sonra kinoklubda onun "Debüt" studiyasında istehsal olunan "Yol ayrıcında qalmış taksı" adlı qısametrajlı bədii filmi nümayiş olundu və diskussiyalarda xeyli tərifləndi. Qeyd edək ki, daha öncə bu film Bakıda "Nizami" Kino Mərkəzində



nümayiş olunarkən Muradın müəllimi Eldar Quliyev ondan istedadlı yetirməsi kimi fəxrlə danışmış və "mənim tələbəm" demişdi. Bu, gənc rejissor üçün böyük qiymət idi.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinə həsr olunmuş "Üfüqə baxan adam" (Ənvər Məmmədxanlı), "Salman Mümtaz", "Dünya fırlanır" (Bəxtiyar Vahabzadə), "Bir günəşin zərrəsiyik" (Abdulla Şaiq), "Ömrü belə yaşadım" (Mədinə Gülgün), "Kür şairi" (Əliağa Kürçaylı), "Türkün Ulusu" (Xəlil Rza Uluturk), "Varislik" (akademik Kamal Talıbzadə) kimi filmləri onun sənətdə debüt dövrünü uğurla keçdiyini göstərir.

Mən Muradın "Adım Ələsgərdir, Göyçə mahalım", "Əlvida demirəm, görüşəcəyik" (Nüsrət Kəsəmənli haqqında) adlı sənədli-bədii və bioqrafik filmlərinə baxmışam. Əhməd Oğuzun və Məti Osmanoğlunun ssenariləri üzrə çəkilmiş bu filmlər unudulmaz şairlərə aid bilgilərlə zəngin olan, onların gözəl şeirlərini yada salan dolğun hekayətlərdir. Filmlərin hər biri Xalq yazıçısı Sabir Əhmədlinin nəvəsi, tanınmış filoloq, professor Tərlan Quliyevin və filologiya üzrə fəlsəfə doktoru Yaqut Quliyevanın oğlu olan Muradın ədəbiyyata, poeziyaya necə dərindən bələd olduğunu aydın göstərir.

**Filologiya üzrə fəlsəfə doktoru Firudin Qurbansoy XQ-yə bildirdi:**

– Onu uşaq yaşlarından tanıyıram. Hələ 7-8-ci siniflərdə oxuyarkən atası Murad üçün "Sony" markalı kiçik bir videokamera almışdı. O da məhəllə uşaqlarını bir yerə yığıb, oynadıqları "Dava-dava"nı lentə alırdı. Bu, onun rejissor kimi ilk kadrları idi. Bəxtindən Mədəniyyət və İncəsənət Universitetində görkəmli rejissor, Xalq artisti Eldar Quliyevin kursunda nəzəri və təcrübi biliklərə yiyələndi, sənətə bütün varlığı ilə bağlandı.

"Azərbaycantelefilm" yaradıcılıq birliyində ona həmişə daha çox ədəbiyyatla, ədəbiyyat nümayəndələri ilə bağlı portret filmlər çəkməyi tapşırıblar. Sevə-sevə icra edib, ədəbiyyatımızın görkəmli nümayəndələrinin həyatlarını ekrana layiqincə gətirib. Bu filmlər məzmun baxımından çox dolğundur. Murad müasir rejissor dünyasında, kino aləmində mövcud olan cərəyanları, onların müxtəlif çalarlarını və müasir Azərbaycan kinosuna, tələblərə yaxşı bələddir. Son zamanlar bu gənc rejissorun yaradıcılığında yeni bir istiqamət, yeni bir üslub hiss olunur. Əgər onun portret filmlərində əsasən qəhrəmanlarının həyat yolu, yaradıcılığının əsas məqamları ön plana çıxarılırdısa, son filmlərdə daha çox qəhrəmanların daxili dünyasına, onların mənəvi aləmlərinə nüfuz edilir.

Murad Quliyevin "Dönüş" filmi Bakıda yerləşən Şuşa teatrının işğaldan azad olunmuş doğma yurda qayıdışından bəhs edir. Digər filmi – "Qarabağ xalçaları"nda vaxtilə Şuşadan Bərdəyə, Bərdədən də Bakıya "qaçqın" gəlmiş xalçalardan bəhs edilir. Filmdə həmin xalçalar da Şuşaya yola düşməyə hazırlaşır. Daha bir kinolenti – "101, 102, 103" filmi isə erməni terrorçularının Bərdəyə kassetli raket atması nəticəsində baş vermiş faciə zamanı öz vəzifə borclarını şərəflə yerinə yetirən polis, yanğınsöndürən və təcili tibbi yardım briqadalarının fəaliyyətinin çətinliklərini tamaşaçıya çatdırır. "Bir gün isti izlərlə" filmində süjet boyu olan hadisələr elə isti izlərlə də açılır. "Adi qadın", "Bir gün metroda", "Gizli qalsın", "Ağalı" filmləri də dolğunluğu, dinamikası ilə seçilir.

Bəli, onun filmlərinin əsas qəhrəmanı insandır. Bütün ekran işlərini, demək olar ki, insanın hiss-həyəcanı, mənəvi-psixoloji dünyası üstündə qurur. Buna görə də yaradıcılıq nümunələri tamaşaçının qəlbinə nüfuz edir. Murad Quliyevin bir rejissor kimi uğuru məhz bundadır.

Murad sənətini bütün varlığı ilə sevir və qarşılaşdığı çətinliklər onu uşaqlıqdan könül verdiyi sənətindən qətiyyən incik salmır, əksinə, hər növbəti filmi təhvil verdikdən sonra Murad öz peşəsinə daha möhkəm bağlanır.

Sonda qeyd edək ki, fevralın 5-də axşam "Nizami" Kino Mərkəzində rejissor Murad Quliyevin "Canqurtaranlar" sənədli filminin növbəti nümayişi olacaq. Ora gedən seyrçilər bir daha gənc rejissorun yaradıcılıq uğurlarının canlı şahidi olacaqlar.

***Ə.DOSTƏLİ***
***XQ***

*Elmlər Akademiyası – zəka xəzinəsi*

# Heydər Əliyevin elm və təhsil strategiyası

## *Milli intellektual potensialın gücləndirilməsi*

*(əvvəli qəzetin 27, 28, 29 yanvar tarixli saylarında)*

1 sentyabr 2001-ci ildə Bakıdakı 6 saylı orta məktəbdə görüşdə Heydər Əliyevin söylədiyi nitq Ulu öndərin yeni dərs ilinin başlanmasını müstəqil Azərbaycanın onillik yubileyi ilə əlaqələndirməsi təhsili dövlət müstəqilliyinin möhkəmləndirilməsində aparıcı vasitə kimi gördüyünü göstərir. Onun fikrincə, əsrlər boyu azadlıq arzusu ilə yaşayan xalqın müstəqil dövlət qurmaq bacarığı məhz savadlı, bilikli və elmi düşüncəyə malik nəsillərin yetişdirilməsi ilə mümkün olmuşdur. Bu yanaşma təhsilin milli azadlıq ideyasının praktiki təminatçısı kimi qiymətləndirildiyini nümayiş etdirir.

Həmin nitqdə təhsil sisteminin dövlət qayğısı altında olması xüsusi vurğulanır. Məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir avadanlıqların, xüsusilə kompüterlərin məktəblərə gətirilməsi Heydər Əliyevin təhsili elmi-texniki tərəqqinin əsas şərti hesab etdiyini göstərir. O, bu imkanları yalnız texniki yenilik kimi deyil, elmi düşüncənin formalaşması və gələcək alimlərin yetişməsi üçün zəruri vasitə kimi təqdim edir.

Ümummilli lider Heydər Əliyevin müəllim peşəsinə verdiyi yüksək qiymət onun təhsili elmi cəmiyyətin əsas dayağı saymasının açıq göstəricisidir. O, müəllim əməyini dövlət, millət və xalq üçün ən vacib fəaliyyət sahəsi kimi səciyyələndirərək, elmi cəmiyyətin məhz məktəbdən başladığını vurğulayır. Ulu Öndərin fikrincə, orta məktəbdə formalaşan bilik və tərbiyə sonradan ali təhsildə və elmdə qazanılan nailiyyətlərin əsasını təşkil edir.

Nitqdə Heydər Əliyevin şəxsi həyat nümunələrinə müraciət etməsi onun təhsilə münasibətinin formal deyil, səmimi və həyat təcrübəsinə əsaslanan mövqedən qaynaqlandığını göstərir. Övladlarının təhsil yolu haqqında danışarkən Ulu öndər məktəbin insan taleyində, elmi və peşəkar inkişafda oynadığı həlledici rolu konkret faktlarla sübut edir. Onun vurğuladığı kimi, elmdə və ali təhsildə əldə olunan uğurların başlanğıcı məhz orta məktəbdə qoyulur.

Eyni zamanda, şəhər və kənd məktəbləri arasında fərqin olmaması ideyası Heydər Əliyevin təhsildə bərabər imkanlar prinsipinə verdiyi əhəmiyyəti əks etdirir. Bu yanaşma elmi cəmiyyətin sosial ədalət və ümummillilik prinsipləri üzərində formalaşmalı olduğunu göstərir.

Ümumilikdə, bu nitq sübut edir ki, Heydər Əliyev təhsili elmi cəmiyyətin yaranması və inkişafı üçün vazkeçilməz şərt hesab etmiş, məktəbi isə milli intellektual potensialın əsas mənbəyi kimi dəyərləndirmişdir. Onun təhsilə göstərdiyi diqqət və qayğı, əslində, Azərbaycanın elmi gələcəyinə, savadlı və müasir düşüncəli cəmiyyət quruculuğuna verilən ən böyük töhfədir.



### Nəsirəddin Tusi irsinə yüksək qiymət

Bu yazıda təqdim olunan çıxışlar, məktublar və faktoloji materiallar bir daha göstərir ki, ümummilli lider Heydər Əliyevin dövlətçilik düşüncəsində elm və təhsil milli inkişafın strateji dayağı, müstəqil dövlətin möhkəmlənməsinin başlıca şərti kimi çıxış etmişdir. Onun baxışlarında elm sadəcə akademik fəaliyyət sahəsi deyil, ölkənin intellektual təhlükəsizliyini, iqtisadi tərəqqisini, mədəni yüksəlişini və milli kimliyini təmin edən əsas qüvvədir. Bu səbəbdən Heydər Əliyev elmin inkişafını həm sovet dövründə, həm də müstəqillik illərində ardıcıl şəkildə dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirmiş, milli elmi sistemin formalaşması və dünya elmi məkanı ilə inteqrasiyası üçün prinsipial mövqe nümayiş etdirmişdir.

Mətnlərdə xüsusi vurğulanan əsas xətt milli kadr potensialının hazırlanmasıdır. Heydər Əliyev elmi tərəqqinin dayanıqlı olmasının yalnız institutların və maddi-texniki bazanın gücləndirilməsi ilə məhdudlaşmadığını, həlledici amilin insan amili – bilikli, vətənpərvər, yaradıcı və peşəkar kadrların yetişdirilməsi olduğunu ardıcıl şəkildə ön plana çəkmişdir. Bu baxımdan onun məktəb–universitet–akademiya xətti üzrə qurduğu konseptual yanaşma təhsil və elmin vahid sistem kimi qəbul edildiyini təsdiqləyir. Orta məktəbdən başlayan keyfiyyətli təhsil ali məktəbdə inkişaf edir, daha sonra akademik mühitdə elmi məktəblərə, tədqiqat institutlarına və milli elmi irsin zənginləşməsinə çevrilir.

Bakı Dövlət Universitetinə, Azərbaycan Elmlər Akademiyasına və müxtəlif elm sahələrinin görkəmli nümayəndələrinə münasibət bu strategiyanın praktik təzahürüdür. BDU-nun elmi-tədqiqat mərkəzi kimi təqdim edilməsi, Akademiyanın “elm məbədi” səviyyəsində qiymətləndirilməsi, həmçinin akademiklərə ünvanlanan təbriklər və vida nitqlərində alimin fəaliyyətinə verilən yüksək mənəvi-ictimai dəyər Heydər Əliyevin elm insanını milli inkişafın aparıcı siması kimi gördüyünü nümayiş etdirir. Ziya Bünyadov, Fəraməz Maqsudov, Azad Mirzəcanzadə, Mark Dalin, İmam Mustafayev kimi alimlərin timsalında elmə göstərilən ehtiram əslində bütövlükdə Azərbaycan elminə göstərilən dövlət qayğısının ifadəsidir.

Bu materiallarda daha bir mühüm məqam Heydər Əliyevin elm və təhsili milli-mənəvi dəyərlərlə və dil siyasəti ilə üzvi şəkildə bağlamasıdır. Ana dilinin qorunması və inkişafı, milli şüurun, vətənpərvərlik ruhunun formalaşması və ziyalı təbəqəsinin yetişdirilməsi onun konsepsiyasında elmlə eyni sırada dayanır. Çünki Ulu öndərin yanaşmasına görə, elmi tərəqqi milli mədəniyyət və kimlik üzərində möhkəmlənmədikdə dayanıqlı və məqsədyönlü ola bilməz.

Nəsirəddin Tusinin elmi irsinə istinad da bu ümumi fəlsəfi xəttin dərin tarixi köklərə söykəndiyini göstərir. Tusinin “elm və dinin köməkçisi, elm diyarının şahı” kimi dəyərləndirilməsi Azərbaycan elmi düşüncəsinin əsrlər boyu formalaşan nüfuzunu, elmin milli özünüdərk və humanist cəmiyyət ideyası ilə bağlılığını simvolik şəkildə ifadə edir. Bu gün Azərbaycan elminin Yer kürəsinin dərinliklərindən kosmosun yüksəkliklərinə qədər geniş istiqamətləri əhatə etməsi, məhz həmin böyük elmi ənənənin müasir mərhələdə davamı kimi qavranılmalıdır.

Beləliklə, təqdim edilən mətnlər vahid bir nəticəyə gətirib çıxarır: Heydər Əliyevin elm və təhsil strategiyası milli kadr potensialının formalaşdırılması, elmi institutların möhkəmləndirilməsi, ali məktəblərin elmi bazaya çevrilməsi, ziyalının cəmiyyət qarşısında məsuliyyətinin artırılması və milli elmi irsin tarixi köklər üzərində inkişaf etdirilməsi kimi kompleks prinsiplərə əsaslanır. Bu konsepsiya Azərbaycanın müstəqil gələcəyinin intellektual təminatını yaradan, elmi cəmiyyətin inkişafını strateji səviyyədə müəyyənləşdirən möhkəm ideya platforması kimi bu gün də aktualdır və milli tərəqqinin etibarlı yol xəritəsi olaraq dəyərləndirilə bilər.



Sonda bildirək ki, ümummilli lider Heydər Əliyevin formalaşdırdığı müstəqil Azərbaycan dövlətinin elm və təhsil siyasətini son 23 ildə Prezident İlham Əliyev yaradıcı şəkildə və uğurla davam etdirir. Ulu öndərin ideya və əməllərinin gerçəkləşməsinə geniş ictimai dəstək qazandıran Heydər Əliyev Fondunun qurumun rəhbəri Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirdiyi elm və təhsilə dəstək layihələri də ölkəmizdə intellektual tərəqqiyə layiqli töhfələr verir.

***Arif HƏŞİMOV,***
***akademik***

# Təhsil turizmi qlobal bilik xəzinəsinə qapı açır

## *Naxçıvan Dövlət Universiteti bu sahədə önəmli təcrübə qazanıb*

**Müasir dünyada turizm artıq təkcə istirahət və əyləncə ilə məhdudlaşmır, həm də şəxsi inkişaf, bilik və bacarıqların artırılması vasitəsi kimi çıxış edir. Bu yanaşmanın ən bariz nümunələrindən biri təhsil turizmidir. Bu turizm sahəsi müasir dövrdə qloballaşmanın sürətlənməsi ilə daha çox mədəni və intellektual dəyər yaradan müasir turizm sahəsi kimi özünü göstərir.**



Digər turizm növlərindən fərqli olaraq burada səyahətlərin mərkəzində istirahət deyil, öyrənmə prosesi dayanır. İnsanların başqa bir şəhərə və ya ölkəyə gedərək ali təhsil alması, seminar və təlimlərə qatılması, yay və qış məktəblərində oxuması, elmi konfranslarda iştirak etməsi həm də özündə bir sıra müsbət istiqamətləri birləşdirir.

Məsələn təhsil alan şəxs yeni bir mədəniyyətlə tanış olur, fərqli həyat tərzini müşahidə edir, vətəndaşı olduğu ölkə ilə oxuduğu ölkə arasında mədəni bağın iştirakçısına çevrilir. Eyni zamanda, iqtisadi baxımdan həmin turizm fərdləri sabit gəlir mənbəyinə çevrilir ki, bu da ölkələr üçün böyük əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikasında da son illərdə təhsil turizminin inkişafı üçün lazımi şərait formalaşıb və burada əsas potensial baza rolunu Naxçıvan Dövlət Universiteti oynayır. Son illərdə universitetdə infrastruktur yenilənmələri, innovativ yeniliklərin tətbiqi, kadr hazırlığı prosesində müasir yanaşmalar bu ali təhsil müəssisəsinin müxtəlif ölkə universitetləri ilə əməkdaşlığına geniş imkanlar açıb, regiona daha çox əcnəbi tələbələrin cəlbinə, bu isə öz növbəsində, təhsil turizminin inkişafına şərait yaradıb.

Universitetin sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Nicat Yaqubov bildirdi:

– Naxçıvan Dövlət Universiteti muxtar respublikanın qabaqcıl ali təhsil müəssisələrindən biri olmaqla, ölkə universitetləri sırasında da öz nüfuzu ilə seçilir. Son illər universitetin maddi-texniki bazasının təkmilləşdirilməsi yönündə atılan addımlar, xarici universitetlərlə əməkdaşlıq imkanlarının genişlənməsi, müxtəlif mübadilə proqramları çəriçivəsində atılan addımlar əcnəbi tələblərin universitetə marağını artırıb.

Hazırda Naxçıvan Dövlət Universiteti dünyanın 90-dan çox universiteti ilə əməkdaşlıq edir. Həmçinin 22 ölkədən universitetimizdə 1800-dən çox əcnəbi tələbə təhsil alır. Xarici tələbələrin ölkə mənşəyinə gəldikdə, ilk üçlükdə Türkiyə İran və Pakistandan gələn gənclər üstünlük təşkil edir. Əcnəbi professorların tədrisə cəlbi proqramı çərçivəsində 2025-2026-cı tədris ilində Türkiyədən, Yaponiyadan, Özbəkistandan və digər ölkələrdən olmaqla, 50-dən artıq professor universitetimizdə müvafiq ixtisaslar üzrə fəaliyyət göstərir ki, bu da təhsil turizminin inkişafı baxımdan təqdirolunasıdır.




Prorektor əcnəbi tələbələrin Naxçıvan Dövlət Universitetini seçməkdə əsas amil kimi ölkəmizdəki sabitliyi, tolerant dəyərlərə üstünlük verilməsini, tələbələrə burada yaradılan şəraiti, qiymətlərin münasibliyi və digər bu kimi səbəbləri qeyd edərək dedi:

– Naxçıvan Dövlət Universiteti müasir tələbə yataqxanası ilə də diqqət çəkir. 472 yerlik yataqxanada tələbələr üçün müasir şərait mövcuddur. Eyni zamanda, təhsil müddəti dövründə şəhərimizdə kirayə evlərini seçən tələbələr də çoxdur ki, bu da öz növbəsində, mənzil bazarının aktivliyinə birbaşa təsir göstərən amillərdəndir.

Təhsil turizmi planlı və məqsədli xarakter daşıyır, akademik və ya peşə yönümlü proqramlar əsasında həyata keçirilir və yüksək intellektual dəyər daşıyır. Belə turizmin əsas xüsusiyyətlərindən biri onun uzunmüddətli olmasıdır. Adi turistlərdən fərqli olaraq, təhsil məqsədilə səyahət edən şəxslər aylarla, bəzən illərlə qəbul edən ölkədə qalırlar. Bu isə onların yerli cəmiyyətə daha dərindən inteqrasiya olunmasına şərait yaradır.

Eyni zamanda, təhsil turizmi iqtisadi baxımdan sabit gəlir mənbəyi yaradır. Xarici tələbələr uzun müddət qalaraq kirayə, qida, nəqliyyat və müxtəlif xidmətlərə vəsait xərcləyirlər. Bu da turizmdən əldə olunan gəlirlərin mövsümi asılılığını azaldır və yerli biznesin inkişafına təkan verir. Həmçinin təhsil turizmi kütləvi turizmlə müqayisədə daha davamlıdır. Praktikada buna da rast gəlirik ki, əcnəbi tələbələr burada oxuyan zaman onların yaxın ailə üzvləri, dost-tanışları da çox vaxt Naxçıvanı görmək üçün səyahət edirlər. Bu da öz növbəsində, turizmə öz faydasını verir.

Təhsil turizminin ölkələr arasındakı əlaqələrdə hansı rol oynaması ilə bağlı sualımıza isə Nicat müəllim belə cavab verdi:

– Təhsil turizmi bir ölkənin və ya regionun beynəlxalq imicinin formalaşmasında mühüm rol oynayır. Keyfiyyətli təhsil sistemi xarici tələbələri cəlb edir və həmin tələbələr gələcəkdə ölkə haqqında müsbət fikir formalaşdıran bir növ “mədəni səfir”ə çevrilirlər. Bu, ölkənin yumşaq gücünü artırır və beynəlxalq əlaqələrin möhkəmlənməsinə xidmət edir.

Cəmiyyət baxımından isə təhsil turizmi mədəni mübadilə və insan kapitalının inkişafı üçün geniş imkanlar yaradır. Yerli gənclər fərqli ölkələrdən gələn tələbələrlə ünsiyyət quraraq yeni baxış bucaqları ilə tanış olur, xarici dillərə və qlobal düşüncəyə daha açıq yanaşırlar. Bəzi hallarda isə xarici tələbələr təhsillərini başa vurduqdan sonra ölkədə qalaraq müxtəlif sahələrə öz töhfələrini verirlər. Muxtar respublikasının simasında biz buna çox rast gəlmişik.

Qeyd edildiyi kimi, təhsil turizmi, sadəcə bir səyahət məqsədli turizm növü deyil. Bu turizm sahəsi fərdin şəxsi inkişafına xidmət etdiyi kimi, ölkələrin iqtisadi, mədəni və intellektual inkişafında da mühüm rol oynayır. Bu baxımdan təhsil turizmi gələcəyə yönəlmiş, davamlı və dəyər yaradan turizm modelidir. Gəldiyimiz qənaət budur ki, Naxçıvan Dövlət Universiteti regionda bu turizm növünün inkişafına böyük töhfələr verir.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

# Milli ruhun müasir çoxsəsli ahəngini yaradan bəstəkar



**Çoxəsrlik musiqi tariximizin bütün dövrlərində xalqın duyğu və düşüncələrini ifadə edən həzin melodiyalar, muğamlar və folklor nümunələri yaranmışdır. Bu gün müasir bəstəkar və ifaçılar bu tarixi irsi yaşadaraq zəngin və nadir Azərbaycan musiqisini dünya səhnələrində təqdim edirlər.**

Əməkdar incəsənət xadimi, "Şöhrət", "Şərəf" ordenli, Xalq artisti, Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadə bu ənənənin çağdaş mərhələsində milli musiqi düşüncəsini böyük konsert salonlarında səsləndirən parlaq simalardandır. Onun musiqisi Şərqin dərin köklərindən qidalanaraq Qərbin avanqard düşüncə sistemi ilə qovuşur, zamanın sərhədlərini aşaraq milli ruhu qlobal səhnəyə daşıyır. Bəstəkarın partituralarında muğam nəfəsi ilə modern texnikanın harmoniyası, sükutla səs arasındakı tarazlıq incə poetika yaradır. "İntizar", "Qarabağnamə", "Sənin adın Dənizdir", "Ağ atlı oğlan" operaları, "Boş beşik" və "Stadt-Graniza" baletləri, "Habil Sayağı", "Oazis", "Dərviş", "Abşeron" instrumental kompozisiyaları, "Silk Road" Konserti, violonçel və orkestr üçün Konsert "Mərsiyə", böyük simfonik orkestr üçün "İthaf", "Dərviş" və s. əsərləri mötəbər konsert salonlarında böyük triumfla səslənir və dünyanın məşhur ifaçılarının repertuarında yer alır.

Müasir musiqiyə gətirdiyi yeniliklər bəstəkara ölkəmizlə yanaşı, beynəlxalq musiqi məkanında da şan-şöhrət qazandırıb. UNESCO-nun "Sülh artisti" fəxri adına layiq görülmüş yeganə azərbaycanlı, tanınmış pianoçu, pedaqoq, mədəniyyət təşkilatçısı Firəngiz Əlizadə ilə söhbətimizdə müasir musiqidə milli irsin qorunması, sənətkar məsuliyyəti və yaradıcılıq azadlığı barədə fikir mübadiləsi apardıq. Oxuculara təqdim etdiyimiz müsahibə geniş dünyagörüşünə malik bəstəkarın Azərbaycan musiqi salnaməsinə fərqli baxışının ifadəsidir.

***– Firəngiz xanım, uzun illərdir beynəlxalq musiqi məkanında ölkəmizi yüksək səviyyədə təmsil edirsiniz. Dünyanın müxtəlif şəhərlərində əsərləriniz səslənir, yaradıcılığınıza həsr olunan konsertlər keçirilir. Xarici dinləyicinin Azərbaycan musiqisinə münasibəti necədir?***

– Azərbaycan musiqisinin ənənələri çox zəngin və qədim olduğundan bütün dünyada milli musiqimizə böyük maraq və diqqət var. Təbii ki, bu, musiqinin hansı səviyyədə və hansı auditoriyaya təqdim edilməsindən çox asılıdır. Deyərdim ki, bu gün Avropada müasir bəstəkarlarımızın yazdıqları əsərlər, onların təhsillərini hansı səviyyədə inkişaf etdirdikləri ilə yaxından maraqlanırlar.

Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı ilə 2009, 2011, 2013, 2015, 2018-ci illərdə keçirilən, UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmiş Azərbaycan muğamının və əlaqəli musiqi formalarının ənənələrinin qorunması, ifası və tədqiqini təşviq edən önəmli tədbirlərdən biri olan "Muğam aləmi" beynəlxalq festivalının bədii rəhbəri olmuşam. Amerikadan başlamış Çinin uyğurlarına qədər muğam sənətimizin öyrənilməsi, bu barədə dəyərli elmi əsərlərin yazılması məni çox təəccübləndirirdi. Biz bu mütəxəssisləri Azərbaycana dəvət etdik və çox maraqlı simpoziumlar keçirdik.

Beynəlxalq aləmdə milli musiqimiz yüksək səviyyədə nümayiş etdirilməli, dünyanın hər yerində konsertlər təşkil olunmalıdır ki, maraq daha da artsın.

***– Yaradıcılığınızda Şərq musiqi təfəkkürü ilə Qərb avanqard texnikalarının sintezi əsas xətt təşkil edir. Bu iki dünyanı bir araya gətirərkən hansı prinsipləri əsas götürürsünüz?***

– Hər bir bəstəkar müəyyən bir mühitdə formalaşır. 1960-cı illərdə biz musiqi məktəblərində və konservatoriyada tanınmış azərbaycanlı musiqiçilərlə yanaşı, Leopold Rostropoviç, Mayor Rafailoviç Brenner, Boris Zeydman kimi görkəmli şəxsiyyətlərdən çox yüksək səviyyədə təhsil aldıq. Müəllimlərimiz Sovet İttifaqında məşhur insanlar idi. Məsələn, imtahanları Kövkəb Səfərəliyeva götürürdü. Bu mənada, biz həm yüksək klassik musiqi təhsili almış, eyni zamanda da muğam, aşıq sənəti, gözəl xalq mahnılarımızı dinləmişik. Məhz belə bir mühitdə formalaşdığımıza görə, mən və bütün Azərbaycan bəstəkarları həmişə çalışmışıq ki, əsərlərimizdə milli musiqi ənənələrimizi yaşadaq.

***– Siz həm istedadlı bəstəkar, həm də vətənpərvər ziyalısınız. 1990-cı ildə ölkəmizdə törədilən qanlı 20 Yanvar faciəsindən sonra Amerikada Azərbaycan mədəniyyətini, milli musiqi ənənələrimizi təbliğ etməklə yanaşı, həm də azadlıq istəyən bir xalqın səsini dünyaya çatdırdınız.***

– Yanvar hadisələri böyük faciə, eyni zamanda, milli dirçəlişimiz idi. Sovet İttifaqının tərkibində yaşadığımız dövrdə mədəniyyət sahəsində fəaliyyət göstərən insanlar bəlkə o qədər də milli ənənələrə fikir vermirdik. Amma qanlı Yanvar hadisələri zamanı elə bil ki, azərbaycanlı olaraq ikinci dəfə dünyaya gəldik. Bu ağrılı, uzun, amma qürurverici prosesi musiqiçilər, yazıçılar, rəssamlar da yaşadılar. Bizdə Şərq təfəkkürü dirçəldi, özümüzü Sovet İttifaqının nümayəndəsi kimi yox, əsl azərbaycanlı kimi hiss etdik.



O dövrdə xarici ölkələrdən tez-tez dəvətlər alırdım və 1989-cu ildə həyat yoldaşım Cahangir Zeynallı ilə Amerikaya getdik. Los-Ancelesdə Şönberg İnstitutunda açıq dərslər keçdim, eyni zamanda konsert verdim. Buna görə mənə verilən 2000 dollara konsertlərimi və açıq dərslərimi çəkmək üçün kamera aldıq . Amma təəssüf ki, cəmi bir neçə ay sonra Cahangir həyatını təhlükəyə ataraq həmin kamera ilə xalqımızın başına gətirilən müsibəti – 20 Yanvar faciəsini lentə aldı. Həmin ilin sentyabrında biz yenidən Amerikaya dəvət olunanda kasetləri, fotoları notlarımın arasında gizlədib ora apardıq. O dönəmlərdə xalqımızın haqq səsini dünya ictimaiyyətinə çatdırmaq çox çətin idi. Mən də bu Vətənin övladı kimi öz missiyamı yalnız sənət əsərləri yaratmaqla bitmiş hesab etmədim. Xalqımızın yaşadığı bu acı taleyi bütün dünyaya göstərməyə çalışdım.

***– London Simfonik Orkestrinin təklifi ilə yazdığınız əsəri "NİZAMİ Cosmology" adlandırdıqda qarşı tərəf israrla sübut etməyə çalışdı ki, Nizami azərbaycanlı deyil, fars şairidir.***

– "NİZAMİ Cosmology" əsərimi yazanda jurnalistlər, musiqiçilər, dirijorlar, konsertmestrlər və menecerlərlə yazışmalar gedirdi. Jurnalistlər israrla deyirdilər ki, Nizami azərbaycanlı deyil, farsdır, nədən öz əsərinizi belə adlandırırsınız. Bu yazışmalar aylarla davam etdi, mən çox üzülürdüm. Ona görə ki, birincisi, vaxtım məhdud idi, başqa işlərlə məşğul olmalıydım. İkincisi də əslində, bəstəkar bu yazışmaları aparmalı deyil.

Bu məsələni filosoflar, elm adamları, akademiklər, sənətşünaslar çoxdan həll etməli idilər. Amma belə oldu ki, uzun-uzun yazışmalar getdi və mən onlara qətiyyətlə bildirdim ki, Nizami Azərbaycanın qədim şəhəri Gəncədə doğulub, həyatı boyu orada yaşayıb və orada da dəfn olunub. Dahi Azərbaycan şairinin Gəncədə muzeyi var və biz yubiley günlərində onu ziyarət edirik. Onların nəzərinə çatdırdım ki, latın dili ümumAvropa dili idi, bütün elmi işlər bu dildə yazılırdı. Şərqin poeziya dili isə fars diliydi və bizim tanınmış, məşhur şairlərimizin çoxu fars dilində yazıb-yaradıblar. Osmanlı imperiyasının sultanları sevgi məktublarını belə fars dilində yazıbar.

Ümumiyyətlə, Nizami haqqında diskussiyalar zamanı mən dəfələrlə Qara Qarayevin "Yeddi gözəl" baleti və Fikrət Əmirovun "Nizami" simfoniyası haqqında söz açmışam. Amma bunlarla bəstəkar məşğul olmalı deyil, bunun üçün aidiyyəti qurumlar cavabdehlik daşımalıdır.

***– Musiqinizdə millilik çox dərin qatlarda hiss olunur. Müasir dövrdə bəstəkar üçün milliliyi qorumaq çətin deyil ki?***

– Çox dərin və mən deyərdim ki, sirli bir sualdır. Ona görə ki, millilik müxtəlif ola bilər. Mənim müəllimim – görkəmli bəstəkar Qara Qarayev həmişə deyirdi ki, millilik çox da gözə çarpmamalı, dərində gedən bir proses olmalıdır. Musiqidə milliliyi bəsit üsullarla deyil, yüksək biliklə, hissiyyatla, professional səviyyədə göstərmək lazımdır. Biz belə məktəb keçmişik və heç vaxt düşünməmişəm ki, mənim musiqim məhz milli olmalıdır. Yox, bu proses çox normal şəkildə formalaşıb və müasir musiqidə bəlkə o qədər də hiss olunmur.

Amma professional, bəstəkarlıq məktəbində millilik həmişə əsas prinsip olub. Misal üçün, Üzeyir Hacıbəylinin musiqisi, Fikrət Əmirovun simfonik muğamları, Qara Qarayevin "Yeddi gözəl"i həm milli, həm də bəşəri ideyaları tərənnüm edən yüksəksəviyyəli Azərbaycan musiqisidir. Əsərlərimin adlarının Azərbaycan musiqisi ilə bağlı olması da bir təbliğatdır. Amerikalılar mənim "Muğam Sayağı" əsərimi ifa edəndə soruşurlar ki, muğam nədir, sayağı nədir və mən onlara bunu ətraflı şəkildə izah edirəm.

***– Əsərlərinizdə sükut, pauza və zaman anlayışı xüsusi semantik yük daşıyır. Musiqidə sükut sizin üçün nəyi ifadə edir?***

– Bu, çox dərin, çətin və fəlsəfi məsələdir. Musiqi elə yazılmalıdır ki, pauza olanda dinləyici musiqinin təsiri altında qalsın. Yəni musiqinin diqtə etdiyi emosional vəziyyət yaşasın. Zen buddizmində pauza, sükut böyük məna kəsb edir və demək olar ki, musiqi əsərlərində, poeziyada, teatr sənətində sükuta çox geniş yer verilir və bu, insanlara yaxşı təsir bağışlayır. Məsələn, amerikalı bəstəkar, musiqi nəzəriyyəçisi və avanqard sənətin mübahisəli yenilikçilərindən olan Con Keyqin "4'33" əsərində pianoçu səhnəyə çıxır, pianonu açır, 4 dəqiqə 30 saniyə heç nə ifa etmir. Bu vaxt keçəndən sonra səhnəni tərk edir. Deməli, dinləyici bu müddətdə vəziyyəti dərk edərək yaşayır.

Bu məsələyə müxtəlif yanaşmalar var. Bəli, əsərlərimdə sükut, pauza var. Musiqi anlamlı olmasa, dərin emosiyalar oyatmasa insan o sükutu dərk edə bilməz. Yəni o sükut boşluq təsiri yaradar.

***– Bu gün ciddi simfonik, akademik musiqinin vəziyyəti ürəkaçan deyil. Niyə akademik əsərlər yazılmır?***

– Təəssüflər olsun ki, doğrudan da ciddi simfonik, akademik musiqidə problemlər var. Bilirsiniz, hər şey təhsildən başlayır. Bu baxımdan, öncə konservatoriyalarda təhsilin hansı səviyyədə olduğunu analiz etmək lazımdır. Ona görə ki, əgər pedaqoq nüfuzlu musiqiçidirsə, gözəl əsərlər yazırsa, dinləyici onun əsərlərinə qulaq asaraq musiqi zövqü formalaşırsa, bu, tələbələr üçün impuls, gözəl örnəkdir. Onlar da çalışırlar ki, belə əsərlər yazsınlar.

Bundan başqa, filarmoniya konsertlərində klişe proqramlar təqdim olunur, yeni əsərlər yazıb-yaradan bəstəkarların əsərləri isə üzə çıxarılmır. Bu da istər-istəməz belə bir fikir yaradır ki, Azərbaycanda müasir musiqi yoxdur, heç kim musiqi yazmır və vəziyyət pisdir. Əslində, bu proses bütün dünyada gedir. Mən deyərdim ki, bəlkə təkcə almandilli ölkələrdə bu gün də gözəl, müasir musiqi yazılır və təbliğ olunur.

İlk öncə Berlin Filarmoniya Orkestrində görkəmli dirijorların fəaliyyətini qeyd edə bilərəm. Eyni zamanda, İsveçrədə, Avstriyada, Amsterdamda məşhur orkestrlər müasir musiqini təbliğ edir, dirijorlar bunun interpretasiyasını təqdim edir, geniş diskussiyalar aparılır. Belə bir ənənə də var ki, konsertdən bir saat əvvəl tamaşaçı həm bəstəkar, həm də orkestrin dirijoru ilə görüşə, suallarını verə bilər. Konfranslarda təqdim olunan əsərlər haqqında verilən çox geniş məlumatlar isə yeni musiqini dərk etməyə yardımçı olur.

***– 100-ə yaxın əsərin müəllifisiniz, hər il xaricdə iki-üç premyeranız olur. Ancaq bu əsərlərdən təxminən 15-i ölkəmizdə ifa olunub. Bunun səbəbini necə izah edirsiniz?***

– Bəli, belədir. Əsərlərimin 85 faizinin heç vaxt Azərbaycanda səslənməməsi mənim üçün üzücü bir faktdır. Çox istərdim ki, bu əsərlər ölkəmizin konsert salonlarında, televiziya ekranlarında səsləndirilsin.

***– Beynəlxalq festivallarda, böyük salonlarda tamaşaçı reaksiyası sizin üçün nə dərəcədə önəmlidir?***

– Festivallarda, böyük səhnələrdə – möhtəşəm Berlin filarmoniyasında, Amsterdamdakı Konsertgebauda "Nəsimi Passionları"nın səslənməsi və dinləyicilərin sürəkli alqışları çox qürurvericidir. Həyat yoldaşım Cahangir Zeynallı bunları lentə alıb və ölkəmizdə də həmkarlarıma göstərirəm. Amma bu, həmişə mümkün olmur. Bu yaxınlarda Amsterdamda violonçel və orkestr üçün yeni əsərim səsləndi. Təəssüf ki, bunu lentə almaq mümkün olmadı. Amsterdamda dərc olunan musiqi jurnalında bu barədə geniş məqalə verilib, ayrı-ayrı şəkillər də var. Bütün bunlar mənim üçün çox qiymətlidir.

***– Bu gün yaradıcılıq yolunuza nəzər salanda "yenidən yazardım" dediyiniz əsər varmı?***

– Bəli, yazmaq istədiyim əsərlər çoxdur. Çünki bütün ideyaları reallaşdırmaq mümkün olmur, gərgin iş rejimi var, tədbirlər, xarici ölkələrə səfərlər həddindən çoxdur. Hətta bəzən təyyarədən təyyarəyə minmək lazım olur. Bu yaxınlarda Kanadaya getdim və orada 5 gün ərzində "Firəngiz Əlizadə günləri" dekadası təşkil olundu. Orada mənim bütün kvartetlərim ifa edildi, çox gözəl görüşlər, konfranslar oldu, açıq kompozisiya dərsləri keçirildi. Bütün bunları həyata keçirmək üçün həm vaxt, həm də enerji tələb olunur.

***– Uzun illər Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında pedaqoji fəaliyyətlə məşğul olmusunuz. Gənc bəstəkarların əsas problemi nədir: texniki çatışmazlıq, yoxsa dünyagörüşü?***

– Möhtərəm Prezidentimiz İlham Əliyev mədəniyyət sahəsinin inkişafına böyük diqqət və qayğı göstərir. Bilirsiniz ki, 2008-ci ildən etibarən Yazıçılar Birliyi, Bəstəkarlar İttifaqı və Rəssamlar İttifaqı hər ayda 300 manat təqaüd verir. Həmçinin Şabran istirahət mərkəzi yaradılıb. Bəstəkarlarımız və musiqişünaslarımız burada dincələrək yeni əsərlər yaza bilirlər.

Bəstəkarlar İttifaqı gənc bəstəkarlara hər zaman qayğı göstərir. Gənc bəstəkarların yaradıcılığı bölməsinin sədrləri – İlahə Qismət və Tural Məmmədli ayda bir dəfə yeni əsərlərə qulaq asır və müzakirə edirlər. Həmçinin biz öz konsert salonumuzda kamera, instrumental və vakal musiqini dinləyicilərə təqdim edirik. Əsas problem ondan ibarətdir ki, onların inamı yoxdur ki, yazdıqları musiqi kiməsə lazımdır, onu kimsə ifa edəcək. Mədəniyyət Nazirliyi tərəfindən sifariş almaq və ya vermək çox çətinləşib, demək olar ki, yox dərəcəsindədir. Bu mənada, gənc bəstəkarların təhsildən başlamış məişət məsələləri də daxil olmaqla çox böyük problemləri var və onları çözmək üçün zaman lazımdır.

***– Gənc bəstəkarların peşəkarlıq səviyyəsi, fəallığı, yaratdığı əsərlər Azərbaycan Bəstəkarlar İttifaqının sədri olaraq sizi qane edirmi? Onlara nə tövsiyə edərdiniz?***

– Biz gənc olanda Qara Qarayevin, Üzeyir Hacıbəylinin, Cövdət Hacıyevin, Fikrət Əmirovun yubileylərində məqalələr yazırdıq və həmin məqalələr mətbuatda dərc olunurdu. Hətta söz deməyə haqqımız olmasa da bədii şuralarda iştirak edirdik. O vaxt iclasların birində Səid Rüstəmov Tofiq Quliyevə dedi ki, mahnında hecalar düzgün istifadə olunmayıb, bunu yenidən işləmək lazımdır. Tofiq Quliyev də bunu düzəltdi və indi həmin mahnı dillər əzbəridir.

Mən istərdim ki, təkcə musiqişünaslar yox, gənc bəstəkarlar da öz düşüncələrini, fikirlərini bölüşsünlər, məqalələr yazsınlar, bir sözlə, fəal olsunlar. Çox təəssüf ki, bu mövzular onlara maraqlı deyil və bu, məni çox narahat edir.

***– Televiziya kanallarında klassik musiqiyə yer verilməməsi, bayağı musiqilərin səsləndirilməsi sözün əsl mənasında insanın zövqünü korlayır. Sizcə, belə halların qarşısını almaq üçün hansı addımlar atılmalıdır?***

– 2007-ci ildə Bəstəkarlar İttifaqının sədri kimi fəaliyyətə başlayanda bütün televiziya kanallarına məktub yazdım ki, bədii şuralar bərpa edilsin və televiziyada səsləndirilən musiqilər müzakirə olunsun, rəylər verilsin. Bədii şuralarda yüksək səviyyəli, professional musiqiçilər iştirak etməli və öz sözlərini deməlidirlər.

***– Sözsüz ki, gözəl əsərlə yanaşı, musiqişünas, dirijor, ifaçı, eləcə də musiqini dərk edən dinləyici olmalıdır. Bu prizmadan yanaşsaq, vəziyyət necədir?***

– Təbii ki, təkcə bəstəkar heç nə edə bilməz, əgər musiqisi səslənməsə onu heç kim tanımayacaq, bilməyəcəklər ki, belə bir bəstəkar, belə bir əsər var. Yaxşı dirijor da, musiqişünas da olmalıdır. İfaçılar bu əsəri sevməli, onun dərinliyini, dəyərini anlamalı və təbliğ etməlidir. Festivalların təşkilatçıları yeni əsərlərlə maraqlanmalı və proqramlara daxil etməlidirlər. Biz bunu gözləyirik və söhbətlərdə, görüşlərdə bu məsələni dönə-dönə qeyd edirik. Təqdim etdiyimiz əsərlərin bəziləri qəbul olunur, bəziləri isə səsləndirilmir. Bu yaxınlarda keçirdiyimiz müsabiqənin laueratlarının əsərləri hələ də təqdim olunmayıb. Onlara diplomlar da verilməyib. Bu məsələlər öz həllini tapmalıdır.

***– 2019-cu ildən görkəmli rus bəstəkarı A.P.Petrovun adını daşıyan Beynəlxalq Bəstəkarlar Müsabiqəsinin münsiflər heyətinin sədrisiniz. Bu barədə məlumat verməniz istərdik.***

– Mən bir çox müsabiqələrin sədri də olmuşam, iştirakçısı da. Məsəl üçün, Salzburg şəhərində dahi bəstəkar V. Motsartın xatirəsinə həsr olunan pianoçuların, Amerikada San Dieqoda bəstəkarların müsabiqəsində, A.P.Petrovun adını daşıyan Beynəlxalq Bəstəkarlar Müsabiqəsində və bu yaxınlarda keçirilən Sergey Raxmaninov adına Beynəlxalq Gənc Pianoçular Müsabiqəsində münsiflər heyətinin tərkibində olmuşam. Çox maraqlı işdir, yeni əsərlərə qulaq asır, analiz edir, partiturlara baxırsan.

Peterburqlu bəstəkar İqor Druxun "Betelgeize" əsəri çox gözəl əsərdir. Mən əsəri Bakıya gətirdim, qulaq asdıq, partituraya baxdıq. Yəni, çalışıram ki, mənim beynəlxalq müsabiqələrin münsiflər heyətində iştirakım Azərbaycan bəstəkarlarına da yeni əsərlərlə tanış olmaq imkanı yaratsın. Onlar da bu partituraları görsünlər, nəsə öyrənsinlər ki, əsərlərində də yeniliklər olsun.

***– Azərbaycan musiqi irsinin gələcək nəsillərə ötürülməsində, mədəni siyasətin həyata keçirilməsi prosesində Bəstəkarlar İttifaqının rolu nədən ibarətdir?***

– Bəstəkarlar İttifaqı milli musiqi irsinin gələcək nəsillərə ötürülməsində, mədəni siyasətin həyata keçirilməsində böyük işlər görür. Hər ay 2-3 elmi konfrans, musiqişünasların yeni kitablarının təqdimat mərasimləri təşkil olunur. Elə bu yaxınlarda akademik Zemfira Səfərovanın 5 kitabı təqdim edildi .

Üzeyir Hacıbəylinin ildönümü ərəfəsində hər il konfranslar keçirilir. Dahi bəstəkarın 140 illik yubileyi ilə bağlı Almaniyada böyük çıxışım oldu, arxivdə olan kadrlar göstərildi və mən alman dilində bu film və ümumilikdə Üzeyir Hacıbəyli haqqında ətraflı məlumat verdim.

Yanvarın 29-da Azərbaycan Bəstəkarlar İttifaqının Ü.Hacıbəyli adına konsert salonunda "Şanlı Zəfərə həsr olunan Azərbaycan bəstəkarlarının simfonik orkestr üçün əsərləri" (Partitura, II cild) yeni not nəşrinin təqdimatı oldu.

***– "Habil sayağı" əsərinizi bütün dünya musiqisevərləri dinləyib, ən məşhur, virtuoz violençel çalanların ifasında kompakt disklərə yazılıb. Dünyanın bütün konservatoriyalarının dərsliklərinə daxil edilib. "Muğam Sayağı" isə bir il ərzində milyon dəfə ifa olunub. "İntizar" operası da sizə böyük uğur gətirib. Firəngiz Əlizadə üçün uğur anlayışı nədir?***

– "Habilsayağı"nı çox sevdiyim görkəmli kamança ustası Habil Əliyevin, "Abşeron"u isə Tofiq Quliyevin əziz xatirəsinə həsr etmişəm. Bu əsərlər çox yüksək ilhamla yazılıb. Mən Habilin pərəstişkarı olmuşam. Onun diski çıxmışdı, dəfələrlə o diskə qulaq asdım və heyran oldum. Violonçel və fortepiano üçün yazdığım "Habil Sayağı" nın üzərində 2 il çalışdım. Tanınmış violonçel ifaçısı İvan Moniqetti bu əsəri ifa edib. "YouTube" kanalını açsanız orada yüzlərcə ifa görə bilərsiniz. Təvazökarlıqdan uzaq olsa da deyim ki, çox məşhur əsərdir. Ümumiyyətlə, bu əsərlərin hər biri beynəlxalq musiqi aləmində təbliğ olunur və dünya musiqiçiləri də bu əsərlərlə maraqlanırlar.

"Muğam Sayağı" da həmçinin, 1992-ci ildə Türkiyəyə gedəndə "Boş beşik" baletini yazdım və 1993-cü il yanvar ayının 3-də səhnədə göstərildi. Mersin şəhərində keçirilən premyeraya görkəmli bəstəkarımız Tofiq Quliyev və bütün dünyadan qonaqlar gəlmişdilər. Türkiyənin görkəmli dövlət və siyasi xadimi Süleyman Dəmirəl təbrik teleqram göndərmişdi. "Muğamsayağı"nı da həmin vaxtlarda bəstələdim və aprel ayında Nyu-York-da Con F.Kennedi adına İfaçılıq Sənətləri Mərkəzində dünyanın ən tanınmış kvarteti- Kronos Kvarteti və Bakıdakı Alman Lüteran Kirxasında dövlət simli kvarteti tərəfindən çox gözəl ifa olundu.

Bundan başqa, mənim gitar üçün fantaziyam İsveçrədə dərc olunub və çox populyar əsərdir. Dünyanın bütün gitar ifaçıları bu əsəri öz konsert proqramlarına daxil ediblər. Məncə, sanballı əsərlərlə Vətənini bütün dünyada təmsil etmək böyük uğurdur.

***– Azərbaycanda bütün zamanlarda yüksək səviyyəli bəstəkarlıq məktəbi olub. Bu ənənə davam edirmi?***

– Ümid edirəm ki, davam edir, amma biz bunun üçün çox çalışmalı, yeni əsərlər yazmalı, gənc bəstəkarları təbliğ etməli, onları dəstəkləməliyik.

İnanıram ki, bizim günəşimiz – Üzeyir Hacıbəylinin, Qara Qarayevin, Fikrət Əmirovun əsərləri həmişə səslənəcək və bütün dünyada Azərbaycan musiqisini tanıyacaqlar. Biz də var gücümüzlə bunun üçün çalışırıq.

***– Firəngiz xanım, maraqlı söhbətə görə təşəkkür edirik.***

*Müsahibəni yazdı:*
***Mehparə ƏLİYEVA***
***XQ***

# "Dəm qazı" niyə "qəm qazı"na çevrilib?

## *Amansız bəla davam edir, günahsız insanlar mənzillərində həyatlarını itirirlər*



**Azərbaycanda dəm qazından zəhərlənmə halları uzun illərdir ki, xüsusilə payız-qış mövsümündə bir sosial təhlükə kimi qalır. Bu bəlaya qarşı Fövqəladə Hallar və Səhiyyə nazirlikləri, eləcə də digər aidiyyəti qurumlar tərəfindən maarifləndirici kampaniyalar aparılmasına, kütləvi informasiya vasitələrində xəbərdarlıqlar verilməsinə, texniki normalara dair çağırışlar səsləndirilməsinə baxmayaraq ölüm və ağır zəhərlənmə hallarının getdikcə çoxalması müşahidə edilir. Araşdırmalarla problemin təkcə texniki deyil, eyni zamanda, sistemli və çoxşaxəli səbəblərlə bağlı olduğu qənaətinə gəlinir. Ekspertlər tərəfindən isə mövcud yanaşmanın artıq müsbət nəticə vermədiyi və bu narahatlığı institusional səviyyədə köklü şəkildə yenidən dəyərləndirməyin zəruriliyi bildirilir.**

Mütəxəssislərin sözlərinə görə, dəm qazı faciələrinin əsas səbəblərindən biri yaşayış fondunun, xüsusilə də köhnə binaların mühəndis-kommunikasiya sistemlərinin müasir təhlükəsizlik standartlarına cavab verməməsi ilə bağlıdır. Başqa sözlə, bu, bir çox mənzildə qaz sobaları, su qızdırıcıları (kolonkalar) və fərdi istilik sistemlərinin istismar müddətini çoxdan başa vurması, yaxud qeyri-peşəkar müdaxilə nəticəsində təhlükəli vəziyyətə gətirilməsi ilə əlaqədardır. Eyni zamanda, fərdi evlərdə və köhnə çoxmənzilli binalarda tüstü bacalarının texniki vəziyyətinə mütəmadi nəzarət mexanizmi demək olar ki, çox zəifdir. Bacaların tutulması, düzgün layihələndirilməməsi və ya qanunsuz dəyişdirilməsi dəm qazının otaqlara dolmasına gətirib çıxarır.

### Çox deyilir, amma...

Son illər urbanizasiya proseslərinin sürətlənməsi fonunda Bakı və Abşeron ərazisində plansız, layihə-smeta sənədləri olmadan tikilmiş fərdi yaşayış evlərinin sayı artıb. Bu tip evlərdə qaz xətlərinin çəkilməsi, ventilyasiya və tüstü bacalarının qurulması isə çox zaman normativlərə uyğun aparılmayıb. Nəticədə, qaz avadanlıqları təhlükəsizlik baxımından risk mənbəyi kimi diqqət çəkib. Qanunsuz tikililərin sonradan istismara qəbul edilməsi və kommunal şəbəkələrə qoşulması isə problemi daha da ağırlaşdırıb.

Kommunal xidmətlər üzrə ekspert Aydın Qasımovun bildirdiyinə görə, dəm qazı zəhərlənmələrinin ən təhlükəli cəhəti ondan ibarətdir ki, o, rəngsiz, qoxusuz, dadsız qazdır, hava ilə asanlıqla qarışır. Bu xüsusiyyətlərə baxmayaraq, əhalinin çox hissəsi hələ də təhlükəni tam dərk etmir. Qaz cihazlarının gecə vaxtı nəzarətsiz saxlanılması, hamam otaqları daxilində su qızdırıcılarının quraşdırılması, pəncərə və ventilyasiya dəliklərinin bağlanılması və "qənaət" məqsədilə təhlükəsizlik qaydalarına məhəl qoyulmaması kimi amillər məhz bunun bariz ifadəsidir. Bütün sadalananlar isə onu göstərir ki, maarifləndirmə tədbirləri formal xarakter daşıyır və real davranış dəyişikliyinə yetərincə təsir etmir.

Azərbaycanda qaz təsərrüfatının qurulması və istismarı sahəsində kifayət qədər normativ sənədlər mövcuddur. Lakin əsas problem həmin sənədlərin icrası və nəzarət mexanizmlərinin zəifliyidir. Məsələn, qaz avadanlıqlarının texniki baxışdan dövri keçirilməsi prosesinin səmərəsizliyi ciddi narahatlıq doğurur. Mənzillərdə təhlükəli dəyişiklərə görə real sanksiyalar nadir hallarda tətbiq olunur. İstismar zamanı məsuliyyət bölgüsü (istehlakçı – qazpaylayıcı – icraedici orqanlar) bilinmir. Bu şəraitdə hüquqi tələblər kağız üzərində qalır, təhlükəsizlik isə gerçəkləşdirilmir.

Yeri gəlmişkən, qaz cihazlarının məcburi dövri texniki baxışının səmərəsizliyi bu prosesin formal xarakter daşımasından irəli gəlir. Çünki mənzillərdə təhlükəli yenidənqurma işlərinə görə real sanksiyalar tətbiq edilmir. Yuxarıda vurğulandığı kimi, qazpaylayıcı qurumlar, icra hakimiyyətləri və mənzil sahibləri arasında məsuliyyət bölgüsü qeyri-müəyyənliyi ilə müşahidə olunur. Nəticədə hər hansı faciədən sonra məsuliyyət "insan amili" adı altında fərdin üzərinə yönəldilir, sistem isə toxunulmaz qalır. Beləliklə, dəm qazı zəhərlənməsinin ictimai sağlamlıq və həyat təhlükəsizliyi məsələsi olduğu unudulur. Eyni zamanda, bununla problemə cavabdeh qurumlar arasında koordinasiyanın zəif qurulduğu, başqa sözlə, bu sahəyə məsul nazirliklər, qazpaylayıcı şirkətlər, yerli icra strukturları və bələdiyyələrin əlaqəsiz fəaliyyətləri də aşkarlanır.

Bəzi hallarda vətəndaş təhlükəsizlik risklərini bilməsinə baxmayaraq, maddi imkanların məhdudluğu səbəbindən köhnə qaz cihazlarını dəyişmir, sertifikatlaşdırılmış ustaların xidmətindən istifadə etmir. Bu isə xüsusilə regionlarda və aztəminatlı ailələr arasında riski daha da artırır. Ümumiyyətlə, dəm qazından zəhərlənmə hallarının davam etməsi təkcə bir qurumun və ya bir səbəbin nəticəsi deyil. Burada texniki, hüquqi, sosial, institusional və mədəni amillər bir-birini tamamlayır və nəticədə təhlükəli bir sistem formalaşır.

Azərbaycanda dəm qazı ilə bağlı faciələrin qarşısının alınması üçün təkcə mövsümi xəbərdarlıqlar kifayət etmir. Bu problemə milli təhlükəsizlik və ictimai sağlamlıq məsələsi kimi yanaşılmalı, real nəzarət mexanizmləri qurulmalı, təhlükəsizlik mədəniyyəti gündəlik davranış normasına çevrilməlidir. Əks halda, hər il eyni faciələrin təkrarlanması qaçılmaz olacaq.

### Hamını qoruyan sistem

Ekspertlər tərəfindən bu bəladan çıxış yolu sistemli təhlükəsizlik modelinə keçilməsində görülür. Bəs bu modelin tətbiqi zamanı hansı layihələrin gerçəkləşdirilməsi nəzərdə tutulur? İlk növbədə, burada qaz avadanlıqlarının vahid reyestrinin yaradılmasına, mənzillər üzrə risk xəritəsinin hazırlanmasına mühüm önəm verilir. Eyni zamanda, yüksək riskli binalar üçün məcburi texniki audit mexanizminin işə salınmasının, qazdan istifadə hüququnun təhlükəsizlik şərtlərinə bağlanmasının zəruriliyi bildirilir.

Azərbaycanda dəm qazı riskinin davam etməsinin əsas səbəblərindən biri də təhlükəsizlik mədəniyyətinin formalaşmamasıdır. İnsanların əhəmiyyətli hissəsi təhlükəni anlasa da, onu prioritet hesab etmir. Bu isə maddi imkanların məhdudluğu, uzun illər formalaşmış vərdişlər, "indiyə qədər problem olmayıb" psixologiyası ilə bağlıdır. Halbuki təhlükəsizlik mədəniyyəti yalnız elanlarla deyil, gündəlik davranış normaları və hüquqi məsuliyyətlə formalaşır.

Uzun illər təbii qaz təchizatı sistemində fəaliyyət göstərən Ehtiram Cəlilovun sözlərinə görə, Azərbaycanda problemin real həlli üçün bir sıra layihələr həyata keçirilməlidir. İlk növbədə, dəm qazı (karbonmonoksid) detektorlarının quraşdırılması mərhələli şəkildə məcburən gerçəkləşdirilməlidir. Köhnə qaz cihazlarının utilizasiyası üçün dövlət dəstəyi proqramı hazırlanıb reallaşdırılmalıdır. Texniki baxışdan yayınmaya görə real maliyyə və inzibati sanksiyalar tətbiq olunmalıdır. Qanunsuz tikililərdə qazlaşdırmanın təhlükəsizlik şərtlərinə bağlanması diqqətdə saxlanılmalı və media, eləcə də təhsil vasitəsilə davamlı, hədəfli maarifləndirmə aparılmalıdır.

*Ekspert rəyi*



**Eyyub HÜSEYNOV,**
**Azad İstehlakçılar Birliyinin sədri**

Xarici ölkələrdə dəm qazı zəhərlənmələri texniki standartlar və hüquqi məcburiyyətlərlə minimuma endirilir. Bu, bir sıra vasitələrlə həyata keçirilir. Məsələn, yerli bələdiyyələr, kommunal xidmət idarələri tərəfindən mənzillərdə dedektorlar quraşdırılır. Bununla vaxtaşırı borulardan mənzillərə qaz sızması yoxlanılır. Azərbaycanda da bu qurğunun geniş tətbiqinə zəruri ehtiyac duyulur. Sabit tarif üçün toplanan ödənişlərdən bu qurğunun alınmasına müəyyən vəsait ayrılması məqsədəuyğun sayılır. Hətta bu məsələ reallaşmasa belə, vətəndaşların şəxsi vəsaitləri hesabına dedektorların alınıb mənzillərdə quraşdırılması, bu yolla təhlükəsizliyin təmin olunması prioritet istiqamət hesab edilir.

Yeri gəlmişkən, həm dəm qazına, həm də qaz sızıntısına qarşı mübarizədə mühüm önəm daşıyan detektorlar lazımi məqamda xüsusi səs siqnalı vasitəsilə xəbərdarlıq edir, klapanı bağlayır və təchizat dayanır. Bununla da, baş verə biləcək bədbəxt hadisənin, faciənin qarşısı alınır. Ona görə də bu gün bütün evlərdə, mənzillərdə detektorların quraşdırılmasına zəruri ehtiyac duyulur.

"Azəriqaz" binaların girişinə, sayğaca qədər məsuliyyət daşıyır. Ondan sonra mənzillərə qaz, su, işıq çəkilməsi mənzil sakininin öz öhdəsinə düşür. Burada isə problemlərlə üzləşilir. Belə ki, çox vaxt naşı, özünü usta adlandıran adamlar tərəfindən bina daxili işlər görülərkən, müəyyən təhlükəsizlik qaydaları pozulur, yanlışlıqlara yol verilir. Ona görə də kommunal xidmətlər, kommunal təsərrüfat idarələri nəzdində peşəkarlardan, ustalardan ibarət xüsusi briqadaların yaradılması məsləhət bilinir.

Sayğac quraşdırıldıqdan sonra cihazların qoyulması (dedektorların quraşdırılması) həmin briqadalar tərəfindən icra olunmalıdır. Bu işi bələdiyyələr, yerli icra hakimyyəti orqanları, ərazilər üzrə qaz istismar idarələri də həyata keçirə bilər. Məsələ bu yolla həllini tapmadıqda, cihazların qoyulması, dedektorların quraşdırılması vətəndaş tərəfindən yerinə yetirilir. Nəticədə proses zamanı müəyyən yanlışlıqara yol verilir, təhlükəsizlik prinsipləri pozulur.

Qaz sızması və dəm qazından boğulma halları daha çox hamam otaqlarında baş verir. Yaxud, evin qızdırılması məqsədilə qaz açıq qoyulur, saatlarla yanan "mavi yanacaq" nəticədə boğulmaya gətirib çıxarır. Küləkli havada isə daha diqqətli olmaq lazımdır. Çünki kənara çıxan qaz və kombi boruları küləyə qarşı olarsa, hər an boğulma baş verə bilər. Bəzən isə belə bir vəziyyətin yaranması qaz sobalarının yararsızlığı ilə əlaqələndirilir. Məsələn, bu "günah" bir çox hallarda İrandan gətirilən qaz sobalarına yönəldilir. Əslində, həmin sobalar istehsal olunduğu ölkədə standartlara uyğundur, lakin Azərbaycan qazının təzyiqi ilə düzgün gəlmir. Ölkəmizdə qaz sobasının dəliyi genişləndirilir, bu zaman, təbii ki, standart pozulur və bədbəxt hadisələr baş verir.

Qazı açıq qoyub yatmaq, yaxud evi tərk etmək təhlükəyə yol açır. Düzdür, bu hallar bəsit təhlükəsizlik qaydalarıdır, lakin çox vaxt bu məqamlara laqeyd yanaşılır. Yanan qazdan, plitələrdən evi isitmək üçün istifadə də təhlükəli şərait yaradır. Havanın dövr etməsi üçün hamam otağının qapısında mütləq dəliklər olmalıdır. Bacası, havalandırması olmayan yerdə qazdan istifadə etmək sonda acı nəticələrə, faciəli hadisələrə səbəb ola bilər. Bir sözlə, istismar edilən qaz cihazı standartlara uyğun gəlməli, havaçəkən sistem işləməli, nəfəslik açıq saxlanılmalı, hamam otağında ventilyasiya borusu, qapının aşağı hissəsində dəliklər olmalı, tüstü bacaları ildə iki dəfə təmizlənməlidir.

Beləliklə, dəm qazından zəhərlənmə halları Azərbaycanda artıq təsadüf yox, sistemli riskə çevrilib. Problemin davam etməsi isə göstərir ki, mövcud yanaşma dəyişməlidir. Fərdi məsuliyyəti önə çəkməklə yanaşı, dövlət nəzarəti, hüquqi məcburiyyət və institusional cavabdehlik gücləndirilməlidir. Əks halda, hər payız eyni suallar, hər qış eyni faciələr təkrarlanacaq.

Bu məqamda beynəlxalq təcrübəyə də diqqət yetirmək istərdik. İnkişaf etmiş dövlətlərdə dəm qazı zəhərlənmələri texniki standartlar və hüquqi məcburiyyətlər vasitəsilə minimuma endirilir. Avropa İttifaqı ölkələrində karbonmonoksid detektorlarının yaşayış sahələrində quraşdırılması məcburi hesab edilir. Qaz avadanlıqları yalnız sertifikatlı ustalar tərəfindən quraşdırılır. Texniki baxışdan keçməyən cihazların istifadəsi qanunla qadağan edilir.

Qardaş Türkiyədə qaz paylanılması sistemi təhlükəsizlik standartlarına əməl olunmadıqda avtomatik dayandırılır və köhnə tip kolonkaların mərhələli şəkildə istifadədən çıxarılması həyata keçirilir. Böyük Britaniyada isə dəm qazı təhlükəsi ilə bağlı qaydaların pozulması cinayət məsuliyyəti hesab edilir.

***Vaqif BAYRAMOV***
***XQ***

# Əmək və sosial müdafiə üzrə beynəlxalq əməkdaşlıq



**Qlobal sülh və əməkdaşlığa, enerji təhlükəsizliyinə verdiyi töhfələrlə dünya birliyində öz mövqeyi ilə seçilən Azərbaycanın digər sahələrdə olduğu kimi, əmək və sosial müdafiə sahələrində də beynəlxalq əlaqələri daim genişlənir.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi BMT İnkişaf Proqramı, BMT Əhali Fondu, Beynəlxalq Əmək Təşkilatı (BƏT), İslam Əməkdaşlıq Təşkilatı (İƏT), Dünya Bankı (DB), Asiya İnkişaf Bankı (AİB), Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Türk Dövlətləri Təşkilatı (TDT), Beynəlxalq Sosial Təminat Assosiasiyası (BSTA), Avropa Sosial Şəbəkəsi, digər beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq yaradıb.

Ötən ilin aprel ayında Beynəlxalq Əmək Təşkilatının Baş direktoru Jilber Hunqbonun ölkəmizə səfəri və Prezident İlham Əliyevlə görüşü əmək və məşğulluq sahəsində beynəlxalq əməkdaşlığın yüksək səviyyədə olduğunu bir daha təsdiqlədi. Azərbaycan ötən dövrdə təşkilatın 59 konvensiyasını, o cümlədən 9 fundamental, 4 prioritet konvensiyasını ratifikasiya edib. BƏT-in rəsmi saytında əmək münasibətləri və sosial dialoqun inkişafı sahəsində aparılan islahatlara dair təqdim olunan məlumatda Azərbaycanın MDB ölkələri arasında ən çox BƏT-in standartlarını qəbul etmiş ölkələrdən biri olduğu göstərilir. Qeyd edilir ki, sosial dialoqun iştirakçıları - Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) ilə üçtərəfli məsləhətləşmələrlə Əmək Məcəlləsi qəbul edilib. Üçtərəfli Komissiya gücləndirilmiş sosial dialoqa əsaslanan uğurlu fəaliyyət göstərir.

Ratifikasiya olunmuş konvensiyalar əsasında ölkəmizdə əmək qanunvericiliyinin beynəlxalq standartlara uyğunlaşdırılması üçün davamlı işlər görülüb. Hazırda BƏT-in "Sosial təminatın minimum normaları haqqında" və "Əməyin təhlükəsizliyi və gigiyenasının təşviq edilməsinin əsasları haqqında" konvensiyalarının da ratifikasiya imkanları araşdırılır. Eyni zamanda, ölkəmizlə BƏT arasında iki Layiqli Əmək üzrə Ölkə Proqramı uğurla icra edilib və səmərəli əməkdaşlığın uğurlu davamı olaraq ötən ilin noyabr ayında növbəti "2025-2029-cu illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı" imzalanıb.

Əmək və sosial müdafiə sahəsində İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ilə də səmərəli əməkdaşlıq edilir və ölkəmiz 2013 və 2023-cü illərdə İƏT-ə üzv dövlətlərin əmək nazirlərinin konfranslarına uğurla evsahibliyi edib. Qeyd edək ki, Prezident İlham Əliyevin İƏT-in Bakı şəhərində Əmək Mərkəzinin yaradılması barədə təşəbbüsü üzv ölkələr tərəfindən yekdilliklə dəstəklənərək ardıcıl işlər aparılıb və 2023-cü ilin noyabr ayında Bakıda keçirilən, 40-dan çox ölkənin nazir və digər yüksək səviyyəli rəsmilərinin, 7 beynəlxalq təşkilatın rəhbərinin iştirak etdiyi İƏT-ə üzv dövlətlərin əmək nazirlərinin 5-ci konfransı çərçivəsində Təşkilatın Bakıda üzv ölkələr üçün mühüm önəm kəsb edən beynəlxalq statuslu Əmək Mərkəzinin açılışı olub.

Əmək Mərkəzi üzv dövlətlərdə əmək, məşğulluq, sosial müdafiə və insan kapitalının inkişafı sahəsində əməkdaşlığın genişləndirilməsi üçün fəal iş aparır. Ötən il Mərkəzin İcraiyyə Şurasının İƏT-ə üzv dövlətlərin əmək nazirlərinin və nümayəndə heyətlərinin iştirakı ilə Bakıda keçirilən iclası da bu istiqamətdə daha bir mühüm addım oldu. Eyni zamanda, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əhali sakinliyi və demoqrafik inkişaf, əhali proqnozlarının hazırlanması, uşaqların doğulanadək cins seçiminin qarşısının alınması kimi önəmli iş sahələrində BMT-nin Əhali Fondu ilə uğurlu birgə iş təcrübələrinə malikdir. Həmçinin son illərdə Nazirliklə BMT İP və BMT Əhali Fondunun əlilliyi olan qadınlar, müharibə veteranları ilə, BMT İP-nın sosial cəhətdən həssas qruplar üçün inklüziv və layiqli iş yerlərinin yaradılması üzrə birgə layihəsi də icra olunub.

Azərbaycan ölkəmiz üçün əsas beynəlxalq təşkilat olan Türk Dövlətləri Təşkilatı (TDT) ilə uğurlu, fəal əməkdaşlıq təcrübəsinə əsaslanaraq Türk dövlətləri arasında əlaqələrin güclənməsi üçün mühüm işlər aparır. Ötən ay TDT-nin əmək, məşğulluq və sosial müdafiə nazirlərinin ölkəmizdə "Türk dövlətlərində ortaq rifah naminə əmək sahəsində əməkdaşlıq" adı ilə keçirilən ilk iclası da təşkilata üzv ölkələr arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində əməkdaşlığın yeni mühüm perspektivlərə doğru inkişafına xidmət edən mühüm addım oldu. Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyevin iclasda qeyd etdiyi kimi, TDT əmək, məşğulluq və sosial müdafiə nazirlərinin Bakıda keçirilən ilk iclası üzv ölkələrdə sosial inkişaf naminə mühüm məqsədlərin reallaşmasına xidmət edən tarixi hadisədir.

Türk Dövlətləri Təşkilatının əmək, məşğulluq və sosial müdafiə nazirlərinin ölkəmizdə keçirilən, əmək, məşğulluq, sosial müdafiə sahələrində əməkdaşlığın inkişafı üçün mühüm platformaya çevrilən ilk iclası bu münasibətlərin inkişafına təkan verib. İclasda TDT ölkələrində sosial sahədə uğurlu təcrübələrin digər təşkilat ölkələri ilə paylaşılmasına maraq ifadə edildi. Yekunu olaraq imzalanan Bəyannamədə rəqəmsal transformasiya və yaşıl keçid dövründə heç kimin kənarda qalmaması üçün sosial müdafiə sistemlərinin təkmilləşdirilməsinin təxirəsalınmaz bir zərurət olduğu təsdiq edilir və əmək bazarındakı çağırışlara əlaqələndirilmiş cavabların hazırlanmasında TDT ölkələri arasında müntəzəm və institusional dialoqun dəyəri vurğulanır.

Bəyannamədə əmək qanunvericiliyi, əməyin təftişi, əmək hüquqlarının qorunması, əmək mühitində sağlamlıq və təhlükəsizlik, gender bərabərliyi, sosial dialoq, beynəlxalq əmək standartlarının inkişafı, rəqəmsal alətlər, süni intellekt və innovativ həllər əsasında əmək münasibətlərinin tənzimlənməsi və məşğulluq xidmətlərinin göstərilməsi və s. sahələr üzrə əməkdaşlığın gücləndirilməsi, bu sahələrdə təcrübə mübadilələrinin aparılması öz əksini tapır. Üzv və müşahidəçi dövlətlərin müvafiq qurumları arasında Əmək, Məşğulluq və Sosial Müdafiə məsələləri üzrə İşçi Qrupun yaradılması da nəzərdə tutulub.

Daha bir məqamı qeyd etmək lazımdır ki, 160-dan çox ölkənin 330-dək qurumunu özündə birləşdirən Beynəlxalq Sosial Təminat Assosiasiyası (BSTA) ilə də uğurlu əməkdaşlıq həyata keçirilir. Təşkilatın Avropa Regional Sosial Təminat Forumu 2019-cu ildə Bakıda olub. 2022-ci ilin oktyabr ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun (DSMF) İdarə Heyətinin sədri BSTA-nın Dünya Sosial Təminat Forumunda dünya ölkələri təmsilçilərinin səsverməsi ilə təşkilatın Büro üzvü və Avropa Şəbəkəsi İdarəetmə Komitəsinin sədri seçilib. Bir neçə ay əvvəl Assosiasiyanın keçirdiyi növbəti Dünya Sosial Təminat Forumunda da DSMF İdarə Heyətinin sədri səsvermə əsasında Assosiasiyanın ali idarəetmə orqanı olan BSTA Bürosuna üzv qəbul olunub. Nazirliyin tabeliyindəki DOST Agentliyinin İdarə Heyətinin sədri isə Forumda BSTA-nın Sosial Təminat Siyasətinin Təhlili və Araşdırılması üzrə Texniki Komissiyasının 2026-2028-ci illər üçün sədri seçilib.Təşkilatın ali idarəetmə orqanlarında təmsil olunmaq beynəlxalq təşkilatın fəaliyyəti üçün mühüm qərarların qəbulunda, büdcə strategiyasının və prioritet hədəflərin müəyyən edilməsi prosesində yaxından iştirak imkanı qazandırır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai Şuranın üzvü **Aslan Əzimzadə** bildirdi ki, bütün bunlarla yanaşı,



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bir çox ölkələrin aidiyyəti dövlət qurumları ilə səmərəli ikitərəfli əlaqələrə malikdir. Nazirliklə qardaş Türkiyənin Əmək və Sosial Müdafiə Nazirliyi arasında ötən dövrdə əmək, məşğulluq və sosial müdafiə sahəsində 8 sənəd imzalanıb və uğurla icra edilir. İki nazirlik arasında əmək və sosial müdafiə sahəsində əməkdaşlıq üzrə Birgə Daimi Komissiya fəaliyyət göstərir.

Qazaxıstanla da ötən dövrdə əmək, məşğulluq, sosial müdafiə sahələrində 5 əməkdaşlıq sənədi, o cümlədən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Qazaxıstanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında əməkdaşlığa dair Sazişin həyata keçirilməsi üzrə 2023-2024-cü illər üçün Fəaliyyət Planı imzalanıb və 2026–2027-ci illər üçün də Fəaliyyət Planının layihəsi hazırlanıb. Habelə ötən ilin noyabr ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu ilə Qazaxıstanın Vahid Yığım Pensiya Fondu Səhmdar Cəmiyyəti arasında Anlaşma Memorandumu imzalanıb.

Azərbaycan ilə Özbəkistan arasında da bütün sahələrdə olduğu kimi, əmək, məşğulluq, sosial müdafiə sahələrində də əlaqələr daim genişlənir. Bu sahədə mühüm addımlardan biri kimi, 2024-cü ilin avqust ayında Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri və Özbəkistanın məşğulluq və yoxsulluğun azaldılması naziri Özbəkistanda müvəqqəti işləyən Azərbaycan və Azərbaycanda müvəqqəti işləyən Özbəkistan vətəndaşlarının əmək fəaliyyəti və hüquqlarının müdafiəsi haqqında Saziş imzalayıblar. 2023-cü ilin oktyabr ayında isə Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Özbəkistan Prezidenti yanında Milli Sosial Müdafiə Agentliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

Bu qurumlar arasında mütəmadi olaraq qarşılıqlı səfərlər edilir, təcrübə mübadilələri aparılır. Qırğızıstan və TDT-nin müşahidəçi ölkələri (Şimali Kipr Türk Respublikası, Macarıstan, Türkmənistan) ilə də əmək, məşğulluq, sosial müdafiə sahələrində əlaqələr inkişafı üçün işlər davam edir. Eyni zamanda, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Rusiya, Belarus, Ukrayna, Gürcüstan, Moldova, Tacikistan, Macarıstan, Serbiya, Rumıniya, Monteneqro, İtaliya, Bolqarıstan, Latviya, Sloveniya, Pakistan, Mərakeş, Malayziya, Səudiyyə Ərəbistanı və digər ölkələrin aidiyyəti qurumları ilə ikitərəfli əməkdaşlıq həyata keçirilir.

Göründüyü kimi, beynəlxalq əlaqələrin inkişafı son illər ölkəmizin əmək, məşğulluq, sosial müdafiə sahələrində əldə etdiyi uğurlu sosial təcrübələrin, o cümlədən DOST modelinin beynəlxalq səviyyədə tanıdılmasında da mühüm rol oynayır. Bu nailiyyətlər təkcə ötən il 70-dən çox beynəlxalq mükafat və sertifikata layiq görülüb. Həmçinin bu gün bir sıra ölkələr (Moldova, Özbəkistan və Serbiya) DOST modelinin tətbiqinə maraq göstərirlər.

***Mustafa KAMAL***
***XQ***

*Birinci Türkoloji Qurultay – 100*

# Acaryan tarixi həqiqəti necə etiraf etmişdi?

## *Hay alimi Bakı məclisində türk dilinin ermənicəyə təsirini faktlarla sübuta yetirib*



**26 fevral - 6 mart 1926 tarixləri arasında Bakı şəhərində keçirilən Birinci Türkoloji Qurultayı XX əsrin əvvəllərində Türk xalqlarının mədəni həyatında baş verən ən mühüm hadisələrdən biri kimi tarixə düşdü. Qurultay Sovet İttifaqındakı türkdilli xalqların dil, ədəbiyyat, əlifba, etnoqrafiya kimi problemlərini müzakirə etmək məqsədilə təşkil olunmuş böyük bir tədbir idi. Bu tədbir Türk xalqlarının mədəni inteqrasiyasında əhəmiyyətli bir mərhələ təşkil etdi. Geniş miqyasda və böyük coğrafiyada yaşayan türkdilli xalqları maraqlandıran bir sıra mühüm məsələlərin müəyyən edilməsi, müzakirəsi, hazırlanması və daha sonra həyata keçirilməsi baxımından fövqəladə əhəmiyyətə malikdir.**

Qurultaya SSRİ sərhədləri daxilində yaşayan Türk xalqları ilə yanaşı, xarici qonaqlar, alimlər, dilçilər, tarixçilər, şairlər, yazıçılardan ibarət ümumilikdə 131 nümayəndə qatıldı. İştirakçılar arasında Ermənistan nümayəndələri də vardı. Heyətə Qaraqoyunlu dərəsindən olan azərbaycanlı ziyalılardan biri – Bala Əfəndiyev başçılıq edirdi. Qurultayın 15-ci iclasında onun İrəvan və Qərbi Azərbaycanın azərbaycandilli məktəblərində latın əlifbası ilə ana dilinin tədrisinin vəziyyəti haqqında məruzəsi dinlənilib. Qərbi Azərbaycanda yeni türk əlifbasının tətbiqi hərəkatına rəhbərlik edən Bala Əfəndiyev 1920-ci illərin sonlarında Azərbaycana dəvət edilir. Amma az sonra onun başlatdığı hərəkat zəifləyir. İndi də xatırlanır ki, Əfəndiyev Qərbi Azərbaycanda dil kursları açmış, yeni əlifba ilə dərslər keçmiş, bu ideyanın əhəmiyyətini izah edən məruzələrlə çıxış etmişdir. Onun fəaliyyəti nəticəsində İrəvan və ətraf bölgələrdə Azərbaycan məktəbləri latın qrafikasına keçməyə başlayıb, Azərbaycan dilində mətbu orqanlar çap edilib.

### Həbsin səbəbi qurultayda iştirak idi

Ermənistan heyətində digər nümayəndə erməni alimi, türkoloq-professor Hraçya Acaryan idi. Qurultayda Acaryanın çox maraqlı məruzəsi olur: "Türk və erməni dillərinin qarşılıqlı təsiri". Acaryanın məruzəsi 1937-ci ildə onun məhkəmə prosesində qarşılaşdığı ittihamların əsası olur. Bunlar "burjua milliyyətçiliyi" və "antiinqilabi fəaliyyət" kimi ümumi ittihamlar idi. Acaryan 1937-ci ildə bu ittihamlarla deyil, Bakıdakı tədbirə qatıldığına görə həbs edilir və təxminən 18 ay həbsdə qalır.

Erməni tarixində "Erməni dilçiliyinin atası" olaraq tanınan Hraçya Acaryan türk dilindən ermənicəyə 4 mindən çox sözün keçdiyini bildirir. O, məruzəsində bu fikrini nümunələrlə isbatlayır. Acaryanın 1902-ci ildə Moskvada Lazarev İnstitutunun nəşr etdiyi və tam adı "Türk dilindən ermənicəyə keçən sözlər: İstanbul erməni xalq ləhçəsinin Van, Qarabağ və Yeni Naxçıvan dialektləri ilə müqayisə edərkən" kitabı (Ermənicə: "Թուրքերէնէ փոխառեալ բառերը Պոլսի հայ ժողովրդական լեզուին մէջ համեմատութեամբՎանի, Ղարաբաղի եւ Նոր-Նախիջեւանի բարբառներուն", Moskva-Vağarşapat (1902)) nəşr olunub.

Kitabda türkçədən ermənicəyə keçən sözlərin sayı 4262-dir. Acaryan sonra 4 cildlik "Ermeni dilinin etimologiya lüğəti" ("Հայերէն Արմատական Բառարան" (1926-1935)) kitabında bunlardan geniş şəkildə bəhs edir. Acaryan daha əvvəlki tədqiqatlarında, 1902-ci ildə nəşr olunmuş adıçəkilən kitabında bildirir ki, erməni əlifbası ilə yazılı dil olaraq meydana çıxan qədim Ermənicədə – Qrabarda türkcə sözlər çox olmasa da vardır. Bu isə o deməkdir ki, 1071 Malazgirt savaşından əvvəl də bu coğrafiyada türklər yaşayıb və türk dilindən ermənicəyə çox sayda sözlər keçib.

### Erməni çəkməçinin alim oğlu

Acaryan kimdir? Erməni alim, professor Hraçya Acaryan İstanbulda çəkməçi ailəsində doğulub. Erməni məktəbində oxuyub, sonra Parisdə, Sorbon Universitetində ali təhsil alıb. O, 1917-ci ildə Parisdə erməni dili üzrə XIII konfransa qatılır və erməni-türk dil münasibətlərindən bəhs edən iki hesabat təqdim edir. 1898-ci ildə ali məktəbi bitirən Acaryan Cənubi Qafqaza gəlir və həyatını elmə həsr edir. Erməni dilçiləri arasında "Erməni dilçiliyinin atası" olaraq tanınan Hraçya



Acaryan türk dilindən ermənicəyə 4 mindən çox sözün keçdiyini bildirir. Bakı qurultayında Acaryanın təqdim etdiyi məruzə onun illərlə çalışdığı türk-erməni dil münasibətlərinə və onların tarixinə aiddir.

Əslində, türk dilindən ermənicəyə və ermənicədən türkçəyə keçən sözlər haqqında ilk məlumatı XVII əsrdə səyyah Evliya Çələbi verib. Onun səyahət qeydlərində örnək olaraq təqdim etdiyi belə sözlərdən onlarla nümunə mövcuddur. Sonralar məşhur dilçi Robert Dankoff "Çelebinin lüğəti" adlı əsərində bunlardan bəhs edib. Digər alimlər də həm Ermənistan, həm Azərbaycan, həm də Türkiyədə ermənicədən türkçəyə və türkçədən ermənicəyə keçən sözlərdən bəhs ediblər. Bunlar arasında ən geniş tədqiqat Hraçya Acaryana aiddir. Acaryanın kitabında toplanan sözlərin kökü, etimologiyası, erməni dilində səslənmə forması, hansı bölgədə necə istifadə edilməsi geniş şəkildə araşdırılıb. O, erməni xalq dilində olan sözləri diqqətlə toplayaraq İstanbul ləhcəsində danışılan sözlərlə müqayisə edib, sistemləşdirmiş və bu sözlərin Van, Qarabağ və Yeni Naxçıvan dialektləri ilə müqayisəsini aparıb.

### Dvin, Ani və Qars erməni knyazlıqları iddiaları saxtadır

Acaryan Birinci Türkoloji Qurultaydakı məruzəsinin girişində ermənilərlə türklərin ilk əlaqələrindən bəhs edib. O, deyirdi ki, 1021-ci ildə türklər "Armeniya" coğrafiyasına daxil olarkən bu ərazilərə heç də yabancı deyildilər, ona qədər də türklərlə ermənilərin əlaqələri olmuşdu. Səlçuqluların bölgəyə gəlməsindən əvvəl erməni dilində işlədilən kəlmələr bunun əyani sübutudur. Onun bu fikri o gün üçün də, müasir tarix üçün də yeni baxış idi. Yəni türklərin ən qədim zamanlardan Anadolu coğrafiyasında məskunlaşdığını sübut edən önəmli təsbit idi. Doqquz əsr boyunca ermənilər müxtəlif türk-tatar tayfaları (selçuqlular, tatarlar, türkmənlər, özbəklər, Azərbaycan türkləri və osmanlılar) ilə yan-yana yaşayıblar. Birgəyaşayış mədəni həyatın müxtəlif sahələrində qarşılıqlı təsirlərə səbəb olub.

Acaryan çıxışında selçuqlulardan əvvəlki dövr erməni-türk münasibətlərinə də toxunub. Belə obyektiv yanaşma çox əhəmiyyətli idi. Acaryan "Türk dilindən ermənicəyə keçən sözlər: İstanbul Ermeni xalq lehçəsinin Van, Qarabağ və Yeni Naxçıvan dialektləri ilə müqayisə edərkən" (1902) əsərinin girişində bu münasibətləri belə ifadə edir: "Türklərlə ermənilər arasında əlaqələr eramızdan əvvəlki əsrlərə uzanır. 1021-ci ildə Toğrul bəyin komandanlığında türk akımcılar Armeniya coğrafiyasına daxil olduqları tarixdən etibarən münasibətlər genişlənməyə başlayıb. Türklər (Van) ərazisindən keçərək Naxçıvana yaxınlaşdılar, oradan geri dönərək İrana girdilər. Toğrul bəy bütün İranı öz nəzarəti altına alaraq burada İran-türk hakimiyyətinin təməlini atdı. 1042-ci ildə Toğrul bəy yenidən ermənilərin yaşadığı ərazilərə girdi, Nik vilayətinə yaxınlaşdı, erməni kralı II Gagiki məğlub edərək Vana döndü". Tarixi xatırlamaqla o, erməni dilinə xeyli sayda türkcə sözün keçdiyini əsaslandırmaq istəyib.

O, bizim eradan əvvəl türkcədən ermənicəyə sözlərin keçidini qiymətləndirərkən, bu ərazilərdə daha əvvəlki əsrlərdə də türk tayfalarının yaşadığını və güclü mədəniyyətə sahib olduğunu sübut edir. Selçuqluların hücumundan sonra isə daha geniş coğrafiyada bu dil təsirli bir hala gəlir.

Acaryanın tarixə baxışı da çox maraqlıdır. Onun kitabında oxuyuruq: "Üçüncü dəfə 1047-ci ildə Tuğrul yenidən bölgəyə hücum etdi, Vana girərək buradakı iyirmi dörd qəzanı fəth etdi və beləliklə, onun idarəsi altındakı torpaqlar Qafqaza qədər uzandı. Bir il sonra – Türklərin dördüncü yürüşü zamanı onlar Pasen (Pasin) və Qarine (Ərzurum) gəldilər, bölgənin cənubuna qədər olan bütün torpaqlara sahib oldular. Bir neçə uğurlu yürüşlər edən Toğrul bəy öldükdən sonra digər ərazilərin fəthini davamçısı Alparslana buraxdı. O da bu əraziləri daha uzaqlara – Kayseriyə qədər genişlətdi. Onun oğlu və varisi olan Məlik Şah (1086-1092) isə bütün Armeniyanı öz hakimiyyəti altına aldı. Məlik Şahın ölümü ilə burada digər bölgə xalqlarına aid əmirliklər yarandı; onlardan biri Şah Armenin nəzarətində olan (Van gölünün şimal-qərb ətrafı) əmirliklər idi". O qeyd edir ki, bu əmirliklər Səlçuqlu dövlətinə tabe idilər. Bu həm də o deməkdir ki, həmin dövrdə ermənilərə aid müstəqil, yarımmüsstəqil dövlət olmayıb. Yəni Dvin, Ani və Kars erməni knyazlıqları ilə bağlı bütün iddialar tamamilə saxtadır.

### Türkcədən ermənicəyə 4 mindən çox söz keçib

Acaryan qurultaydakı çıxışında daha çox dil məsələləri üzərində dayanır. Onun vurğuladığı nöqtə iki yönlü dil mövzusundadır: yalnız türkçədən ermənicəyə sözlər, ifadələr deyil, eyni zamanda, Azərbaycan/Türkiyə türkçəsi dialektlərində ermənicə sözlərin də olduğu qeyd olunur. Bu, regional qarşılaşmalar və uzunmüddətli dil temasının tipik nəticəsidir. O, qurultayda türk dilinin erməni dilinə böyük təsirindən bəhs edir. Acaryan hələ 1902-ci ildə bu mövzuda apardığı geniş tədqiqatdan nümunələr gətirir və İstanbul, Van-Qarabağ və Naxçıvan-Don ləhcələrindəki türkcə kəlmələri qeyd edir. Bunların sayı 4 mindən çoxdur. İstanbul ədəbi türkcəsi ərəb və fars sözləri ilə dolu olduğu kimi, bir çox bölgədə erməni şifahi dili də türkcə sözlərlə zəngindir. Bəzən tam türkcə cümlələr də istifadə olunur. Ümumiyyətlə, isimlər, bəzən sifətlər və çox nadir hallarda feillər bir dildən digərinə alınır. Saylar, bağlayıcılar və zərflər alınmır. Ancaq erməni dilinə bütün bu dil elementləri eyni dərəcədə nüfuz edib. Bir çox sahələrdə 70, 80 və 90 faiz nisbətində türkcə formalar istifadə olunur. Məsələn, o qeyd edir ki, Rodostoda işlənilən 99 faizə qədər bütün rəqəmlər saf türkcədir.

Kiçik Asiyanın qərb bölgəsi, Kipr, Bolqarıstan, Şərqi Rumeli, Rumıniya, Bessarabiya və həmçinin İran və Qafqazın bəzi kəndlərində türk dilinin erməni dilinə təsiri o qədər güclü idi ki, ermənilər öz ana dillərini demək olar ki, tamamilə itirmişdilər. Bu hadisə bir neçə yüz il əvvəl baş vermişdi. 1530-cu ildən etibarən, bəzi Avropa ölkələrindəki ermənilər öz dillərini unudaraq tatar dilini mənimsədilər, bu dildə erməni əlifbasından istifadə edərək zəngin bir ədəbiyyat yaratdılar. Hətta kilsə kitabları da tatar dilinə tərcümə edilmişdi. Eyni şəkildə, Kiçik Asiya və İstanbulda da ermənilər erməni əlifbası ilə türkcə zəngin bir ədəbiyyat yaratmışdılar. Türkcə sözlər türk fonetik qaydalarının xronologiyasının müəyyən edilməsinə də imkan verir. Bu zaman erkən dövrlərdə türk-tatar yaşamını və tarixini əks etdirən erməni yazarlarından qalan zəngin materialdan istifadə edilməlidir. Dediklərimiz erməni əlifbası ilə əsərlər ortaya qoymuş qıpçaqlara aid deyil. Bu, tamamilə başqa bir mövzudur.

### Malazgirt savaşından əvvəl

Acaryan məruzəsinin ikinci bölümündə erməni dilinin türk-tatar dilinə təsirini aydınlaşdırmağa keçir. O deyirdi ki, Kopenhagenli professor Olge Pedersen və Vyanadan olan alim Krelits-Grenfengorst türk-tatarların bəzi sözləri ən qədim dövrlərdən etibarən ermənilərdən aldıqlarını düşünürlər, lakin mən burada bu məsələyə girməyəcəyəm: "Sizin diqqətinizi daha sonrakı dövrlərin hadisələrinə çəkmək istəyirəm. Çünki bunlar müxtəlif türk-tatar ləhcələrində, xüsusilə də Anadolu ləhcələrində qeyd olunur. Bu sözlərin bəziləri ədəbi dilə keçmiş, qalanları isə xalq arasında yaşayır.

Alınma sözlərin ümumi sayı 200-ə qədərdir və onlar 14 qrupa bölünür: kənd təsərrüfatı, bitki aləmi, inşaat avadanlığı, ev əşyaları və qablar, sənətlər, mətbəx, heyvandarlıq, xəstəliklər, təqvimə aid sözlər, müxtəlif atalar sözləri, nağıllar, söyüşlər, dualar, əfsanələr və s. Acaryan daha əvvəlki tədqiqatlarında, eləcə də 1902-ci ildə nəşr olunmuş yuxarıda adı çəkilən kitabında yazırdı ki, erməni əlifbası ilə yazılı dil olaraq meydana çıxan qədim ermənicə hesab olunan dildə – Qrabarda da türkcə sözlər az da olsa vardır. Bu isə o deməkdir ki, Malazgirt savaşından əvvəl də bu coğrafiyada yaşayan türk tayfalarının dilindən ermənicəyə sözlər keçib. Acaryan bu məsələdə də haqlıdır ki, Qrabar kilsə dili idi. Qrabarın istifadə sahəsi çox dar olduğundan türk dilinin bu dilə təsiri az olması təbii idi.

Ancaq yenə də belə sözlər vardır. Haqlı olaraq, azərbaycanlı tədqiqatçı Sarlan Həsənov "Erməni dilində Azərbaycan-Türk mənşəli sözlər (XIII-XX əsrlərin ədəbi ədəbiyyat materialları və Erməni dilinin lüğətləri əsasında)" adlı əsərində belə sözlərdən bəhs edir. Məsələn: sen (sən), ğiz (qız), ben (mən), keşiş (ruhani), yoru (yürü), gyotur (götür-allə), soz (söz-kelime), yazıxlarme (yazıq anlamında), tyagri (Tanrı), altın (altın, qızıl), çezti (çözdü), xıltardı (xilas etdi, qurtardı) və s. sözlər qrabar ədəbiyyatında mövcuddur.

Bu sözlər Hovvannes Yerzgatsinin şeirlərindən alınıb. Hovvannes Yerzingatsi ilə eyni dövrdə yaşamış Mxitar Qoş, Hovhannes Tlgurantsi, Qriqor Ahtamartsi, Mkrtıç Nağaşin, Nahabet Kuçak'ın da günümüzə çatmış əsərlərində rast gəlinir. Bu sözlər ədəbi dilə gətirilməzdən əvvəl xalqın dilində istifadə olunub. Bu, yenə də o tezisi isbat edir ki, 1071-dən sonra deyil, türk tayfaları daha əvvəllər bu ərazilərdə yaşayıblar. Erməni türkoloq Sevortyanın bu fikirləri də dəyərli və əhəmiyyətlidir: "…bu sözlər uzaq əsrlərdən bu yana erməni danışıq dilində hər kəs tərəfindən qəbul edilmiş türkizmlərdir".

### Acaryanın dil etirafı

Acaryanın qurultaydakı çıxışı həm erməni, həm də türk dilçilik tarixində ikiyönlü dil mövzusunu elmi müstəvidə müzakirə edən ən erkən və ən balanslı təqdimatlardan biri kimi qəbul edilməlidir. Onun örnək olaraq gətirdiyi bostan, kavuk, kef, kefir, kavurma, kuzu kimi sözlər türkcədən ermənicəyə keçmiş və məişətdə geniş istifadə olunan terminlər arasındadır. Bu durum dil əlaqələrinin yalnız akademik deyil, gündəlik həyatda da dərin izlər qoyduğunu göstərir. Dilçilik baxımından, bu cür qarşılıqlı təsirlər, xalqların tarixi yaxınlığının və mədəni təsirinin göstəricisi olaraq qiymətləndirilə bilər. Hraçya Acaryan ermənicə-türkcə dil münasibətləri kontekstində bir dildən digərinə keçən sözlərin analizi, ləhcə səviyyəsində türk dilinin təsiri və ədəbi danışıq dili arasındakı fərqlər üzərində mühüm düşüncələr ortaya qoyub. Acaryan lüğətçilik, etimologiya və ləhcələr üzərindəki tədqiqatları ilə erməni dil tədqiqatlarının əsas struktur daşlarını təşkil edir.

Hraçya Acaryan pedaqoq kimi çoxlu tələbə yetişdirib, akademik müəssisələrin inkişafına töhfə verib. Onun tədqiqatları yalnız ermənicəni deyil, ümumilikdə dilçilik metodlarını da əhatə edir. Bu tədqiqatlar müqayisəli dilçilik baxımından da əhəmiyyətlidir. Erməni ləhcələrində, xüsusilə Osmanlı dövründəki erməni icmalarında, ya da Osmanlı sərhədləri içindəki ermənicə danışılan bölgələrdə türkcədən keçən sözlərin daha geniş olduğu görünür. Ermənicəyə keçən sözlərin böyük hissəsi danışıq dili, ləhcələr, gündəlik danışıq dilindən gəlir. Ancaq Acaryanın tədqiqatları hər bir sözün bir-bir siyahıya alınması ölçüsündə detallı bir kataloqdan daha çox "müəyyən ləhcələrdə müşahidə olunan türk mənbəli sözlər" üzərindəki qiymətləndirmə xarakteri daşıyır.

Yerli ləhcələrdə Osmanlı ermənicəsi danışılan bölgələrdə türk dilinin təsiri daha açıqdır. Acaryan qurultayda misal gətirdiyi sözlərin "dil saflığını pozan unsurlar" deyil, xalqların tarixi və mədəni yaxınlığının sənədləri olaraq görülməsi gərəkdiyini vurğulayır. O deyirdi: "Son olaraq ümidimi ifadə edirəm ki, bu məsələlərin erməni və türk alimləri tərəfindən ortaq şəkildə araşdırılması elmə və qarşılıqlı anlayışa xidmət edəcəkdir".

Acaryana görə, türk və erməni dilləri yüz illər boyu yan-yana yaşayıb və bu iki dilin qarşılıqlı təsiri o qədər güclüdür ki, ermənicə ilə bu qədər yaxın təmas qurmuş başqa bir dil göstərmək çətindir. O, etiraf edirdi ki, bu qarşılıqlı təsirlərin araşdırılmasının yalnız dilçilik elmi üçün deyil, həm də tarixi və mədəni dəyərə malik olduğunu düşünür; çünki xalqların tarixi dilin tarixində də əks olunur...

*Qafar ÇAXMAQLI,*
*XQ-nin Türkiyə müxbiri*

# Mədəni irsin qorunmasında yeni hüquqi məsuliyyət

**Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" 2025-ci il 30 dekabr tarixli qanuna əsasən, fevralın 1-dən etibarən ölkədə mədəni irsin korlanması və məhv edilməsi ilə bağlı məsuliyyəti əhəmiyyətli dərəcədə sərtləşdirən yeni qaydalar qüvvəyə minir.**

Qanunvericiliyə edilən dəyişikliklərə əsasən, "tarix və mədəniyyət abidələri" sözləri "mədəni sərvətlər" sözləri ilə əvəz edilərək anlayışlarda dəqiqləşdirilmə aparılmışdır. Beynəlxalq təcrübə nəzərə alınaraq daşınar və daşınmaz mədəni sərvətlərə qarşı törədilən cinayətlərin xarakteri və tətbiq olunan cəzalarda fərqləndirilmişdir. Mədəni sərvətlərə münasibətdə "korlama" və "məhv etmə" əməllərinin və mütənasib olaraq həmin əməllərə görə tətbiq edilən cəzalar bundan sonra fərqli olacaq.

Yeni qaydalarda mədəni sərvətlər ilə bağlı cinayət əməllərinə görə hüquqi və vəzifəli şəxslərin də cinayət məsuliyyəti müəyyən edilmişdir. Bundan əlavə, "Mədəni sərvətlərin ehtiyatsızlıqdan məhv edilməsi" əməlinin cinayət məsuliyyətinə səbəb olması müəyyən edilmiş və Cinayət Məcəlləsinə müvafiq maddə (246-1) əlavə edilmişdir.

Mədəni sərvətlərin korlanması və məhv edilməsi üzrə əməllər cinayət məsuliyyətinə səbəb olduğuna görə, İnzibati Xətalar Məcəlləsindən çıxarılaraq Cinayət Məcəlləsinə əlavə edilmişdir.

İnşaat və digər təsərrüfat işləri görülərkən tarix və ya mədəniyyət abidəsi aşkar edildikdə dərhal işləri dayandıraraq, bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verilməməsi, habelə dəfinələrdə aşkar edilmiş və ya tapılmış abidələrin dövlətə təhvil verilməməsi ilə bağlı İnzibati Xətalar Məcəlləsinə yeni 231.3-2-ci maddə əlavə edilmişdir. Yalnız xüsusi mühafizə dərəcəsi tətbiq olunan deyil, dövlət tərəfindən mühafizə olunan bütün mədəni sərvətlərə qarşı törədilən əməllərə tətbiq olunan sanksiyalar isə proporsionallaşdırılmışdır.

Qeyd edək ki, yeni qaydalar bu sahədə




hüquqi məsuliyyətin gücləndirilməsi isə mədəni irsin qorunmasına dövlət səviyyəsində verilən xüsusi əhəmiyyətin göstəricisidir.

***XQ***

# "İRS" jurnalı Çin dilində

**Azərbaycan mədəniyyətini, incəsənətini xaricdə layiqincə təbliğ edən "İRS" jurnalı Çin dilində də nəşrə başlayıb.**

İlk nömrəyə Çinin ölkəmizdəki səfiri xanım Lu Meyin Azərbaycan–Çin münasibətlərinə dair məqaləsi, Azərbaycan Memarlar İttifaqının irs komissiyasının sədri Rizvan Bayramovun "Bakı memarlığında Art Nouveau" məqaləsi, habelə "Göygöl və Maralgöl – Kəpəz dağının hədiyyəsi", "Ada layiq olmaq – Heydər Əliyev Mərkəzi", "Qəhrəmanlar tərəfindən yaradılmış ilahi bir nemət", "Mirzə Qədim İrəvani və onun yaradıcılıq irsi", "XVIII–XIX əsrlərə aid Azərbaycan memarlığının şah əsərləri: Şəki xanlarının sarayı və Şəkixanovların evi" adlı yazılar daxil edilib.

Jurnalın nüsxələri Çinin elmi-tədqiqat institutlarında, kitabxanalarda, strateji araşdırma mərkəzlərində, nüfuzlu ali təhsil ocaqlarında yayılacaq.

***XQ***



# Rəqəmsallaşmaya sürətli keçid

**2025-ci ildə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) fəaliyyəti, əsasən, rəqəmsal inkişaf konsepsiyasının icrasına yönəlib. İl ərzində dövlət qurumları arasında məlumat və sənəd mübadiləsinin təhlükəsiz və fasiləsiz təmin edilməsi istiqamətində birgə tədbirlər həyata keçirilib.**

Bu və digər məsələlər barədə İRİA-nın İdarə Heyətinin sədri Fərid Osmanov qurumun 2025-ci ilin yekunlarına həsr olunmuş mətbuat konfransında ətraflı məlumat verib. Onun sözlərinə görə, hazırda 375-dən çox dövlət qurumu elektron sistemləri inteqrasiya olunub, sosial müdafiə və digər əsas sahələrdə məlumat bazalarının qarşılıqlı əlaqəsi təmin edilib.

Ötən il 25 dövlət qurumu ilə birgə 17 yol xəritəsinin hazırlandığını diqqətə çatdıran idarə heyətinin sədri deyib: "Güclü və mərkəzləşdirilmiş rəqəmsal infrastrukturun formalaşdırılması rəqəmsal hökumətin səmərəli fəaliyyətinin əsas şərti kimi qiymətləndirilib. "Mygov" platforması vasitəsilə vətəndaşlara 400-dən çox elektron xidmət təqdim olunur. 2025-ci ildə platformaya 38 yeni rəqəmsal xidmət və 32 alt xidmət əlavə edilib. Hazırda platformanın istifadəçilərinin sayı 2 milyonu ötüb, təkcə keçən il 1 milyondan çox yeni istifadəçi qeydiyyatdan keçib".

Qeyd olunub ki, "Mygov ID" vahid giriş sistemi hazırda əsas dövlət informasiya sistemləri ilə inteqrasiya olunub və mərkəzləşdirilmiş rəqəmsal identifikasiya mexanizmi kimi fəaliyyət göstərir. Ötən il "Mygov ID" istifadəçilərinin sayının 500 mindən çox olduğunu bildirən qurum rəhbərinin sözlərinə görə, platformaya yeni dövlət və özəl informasiya sistemləri inteqrasiya edilib. 2025-ci ildə innovasiya ekosistemi üzrə fəaliyyətin Rəqəmsal İnkişaf Konsepsiyası çərçivəsində həyata keçirildiyini diqqətə çatdıran F.Osmanovun sözlərinə görə, il ərzində innovasiya və startap mühitinin inkişafı məqsədilə 300 minimum işlək məhsul yaradılıb.

İnnovasiya mühitinin gücləndirilməsi və startapların xarici bazarlara çıxışının dəstəklənməsinin Rəqəmsal İnkişaf Konsepsiyasının əsas prioritet istiqamətlərindən biri olduğunu deyən qurum rəhbəri bu istiqamətdə həyata keçirilən tədbirlər çərçivəsində innovasiya mədəniyyətinin formalaşdırılması, hakatonlar, inkubasiya və akselerasiya proqramlarının təşkili, eləcə də ali təhsil müəssisələri ilə birgə layihələrin icra olunduğunu vurğulayıb.

Diqqətə çatdırılıb ki, ötən il 18 yerli və xarici özəl şirkətlə əməkdaşlıq çərçivəsində müxtəlif proqramlar icra olunub, "Digital Azerbaijan" təşəbbüsü çərçivəsində inkubasiya və akselerasiya istiqamətində, təxminən, 40 proqram keçirilib. 2025-ci ildə 22 startapın, ümumilikdə, 2 milyon 622 min 500 dollar dəyərində investisiya cəlb etdiyini xatırladan F.Osmanov deyib ki, il ərzində 6 universitetdə 10-dan çox proqram və hakaton təşkil olunub, Lənkəran, Gəncə, Sumqayıt və Naxçıvan şəhərlərində innovativ sahibkarlığın təşviqi məqsədilə 10 regional proqram həyata keçirilib, 40-dan çox dövlət qurumunun nümayəndələri və 150-dən çox rəhbər şəxs tədris sessiyasına cəlb olunub. Eyni zamanda, ötən il "Rəqəmsal Akademiya" çərçivəsində 5 strateji sessiya həyata keçirilib. Almaniya, Sinqapur və Səudiyyə Ərəbistanına səfərlər təşkil olunub.

Texnoparkların inkişafının innovasiya ekosisteminin əsas sütunlarından biri kimi diqqət mərkəzində saxlanıldığını bildirən F.Osmanov onu da bildirib ki, təkcə ötən il 4 xarici və 43 yerli şirkətə qeydiyyat şəhadətnaməsi verilib. Ümumilikdə isə hazırda texnoparklarda 165 rezident fəaliyyət göstərir ki, onlardan da 10-u xarici şirkətdir: "Rezidentlər mövcud qanunvericiliyə uyğun olaraq vergi və inzibati güzəştlərdən yararlanır,



texnoloji məhsul və xidmətlərin inkişafı üçün əlverişli mühit əldə edirlər. Bu amil qabaqcıl texnologiyaların ölkəyə cəlb edilməsinə və yerli startapların beynəlxalq rəqabət qabiliyyətinin artırılmasına şərait yaradır".

Diqqətə çatdırılıb ki, nüvə elmi, radiasiya təhlükəsizliyi, su ehtiyatlarının monitorinqi və yüksək texnologiyaların tətbiqi sahəsində ölkədaxili və beynəlxalq əməkdaşlıq çərçivəsində ardıcıl tədbirlər görülüb. Həyata keçirilən bu tədbirlər ölkədə radiasiya təhlükəsizliyinin təmin edilməsinə, su resurslarının etibarlı monitorinqinə və nüvə elmi ilə yüksək texnologiyaların inkişafına xidmət edir. Ümumilikdə, 1838 müvafiq tədqiqat və monitorinq prosesi aparılıb.

Hazırda vençur fəaliyyətinin genişləndirilməsi, investisiya fondları və maliyyə alətlərinin genişləndirilməsi istiqamətində, xüsusən də qanunvericilik layihələri üzərində aidiyyəti qurumlarla işin yekunlaşmaq üzrə olduğunu söyləyən İRİA rəhbərinin sözlərinə görə, ötən il Rəqəmsal Sənəd Dövriyyəsinə 17 təhsil ocağı və 16 biznes subyekti inteqrasiya edilib. Ümumilikdə isə, indiyədək Rəqəmsal Sənəd Dövriyyəsinə 1300-dən artıq qurum inteqrasiya edilib, eyni zamanda, 31 milyondan çox səhifəyə, vərəqə qənaət olunub. Bu isə 5 min 700 ağaca qənaət edilməklə "yaşıl" cəmiyyətin qorunması istiqamətində aparılan uğurlu layihələrdən biri kimi diqqət çəkir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Məmmədbəylidə qayıdış təntənəsi

## *26 ailənin yurd həsrətinə son qoyuldu*




**Zəngilan rayonunun yenidən qurulan Məmmədbəyli kəndinə doğru hərəkət edən köç karvanında yalnız insanlar deyil, illərin nisgili, yarımçıq qalmış arzular və göz yaşına qarışmış sevinc də ayaq açmışdı. Kəndə 142 nəfərdən ibarət 26 ailə köçürüldü. Yeni evlərin açarları təqdim olunarkən sevincdən titrəyən əllər, dolan gözlər yeni bir gələcəyə yol almışdı.**

Hazır kənddə 178 ailə olmaqla 898 nəfər yaşayır. Respublikanın müxtəlif bölgələrində – yataqxanalarda, sanatoriyalarda, inzibati binalarda müvəqqəti məskunlaşan ailələr Böyük Qayıdış Proqramı çərçivəsində öz evlərinin qapısını açır. Kəndə qədəm qoyan hər kəs torpağı sanki bağrına basır. Kimisi uşaq vaxtı oynadığı yerləri axtarır, kimisi də gözünü bir nöqtəyə dikərək dünyasını dəyişmiş valideynlərini xatırlayır.

Evlərdə günəş panelləri quraşdırılıb, su və qaz çəkilib, yüksəksürətli internet şəbəkəsi yaradılıb. Kənddaxili yollar asfaltlanıb. Məmmədbəyli kəndi Ağalı kəndinə çox yaxın məsafədə yerləşdiyindən iqtisadi səmərəliliyin təmin olunması məqsədilə bu yaşayış məntəqələrini birləşdirən keçid inşa edilib. 360 şagird yerlik Ağalı kənd tam orta məktəbindən, 60 yerlik uşaq bağçasından, ailə sağlamlıq mərkəzindən, məişət xidməti obyektindən, xidmətlər mərkəzindən, aptekdən, bazar kompleksindən və digər qeyri-yaşayış təyinatlı obyektlərdən istifadənin rahatlığı təmin edilib.

İlk həmsöhbətim kənd sakini Nərminə Bağırova oldu. Qırx il kənd məktəbində ingilis dili müəllimi kimi çalışan, hazırda isə icra nümayəndəsi olan Nərminə xanımın səsində həm müəllim təmkini, həm də doğma yurda qovuşmağın həyəcanı sezilir. Dövlət qulluğunda səmərəli fəaliyyətinə görə "Tərəqqi" medalı ilə təltif edilən Nərminə xanım doğma kəndinə ilk qayıdanlardan biri olmaqdan qürur duyduğunu bildirdi.

Şəhid anası Əminə Nuriyevanın sözləri isə hər kəsi kövrəldir. Oğlu Nurəddin Nuriyev 1994-cü ilin yanvarında Vətən uğrunda canından keçib. Əminə ana deyir ki, torpaqlarımız azad edilən gün ilk yolu Bakı Hərbi memorial qəbiristanlığına düşüb: "Getdim oğlumun məzarını ziyarət etdim. Dedim, ay bala, sənin uğrunda şəhid olduğun torpaqlar artıq azaddır…". Qəhrəman ana bu gün həmin torpaqlarda, təhlükəsiz, işıqlı və isti evində yaşayır. Hiss olunur ki, illər boyu gözlərinə hopmuş kədər artq yerini sakit bir rahatlığa verib.

Birinci Qarabağ müharibəsinin veteranı Famil Xankişiyevlə söhbətimiz bizi illər öncəyə – 1992–1993-cü illərin ağır döyüş günlərinə apardı. Xatirələr acı olsa da, qələbənin şirinliyi tamam başqa bir hissdir. O, 1993-cü ildə Şayıflı kəndində daxili qoşunların kazarmasında hərbçilərin iştirakı ilə keçirilən Biləsuvar rayonundan olan əsgərin toy mərasimini xatırladı. Famil söhbət əsnasında Məmmədbəylidəki yeni mənzilinin şəraitindən razılığını da bildirdi.

Polisdə çalışdığı 1993-cü ilin oktyabr ayında dördüncü dəfə ağır yaralandığından Araz çayını keçərək müalicə üçün İrandan Bakıya helikopterlə gətirilən qazi Zakif Abbasovun həyatında sanki həyat yenidən "cücərir". İgid döyüşçü bu gün kürəyində silah yox, əlində bel tutub. Dövlət başçısının kənd sakinləri ilə görüşündə dediyi sözləri xatırlayaraq dedi: – Biz kəndi yaşıllıq məkanına çevirməliyik. Bu səbəbdən də qısa vaxt ərzində 12 sot torpaqda 160 ağac əkmişəm. Çünki hər ağac qurub-yaratmaq əzminin, qələbəyə inamın rəmzidir.

Əhliman Ərşadlı isə ailəsi ilə birlikdə beş otaqlı rahat evinə köçüb. Uzun illər teatr səhnəsində çalışan həmsöhbətim üçün bu qayıdış həyatının ən böyük tamaşasıdır. Prezident İlham Əliyevlə kənddə keçirilən görüşü isə ömürlük xatirə adlandırır.

Məmmədbəyli kəndi yaddaşın, qürurun, səbrin və qayıdışın ünvanıdır. Burada hər evdə bir hekayə, hər baxışda isə Vətənə və dövlətə sədaqət var.

***Mikayıl NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***
***Zəngilan***

# Kimyaçılar şəhəri hesabat verib

**Sumqayıt şəhərinin 2025-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilib.**

Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov toplantını giriş sözü ilə açaraq ötən ilin uğurlarla əlamətdar olduğunu bildirib.

Sumqayıtın sosial-iqtisadi inkişafına həsr olunan sənədli film nümayişindən sonra şəhər icra hakimiyyəti başçısının 1-ci müavini Teymur Səmədov hesabat məruzəsi ilə çıxış edib. Bildirilib ki, ölkəmizin hər yerində olduğu kimi, Sumqayıt şəhərində də böyük abadlıq-quruculuq işləri həyata keçirilib. Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf siyasətinin tərkib hissəsi kimi Sumqayıtda yeni sənaye komplekslərinin formalaşdırılması xüsusi diqqət mərkəzində saxlanılıb və bu məqsədə nail olunub. Sumqayıt sürətlə inkişaf edərək Qafqazın 2-ci böyük sənaye mərkəzinə çevrilib.

Hazırda şəhərdə onlarla müasir kimya və neft-kimya, qara və əlvan metallurgiya, maşınqayırma, elektroenergetika, yeyinti və yüngül sənaye, tikinti materiallarının istehsalı müəssisələri fəaliyyət göstərir. Elə bir neçə gün əvvəl Prezident İlham Əliyev 35-ci dəfə Sumqayıta səfər edib və yeni müəssisələrin təməlqoyma və açılışlarında iştirak edib. Sumqayıt Kimya Sənaye Parkında investisiya portfeli 6 milyard manatdan çox olan 40 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Bunlardan artıq 28-i fəaliyyət göstərir. Sumqayıt sənaye şəhəri kimi şöhrətini artırmaqla bərabər, respublikada gedən inkişaf prosesinə layiqli töhfələrini verir.




Vurğulanıb ki, cari ildə şəhərin sosial-iqtisadi inkişafı daha da sürətləndirilməli, yeni istehsal sahələri yaradılmalı, iş yerləri açılmalı, aztəminatlı ailələrin rifahının yaxşılaşdırılması, əhalinin kommunal xidmətlərinə olan tələbatının ödənilməsi, "Şəhərsalma və Memarlıq İli" çərçivəsində və baş plana uyğun olaraq, ötən əsrin 40-50-ci illərində tikilmiş məhəllələrdə istismar müddəti başa çatmış yaşayış binalarının və qəzalı yataqxanaların sökülməsi, orada yaşayan sakinlərin yeni təmirli mənzil sahəsi ilə təmin olunması nəzərdə tutulur.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Vəfadar Bağırov çıxış edərək 2025-ci ildə ölkəmizdə bütün sahələrdə mühüm nailiyyətlərin əldə olunduğunu, genişmiqyaslı quruculuq işlərinin aparıldığını, sosial-iqtisadi inkişafın və əhalinin sosial rifahının yüksəldiyini vurğulayıb.

Sonda hesabat yığıncağının iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul edilib, müraciətin mətni iştirakçıların diqqətinə çatdırılıb.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Naftalan 2025-ci ilə yekun vurulub




**2025-ci il Naftalan şəhərinin də ictimai-siyasi və sosial-iqtisadi həyatında yaddaqalan hadisələrlə əlamətdar olub. Son illər ölkə üzrə həyata keçirilən inkişaf strategiyasının tərkib hissəsi olaraq Naftalanda da ardıcıl layihələr icra edilib, şəhərin sosial və turizm potensialı daha da güclənib.**

İlin yekunları ilə bağlı keçirilən topıantıda şəhər icra hakimiyyəti başçısının müavini, icra başçısı səlahiyyətlərini müvəqqəti icra edən Arzu Məmmədov hesabat məruzəsi ilə çıxış edib. Məruzədə ötən il ərzində görülən işlər, əldə olunan nəticələr və qarşıda duran vəzifələr barədə ətraflı məlumat verilib. Bildirilib ki, son illər Naftalan şəhərində aparılan abadlıq və yenidənqurma işləri şəhərin görünüşünü əsaslı şəkildə dəyişib. Turizm infrastrukturu müasir tələblərə uyğunlaşdırılı. Hazırda şəhərdə beynəlxalq standartlara cavab verən 20 hotel və müalicə-sağlamlıq mərkəzi fəaliyyət göstərir. Bu obyektlər gündəlik təxminən 4 min qonağa xidmət göstərmək imkanına malikdir.

Hesabat ilində Naftalana 44 mindən çox turist səfər edib. Onların 18 minə yaxını xarici ölkə vətəndaşları olub. Şəhərə gələn turistlərin böyük hissəsini Rusiya Federasiyası, Özbəkistan və Qazaxıstandan olan qonaqlar təşkil edir. Naftalan neftinin müalicəvi xüsusiyyətləri şəhərin beynəlxalq səviyyədə tanınmasına mühüm töhfə verir. İqtisadi göstəricilərdə də artım müşahidə olunub. İl ərzində ümumi məhsul buraxılışı 24,4 milyon manatdan çox olub. Xidmət sahələri iqtisadiyyatın əsas hissəsini təşkil etməklə yanaşı, ticarət və ictimai iaşə obyektlərində də fəallıq qorunub saxlanılıb.

Sosial sahədə həyata keçirilən tədbirlər çərçivəsində şəhid ailələri və müharibə iştirakçılarının sosial müdafiəsinin gücləndirilməsinə xüsusi diqqət yetirilib. Məşğulluğun artırılması məqsədilə əmək yarmarkaları təşkil olunub, bir sıra vətəndaşlar daimi işlə təmin edilib, özünüməşğulluq proqramları icra edilib. Təhsil, səhiyyə, mədəniyyət və idman sahələrində də müsbət nəticələr əldə olunub. Şəhər məktəblərinin məzunları ali təhsil müəssisələrinə qəbulda uğur qazanıb, naftalanlı idmançılar müxtəlif yarışlarda mükafatçılar sırasında yer alıblar. Kitabxana fondları yenilənib, əhalinin tibbi xidmətlərə əlçatanlığı genişləndirilib.

Yol-nəqliyyat infrastrukturu üzrə görülən işlər çərçivəsində şəhərin əsas küçə və prospektlərində asfaltlama, işıqlandırma və abadlıq tədbirləri həyata keçirilib. Kommunal təsərrüfat sahəsində elektrik, qaz, su və istilik təminatının dayanıqlılığı qorunub saxlanılıb.

Qarşıdakı dövrdə, 2026-cı ilin "Memarlıq və Şəhərsalma İli" elan olunması fonunda Naftalan şəhərində yeni infrastruktur layihələrinin icrası, sağlamlıq turizminin daha da genişləndirilməsi və əhalinin rifahının yüksəldilməsi istiqamətində işlərin davam etdirilməsi nəzərdə tutulur.

Əldə olunan nəticələr göstərir ki, Naftalan şəhəri bundan sonra da inkişaf yolunda inamla irəliləyəcək.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

# Bu evdə 5 qız böyüyür

## *Masallıda aztəminatlı ailəyə fərdi yaşayış evi tikilib*





**Rahim Əliyev gənc ailə başçısıdır. Masallı rayonunun Meşəkənarı kəndində yaşayır. Ailədə 5 qız uşağı böyüyür. Böyüyü Güldəstənin 11 yaşı var, sonbeşik Şəbnəm isə 1 yaş 4 aylıqdır.**

Çoxuşaqlı ailə uzun müddət heç bir məişət şəraiti olmayan yarımçıq tikilidə yaşayıb. Masallı Rayon İcra Hakimiyyətinin təşəbbüsü və təşkilatçılığı ilə aztəminatlı ailə üçün üçotaqlı fərdi yaşayış evi tikilib. Mənzillər, mətbəx tam təmirlidir. Mebel, məişət əşyaları, lazımi avadanlıqlar və kommunal xidmətlərlə təmin edilib. Ümumi yaşayış sahəsi 100 kvadratmetrdir.

Əliyevlər ailəsi hədsiz sevinc, fərəh içindədir. Daha çox sevinən 5 azyaşlı qız: Güldəstə, Səma, Nur, Ayan və Şəbnəmdir. Ailənin təzə mənzilə köçməsi ilə əlaqədar keçirilən mərasimdə Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov, Milli Məclisin üzvlərindən Fəzail İbrahimli, Anar İsgəndərov, Cavanşir Paşazadə, Elman Nəsirov, Məşhur Məmmədov, rayon icra hakimiyyəti aparatının məsul işçiləri, Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev, ictimaiyyətin nümayəndələri, kənd sakinləri iştirak ediblər.

Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov ölkə Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim şəhid, aztəminatlı ailələrin yanında olduqlarını, bu qəbildən olan ailələrin sosial problemlərinin həllinə dövlətimiz tərəfindən yüksək qayğı göstərildiyini diqqətə çatdırıb. Rayonda şəhid, qazi, əlil, ehtiyac içində yaşayan ailələrin problemləri daim diqqət mərkəzindədir, hazırda 2 şəhid ailəsi üşün fərdi yaşayış evi tikilir, 3 şəhid aləsinə məxsus ev tam təmir edilib.

İcra başçısı "Viləş" uşaq bağçasının direktoru Şəfa Allahverdiyevanın təşəbbüskarlığını, əməyini yüksək qiymətləndirib, bu evin ərsəyə gəlməsində dəstəyi olan sahibkarlara, iş adamlarına təşəkkürünü bildirib. Beş qız uşağının böyüdüyü ailəyə xeyir-dua verərək xoşbəxtlik, firavanlıq arzulayıb, uşaqların müstəqil Azərbaycanın layiqli vətəndaşı olacağını əminiklə söyləyib. RİH başçısı Araz Əhmədov bu cür təşəbbüslərin davamlı olacağını, rayonda şəhid, qazi, müharibə iştirakçıları və aztəminatlı ailələrin sosial problemlərinin həllinə qayğının artırılacağını qeyd edib.

Milli Məclisin üzvü Məşhur Məmmədov son illər belə bir xeyirxah layihə çərçivəsində Ərkivan qəsəbəsində 3 azyaşlı, Banbaşı kəndində gələcəyin əsgəri olacaq 5 oğlan uşağının olduğu aztəminatlı ailələr üçün fərdi evlərin tikildiyini bildirib. Milli Məclisin üzvlərindən Fəzail İbrahimli, Anar İsgəndərov, Cavanşir Paşazadə, Elman Nəsirov möhtərəm Prezidentimizin rəhbərliyi ilə həyata keçirilən sosial yönümlü siyasətin əhalinin rifahının yüksəldilməsinə xidmət etdiyini, insanları narahat edən sosial problemlərin davamlı şəkildə həll olunduğunu vurğulayaraq gənc ailəyə xeyir-dua verib, xoş arzularını söyləyiblər.

Xeyriyyəçi xanım Şəfa Allahverdiyeva aztəminatlı ailə üçün təzə, yaraşıqlı yaşayış evinin inşa edilməsini dövlət başçısının uğurlu sosial siyasətinin Masallıda yüksək işgüzarlıqla həyata keçirildiyinə bariz nümunə olduğunu, ailənin sevincinə yaxından qoşulduğunu qeyd edib.

Doğrudan da el gücü, sel gücüdür. Masallı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı, rayonun idarə və müəssisə rəhbərlərinin, xeyirxah masallılıların, Rusiyada yaşayan soydaşlarımızın dəstəyi ilə bu ev ərsəyə gəlib. Gəlin, hamımız bir-birimizə arxa-dayaq olaq, yardıma, köməyə ehtiyacı olanlara dəstəyimizi əsirgəməyək, – deyə Şəfa xanım bildirib.

Ev sahibi Rahim Əliyev ailələrinin mənzil şəraitinin yaxşılaşdırılmasına görə dövlətimizin başçısı cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, Masallı Rayon İcra Hakimiyyətinin rəhbərliyinə, xeyirxah insanlara dərin minnətdarlığını bildirib.

Sonra hamı çay süfrəsi arxasında ailənin sevincinə qoşulub.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

*Xaqani Şirvani – 900*

# İntibah dövrünün poeziya zirvəsi

## *Saraylardan uzaqlaşıb xalqa qucaq açan söz dahisi*

**Azərbaycan ədəbiyyatında İntibah dövrünün təşəkkülü və formalaşması ilk növbədə Xaqani Şirvaninin adı ilə bağlıdır. O, bütövlükdə Şərq ədəbiyyatının intellektual səviyyəsini dəyişən, poeziyaya dərin ictimai-humanist məzmun gətirən nadir şairlərdəndir. Nizami Gəncəvidən 15-20 il əvvəl yaradıcılığa başlayan Xaqani söz sənətini estetik çərçivədən çıxararaq fəlsəfi, sosial və mənəvi müstəviyə daşıyıb. Bu il Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən, İntibah dövrü ədəbiyyatının qüdrətli simalarından biri, böyük söz ustadı Əfzələddin Xaqani Şirvaninin anadan olmasının 900 illik yubileyi qeyd ediləcək.**



Əfzələddin Xaqani Şirvani 1126-cı ildə Şamaxı şəhərində dünyaya göz açmışdır. Əsərlərində doğma şəhərini sevgi və qürurla xatırlayan Xaqaninin şeirə olan meyli 15–16 yaşlarında artıq ətrafındakıların diqqətini çəkir və əmisi ona "Həssanül-Əcəm" təxəllüsünü verir. Təxminən 18 yaşında Şirvanşahlar sarayına dəvət olunan gənc şair mədhiyyələr yazır. Lakin zaman keçdikcə saray həyatının süni parıltısı, ədalətsizliklər və asılılıq onu mənən sarsıdır. Azad ruhlu şair saray mühitinə sığmır və qurtuluş yolları axtarır. Bu barədə o, "Töhfətül-İraqeyn" poemasında yazır:

Əvvəllər şahları mədh etdiyimçün,
Dilim bulanmışdı çirkaba bütün

Xaqani Şirvani Azərbaycan ədəbiyyatında poema janrının ilk böyük nümayəndəsi kimi tanınır. Onun qələmə aldığı əsərlər ideya yükü etibarilə də yenilikçidir. Klassik Şərq poeziyasında əsasən tərif və mədhiyyə vasitəsi kimi qəbul edilən qəsidə janrı Xaqani yaradıcılığında tamamilə yeni məzmun qazanıb. Şair bu janrı ictimai tənqid, insan ləyaqətinin müdafiəsi və mənəvi üsyanın ifadə vasitəsinə çevirib.

Xaqani poeziyasında şərin açıq və barışmaz inkarı, xeyir, ədalət və gözəlliyin isə ehtirasla tərənnümü diqqəti cəlb edir. Onun humanizmi mücərrəd deyil, real insan talelərinə, cəmiyyətin sosial ziddiyyətlərinə söykənir. Bu xüsusiyyətlər Xaqani yaradıcılığını dünya ədəbiyyatının İntibah dövrü sənətkarlarının ideyaları ilə eyni müstəvidə daşıyır.

Şərq ədəbiyyatının Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami, Məhəmməd Füzuli kimi böyük nümayəndələri Xaqani dühasına böyük ehtiramla yanaşmış, onun yaradıcılığından bəhrələnmiş, bəzi əsərlərinə nəzirələr yazmışlar. Bu fakt Xaqaninin təsir dairəsinin təkcə Azərbaycanla məhdudlaşmadığını, ümumşərq miqyasında qəbul edildiyini göstərir.

Şairin ədəbi irsinin əsasını təxminən 17 min beytlik lirik şeirlər toplusu – Divan təşkil edir. Bu divanda qəsidə, qəzəl, rübai, mərsiyə, mədhiyyə kimi klassik janr nümunələri toplanmışdır. Xaqani bu janrların hər birinə yeni nəfəs gətirərək onları fikrin ifadə vasitəsinə çevirmişdir. Xüsusilə qəsidə janrı onun yaradıcılığında ictimai-siyasi və fəlsəfi məzmunun daşıyır. Xaqaninin farsca əsərlərində də Azərbaycan ruhu, türk ahəngi həmişə özünü göstərmişdir.

"Şiniyyə" və "Mədain xərabələri" əsərlərində dünyanın faniliyi, hakimiyyətin ötəriliyi və insan taleyinin ziddiyyətləri güclü poetik obrazlarla təqdim olunur. "Həbsiyyə" ruhlu şeirlərdə isə şairin şəxsi həyat təcrübəsi ilə ictimai düşüncə qovuşur.

Xaqaninin ən irihəcmli əsəri olan "Töhfətül-İraqeyn" Azərbaycan ədəbiyyatı tarixində poema janrının ilk kamil nümunəsi hesab olunur. Əsər bəzən mənzum səfərnamə kimi təqdim edilsə də, bu yanaşma tədqiqatçılar tərəfindən tam doğru hesab edilmir. Poema yalnız Ərəb və Əcəm İraqına səfərlərin təsviri ilə məhdudlaşmır, əksinə, burada şairin həyat yolu, qarşılaşdığı insanlar, şahidi olduğu hadisələr və bu hadisələrə verdiyi fəlsəfi qiymətlər əksini tapır.

Şair əsərini ilkin olaraq "Töhfətül-xəvatir və zibdətül-zəmair" adlandırmışdır. Sonrakı nəşrlərdə isə poema müxtəlif adlarla təqdim edilmişdir. Bu da əsərin daha geniş mənəvi və intellektual məzmun daşıdığını təsdiqləyir. "Töhfətül-İraqeyn"də şair öz daxili dünyasını, həyatla hesablaşmalarını, dövrün mənəvi və sosial problemlərinə münasibətini poetik dilə çevirir. Bu baxımdan poema həm avtobioqrafik, həm fəlsəfi, həm də ictimai məzmun daşıyır.

Xaqani Şirvaninin ədəbi irsi bu gün də aktuallığını qoruyur. Onun sözündə zamanın sınağından çıxmış həqiqətlər, insanı düşünməyə vadar edən suallar və azad ruhun poetik ifadəsi yaşayır. Məhz buna görə Xaqani irsi Azərbaycan və Şərq ədəbiyyatının canlı mənəvi sərvəti kimi dəyərləndirilir.

**Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ortaq başlanğıc və intibah dövrü Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor İmamverdi Həmidov qeyd etdi ki, Azərbaycan ədəbiyyatında İntibah dövrü kimi xarakterizə olunan mərhələnin ən qüdrətli nümayəndələrindən biri Əfzələddin Xaqani Şirvanidir:**

–Onun yaradıcılığı dövrün cəmiyyətində və sonrakı əsrlərdə insanlığın mənəvi, etik və əxlaqi düşüncə tərzinin formalaşmasında mühüm rol oynamışdır. Xaqani sənəti Azərbaycan ədəbiyyatının ictimai məsuliyyət daşıyan, humanist mahiyyətini açıq şəkildə ortaya qoyur.

"Xaqani Şirvaninin dövrü, mühiti və həyatı" adlı məqaləmdə göstərmişəm ki,



XII əsrdə Şirvanşahlar dövləti xüsusilə xarici siyasətdə fəallığı ilə seçilir, qonşu dövlətlərlə diplomatik münasibətlərin qurulmasına və möhkəmləndirilməsinə xüsusi önəm verirdi. Şirvanşahlar sarayı dövrün tanınmış söz və fikir adamlarının toplandığı əsas mərkəzlərdən biri idi. Xaqani Şirvaninin saray mühiti ilə bağlı yaradıcılığı, əsasən, Şirvanşah III Mənuçöhrün (1120–1163) və onun varisi Axsitanın (1164–1196) hakimiyyət illərinə təsadüf edir. Həmin dövrdə sarayda Xaqani ilə yanaşı, Əbuləla Gəncəvi, Fələki Şirvani və İzzəddin Şirvani kimi görkəmli şair və ədiblər fəaliyyət göstərirdilər. Bu mühit poeziyanın və elmi-bədii düşüncənin inkişafında mühüm rol oynayırdı.

Saray mühitindən kənarda olan sənətkarlar da bu dövrün ədəbi mənzərəsinin ayrılmaz hissəsi idi. Qivami Mütərrizi, Nizami Gəncəvi, eləcə də həyatının son illərində saraylardan uzaqlaşan Xaqani Şirvani bu müstəqil ədəbi çevrənin əsas nümayəndələri idilər. Bu sənətkarların hər biri XII əsr Azərbaycan ədəbiyyatının formalaşmasında və zənginləşməsində mühüm rol oynayırdı.

Xaqani Şirvaninin poeziyasında insanın cəmiyyət qarşısında məsuliyyəti, ədalət anlayışı, mənəvi kamillik və yaradıcı azadlıq kimi mövzular mərkəzi yer tutur. Məhz bu xüsusiyyətlər Xaqani yaradıcılığını zamanın fövqünə çıxarır. Filoloji tərcümələrimin bir hissəsi "Xaqani Şirvani. Ərəbcə şeirləri. Filoloji tərcümə" adı altında tam şəkildə çap olunub. 2017-ci ildə işıq üzü görən kitaba şairin ərəbcə yazdığı şeirlərin, eləcə də ərəbcə yazdığı iki müqəddimənin filoloji tərcüməsi daxil edilib.

**Müsahibimiz bildirdi ki, şairin əsərlərinin fars dilində yazılması bəzən yanlış interpretasiyalara səbəb olur. Halbuki bu, dövrün ədəbi və mədəni tələbi idi və Azərbaycan ədəbiyyatının zənginliyini, onun regional və beynəlxalq əlaqələrinin genişliyini göstərirdi:**

– Fars dili o dövrdə Şərq ədəbiyyatının əsas yazı dili olmaqla yanaşı, Azərbaycan ədəbi mühitinin də ayrılmaz tərkib hissəsi idi. Bu mövzu ayrıca elmi yanaşma tələb edir və Xaqani irsi beynəlxalq konfranslarda da bu kontekstdə dəfələrlə müzakirə olunmuşdur. Eyni zamanda, Xaqani Şirvani yalnız fars dilində deyil, ərəb dilində də yüksək səviyyəli əsərlər yaratmışdır. Onun ərəb dilində qələmə aldığı şeirlər XII əsr Şərq ədəbiyyatında yenilikçi məzmun və poetik yanaşma baxımından seçilir. Bu, Xaqaninin çoxdilli yaradıcılıq imkanlarını və geniş intellektual dünyagörüşünü təsdiqləyir.

Xaqani Şirvani XII əsrdə Şərq ədəbiyyatında İntibah dövrü adlandırılan mərhələnin aparıcı simalarından biri kimi çıxış edir. Onun yaradıcılıq xüsusiyyətlərini bir neçə cümlə ilə ifadə etmək çətindir, çünki Xaqani bütövlükdə bir poeziya məktəbi, bir düşüncə sistemidir. Onun adı çəkilən kimi, poeziyanın cəmiyyətdə tutduğu yer, sözün əxlaqi və mənəvi gücü, insan yaradıcılıq potensialının ucalığı göz önünə gəlir.

Xaqani yaradıcılığının əsas cəhətlərindən biri də mövzuya yanaşma tərzindəki yenilikdir. Məsələn, adi bir xarabalığın təsviri onun poeziyasında ictimai, siyasi, mənəvi və insani düşüncələrin cəmləşdiyi fəlsəfi məkandır. "Mədain xərabələri" kimi əsərlərdə bu yanaşma xüsusilə aydın görünür. Xarabalıqlar burada keçmişin, hakimiyyətin faniliyinin və insan taleyinin dərindən düşünülməsi üçün bir vasitəyə çevrilir.

**Professor söylədi ki, Xaqani Şirvani dövlət idarəçiliyində humanizmi əsas prinsip kimi göstərir. Onun baxışlarında humanist qanunlar sadəcə hüquqi mexanizm deyil, mənəvi dəyər sistemidir. Belə qanunlar ədalətli köklərə söykənir və cəmiyyətin daxili tarazlığını qoruyur:**

– Xaqani üçün qanunun gücü onun insanı qorumaq qabiliyyəti ilə ölçülür. "Mədain xərabələri" adlanan məkan vaxtilə yüksək mədəniyyətə malik şəhərlərdən ibarət olub, buradakı "Mədain" sözü də məhz şəhərlər mənasını verir. Zaman keçdikcə bu şəhərlər viranəyə çevrilmiş, diqqətdən kənarda qalmış, həyatın yerini sükut və xarabalıq almışdır. Xaqani Şirvanini fərqləndirən cəhət də məhz budur. O, bu xarabalıqlara biganə qalmır, onları sadəcə dağıntı kimi deyil, keçmişin canlı şahidi kimi təqdim edir.

Bu məkandan ondan əvvəl də çoxsaylı şairlər keçmişdi, lakin onların heç biri Mədainə bu cür fəlsəfi və tarixi baxışla yanaşmamışdı. Xaqani isə dayanır, düşünür və bu xarabalıqları keçmişlə bu gün arasında körpüyə çevirir. O, burada yaşamış insanları, onların talelərini və yaratdıqları mədəniyyəti sözün gücü ilə göz önünə gətirir. O dövrdə ərəb poeziyasında xarabalıqlar qarşısında dayanaraq keçmişi xatırlamaq, sevgili və xatirələr üzərindən düşünmək qədim ənənə idi.

Xaqani bu motivi yeni məzmunla zənginləşdirərək ictimai, tarixi və fəlsəfi düşüncənin ifadə vasitəsinə çevirir. Məhz bu yanaşmaya görə "Mədain xərabələri" klassik poeziyanın ən dəyərli nümunələrindən biri hesab olunur.

***Ləman TƏHMƏZ***
***XQ***

*Yeni nəşrlər*

# Türkoloji "dilçilik məsələləri"




**Bakı Dövlət Universiteti türkologiya kafedrasının professoru Elbrus Əzizovun "Elm və təhsil" nəşriyyatında yeni çapdan çıxmış kitabı "Türkoloji dilçilik məsələləri" adlanır. Dilçilik sahəsində çalışan elmi işçilər, ali məktəblərin filoloq müəllimləri və tələbələri üçün nəzərdə tutulan kitaba müəllifin türkoloji dilçiliyin, o cümlədən Azərbaycan dilçiliyinin nisbətən az öyrənilmiş məsələlərinə həsr olunmuş məqalələri daxil edilib.**

Akademik Nizami Cəfərovun elmi redaktoru, professor İsmayıl Məmmədli və dosent Afaq Məmmədovanın rəyçiləri olduğu kitabda eyni mənşədən gələn türk dillərinin fonetik sistemində, leksik tərkibində və qrammatik quruluşunda diqqətçəkən ümumiliklərə nəzər salınıb. Ayrı-ayrı türk dillərinin formalaşması prosesi ümumtürk kontekstində, bu dillərdə danışan xalqların tarixi ilə əlaqəli bir şəkildə və dillərin spesifikliyi nəzərə alınmaqla təhlil edilib.

Kitabda Mahmud Kaşğarinin türk xalqlarının qiymətli yazılı abidəsi səviyyəsində qəbul edilən "Divanü-Lüğat-it-Türk" əsəri, "Kitabi-Dədə Qorqud" eposunun Oğuz dilləri kontekstində tədqiqi, eləcə də Vilhelm Tomson və qədim türk yazılı abidələrinin öyrənilməsi, 100 illiyi tamam olan Birinci Türkoloji Qurultayda dillərimizin tarixi və inkişafı məsələləri, Azərbaycan dilinin dərin qatları, dialektologiya mövzusunda maraqlı araşdırmalar təqdim olunur. Professor Elbrus Əzimov, eyni zamanda, yeni toplusunda ulu Nizami, Nəsimi, Vaqif, Mir Cəlal, Mirzə İbrahimov, İlyas Əfəndiyev, Bəxtiyar Vahabzadə və digər görkəmli qələm sahiblərinin bədii üslubları, əsərlərində xalq danışıq dili xüsusiyyətləri araşdırıb və klassiklərin dil haqqında fikirlərinə də yer verib.

Azərbaycan dilinin müxtəlif coğrafi şivələri haqqında elmi məqalələr də toplunun maraqla oxunan səhifələrindəndir. Dilimizin Meğri və Şimal-şərq şivələrinin özəllikləri, Naxçıvan dialektoloji atlası barədə məqalələr bu sıradadır.

***Ə.DOSTƏLİ***
***XQ***

*Sağlamlıq*

# Qrip mövsümi olsa da, qorunma daimidir



**Qış mövsümünün ortalarına doğru Azərbaycanda kəskin respirator virus infeksiyalarının, xüsusilə də qrip virusunun yayılma halları artır. Hava şəraitinin dəyişkənliyi, hərarət fərqləri və immun sisteminin zəifləməsi virusların daha sürətlə yayılmasına şərait yaradır.**

**Mövzu ilə bağlı bir neçə mütəxəssisə müraciət etdik. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin pediatriya üzrə mütəxəssis-eksperti Erkin Rəhimov bildirdi:**



– Hər qış havaların soyuması ilə əlaqədar olaraq yayılan viruslar əsasən mövsümi qrip və digər respirator infeksiyalarla bağlıdır və vaxtında tədbir görüldükdə ağırlaşmaların qarşısını almaq mümkündür. Lakin insanlar yoluxduğu ilk günlər buna əhəmiyyət vermədikdə ciddi fəsadlara səbəb ola bilir.

Hazırda ölkə ərazisin müşahidə etdiyimiz bu qrip virusunun adı "influenza" dır. Qeyd edək ki, influenza peyvəndlə qarşısı alınan bir virusdur. Yəni peyvənd olunmuş insanlarda bu daha yüngül keçir, bəzən heç görsənmir. Amma kim ki, peyvənd olunmayıb onlar daha tez yoluxur, yüksək hərarət, öskürək, halsızlıq kimi şikayətlər olur. Bu, demək olar ki, Şimal yarımkürədə hər il qış aylarında görünən virus yayılmasıdır, fərqli bir şey yoxdur, hər il gördüyümüzlə eynidir. İnfluenza yüksək hərarətlə seyr edilən virusdur. Lakin vətəndaşlar çox vaxt hər virusu qrip adlandırırlar. Bu, səhv yanaşmadır.

Əslində, gercək qrip influenza anında yoluxur, yüksək hərarət müşahidə olunur və ağır fəsadlar verə bilər. Burada ən doğru yanaşma birinci növbədə peyvənd olunmaq, ikincisi isə əgər artıq yoluxma varsa, hərarət salıcılardan istifadə etmək, bol maye almaq və təbii olaraq həkimə müraciət etmək lazımdır.

Özbaşına antibiotik qəbulu yolverilməzdir. Qrip virus mənşəli xəstəlik olduğu üçün antibiotiklər yalnız bakterial ağırlaşma olduqda, həkim təyinatı ilə istifadə edilməlidir. Əks halda bu, həm immun sistemini zəiflədir, həm də gələcəkdə antibiotiklərə davamlılığın yaranmasına gətirib çıxarır.

Xəstəliyin ilk günlərində istirahət rejiminə riayət etmək, bol maye qəbul etmək, vitaminlə zəngin qidalanmaq və həkim məsləhəti ilə simptomatik müalicə aparmaq vacibdir. Valideynlər uşaqlarda yüksək hərarət və ağır simptomlar müşahidə etdikdə onları məktəbə göndərməməlidirlər. Bu, həm uşağın sağlamlığı, həm də virusun kütləvi yayılmasının qarşısının alınması baxımından önəmlidir".

**İnfeksion xəstəliklər üzrə mütəxəssis Vasif Əliyev həmişə olduğu kimi, payız-qış aylarında havaların soyuması ilə əlaqədar olaraq soyuqdəymə əlamətləri ilə respirator infeksiyaların sayında artım müşahidə olunduğunu bildirərək dedi:**

– Xüsusilə, payız-qış aylarında aktivləşən virus son günlər tibb müəssisələrinə müraciət edənlərin sayında artım ilə müşahidə olunur. Əksər hallarda yüngül simptomlarla keçsə də, risk qruplarına daxil olan şəxslər üçün ciddi fəsadlar yarada bilər. Mövcud epidemioloji vəziyyət fonunda profilaktik tədbirlərin gücləndirilməsi vacibdir. Müşahidələrə əsasən demək olar ki, hər kəsdə eyni əlamətlər olur – bədəndə ağrılar, halsızlıq, qızdırma. Sadalanan əlamətlərə qrip, COVID-19, parainfluenza, adenovirus, norovirus və ya digər respirator viruslar səbəb ola bilər.

Bu virusların hamısının əlamətləri qızdırma, əzələ ağrıları, boğaz ağrısı, burun axıntısı, halsızlıq, iştahsızlıq, yorğunluq, ürəkbulanma, qarın ağrısı və ishala qədər gedə bilər. Xüsusilə, risk qrupunda olan şəxslərin (uşaqlar, yaşlılar, hamilə qadınlar, orqan çatışmazlığı olanlar, yanaşı xroniki xəstəlikləri



olanlar və s.) xəstəliyin ağır keçməsinin qarşısını almaq üçün öncədən profilaktik olaraq peyvənd olunmaları məsləhətdir.

Qeyd edək ki, qrip və COVID-19 virusları hər zaman pandemiyalara, lokal epidemiyalara səbəb olub. Müəyyən müddətdən bir epidemiyalar, pandemiyalar təkrarlanır. Çünki bu viruslar mutasiya qazandırma xüsusiyyətinə sahibdir. Yeni mutasiyalar isə onlara fərqli xüsusiyyətlər qatır. Bəzi viruslar insanlar arasında daha sürətlə yayılsa belə, yüngül müşahidə olunur. Belə ki, qrip virusunu bəziləri yüngül, bəziləri isə ağır keçirir. COVID-19 pandemiyası zamanı da bəzi insanlar xəstəliyi, sadəcə, virus daşıyıcısı olaraq keçirdilər.

Bu, bütün virusların özlərinə yeni bir mutasiya qazandırma xüsusiyyətidir. Məsələn, pandemiya dövründə fərqli-fərqli ştamplar yarandı və ona yoluxduq. Əvvəl ağır formalar idi, sonra yüngül formalarla qarşılaşdıq. Onu da qeyd edək ki, pandemiyanın bitməsi həmin virusun yoxa çıxması anlamına gəlmir. Bu cür viruslar hər zaman bizimlədir, buna görə ehtiyatlı olmalıyıq. Bəzən insanlar xəstə olsalar da, ictimai nəqliyyatdan istifadə edirlər. Xəstə olan şəxslərə evdə qalmağı tövsiyə edirəm. Bu, həm tez sağalmaları üçün, həm də xəstəliyi digər insanlara ötürməmək üçün mütləqdir".

**İnfeksionist-hepatoloq Mərdan Əliyevin fikrincə, qrip sadə soyuqdəymə kimi qəbul edilməməli, çünki düzgün müalicə olunmadıqda pnevmoniya, bronxit, ürək-damar və sinir sistemi ağırlaşmalarına səbəb ola bilər:**

– Hazırda müşahidə etdiyimiz qripəbənzər xəstəliklərdir, el arasında bunlara qrip



deyirlər. Qrip bu xəstəliklər qrupu içindən biridir və qrip virusu tərəfindən törədilərək ağır gedən xəstəliklərdən sayılır. Amma bu kəskin respirator xəstəliklər, yəni tənəffüs yolu xəstəliyi törədən viruslar 100-dən çoxdur. Bu viruslar müxtəlif formada xəstəliklərə səbəb olur. Bəziləri çox rahat, yüngül şəkildə keçir, sadəcə, burun axma, boğaz qıcıqlanması, asqırma ilə müşahidə olunur. Amma qrip bunların içində ən ağır gedişə malik olandır. İlk olaraq, boğazağrısı ilə başlayır və yüksək hərarət, əzələ, oynaq ağrılarına rast gəlinir. Bu daha ağır gedən formadır.

Ümumilikdə, bu xəstəliklərin hamısının bir neçə ortaq əlaməti var. Burada burun axması, burun tutulması, öskürək, boğaz ağrısı, hərarətin yüksəlməsi, əzələ-oynaq ağrıları, halsızlıq bütün bunlar isə mövcud xəstəliklərin ümumi əlamətləridir. Bu xəstəliklər hava damcı yolu ilə yoluxur. Xəstə şəxsin tənəffüs yollarından çıxan, havadan asılı olan çoxmikroskopik damcılar hansıki içində minlərlə virus var, bunlar sağlam şəxsin tənəffüs yollarına daxil olduqda xəstəlik törədir.

Bütün bunlardan qorunmaq üçün ilk öncə sosial məsafəni qorumaq lazımdır. Maska da gigiyenik vasitə kimi yoluxmanın qarşısının alınmasında effektli vasitələrdən biridir. Bu virus həm də təmas yolu ilə yoluxur. Xüsusilə uşaqlar, yaşlılar və xroniki xəstəliyi olan şəxslər üçün influenza daha diqqətli yanaşma tələb edir. Əsasən immun sisteminin gücləndirilməsi, balanslı qidalanma və istirahət rejiminə diqqət yetirilməlidir.

Şəxsi gigiyena qaydalarına əməl olunması, qapalı məkanların mütəmadi havalandırılması və xəstəlik əlamətləri müşahidə olunan zaman ictimai yerlərdən uzaq durulması yoluxma riskini əhəmiyyətli dərəcədə azaldır. Odur ki, bildiyimiz halda, kimsə xəstədir onunla mütləq ən azından inkubasiya dövründə mütləq sosial məsafə saxlamaq lazımdır. Belə bir dönəmdə insanlar gigiyenik qaydalara nə qədər çox riayət edərsə, yoluxmaların da sayı az olar".

Bir sözlə, mütəxəssislərin fikrincə, hazırkı epidemioloji vəziyyət təşviş üçün əsas yaratmasa da, məsuliyyətli davranış tələb edir. Qrip virusuna laqeyd yanaşmaq yox, onu vaxtında tanıyıb düzgün müalicə etmək hər bir vətəndaşın öz sağlamlığına və cəmiyyətə qarşı borcudur. Sadə qoruyucu tədbirlərə əməl etməklə və həkim tövsiyələrinə riayət etməklə bu mövsümü ağır fəsadlar olmadan geridə qoymaq mümkündür.

Vətəndaşların sağlamlığa məsuliyyətlə yanaşması, səhiyyə qurumlarının gördüyü qabaqlayıcı tədbirlərlə birgə epidemioloji vəziyyətə mühüm töhfə verə bilər.

***A.NURƏNGİZ***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 20 (30989) 3 fevral 2026-cı il, çərşənbə axşamı

## İDMAN

### Heydər Əliyev Kubokunun qalibləri



**Qış İdman Növləri Federasiyasının dəstəyi və "Şahdağ" Turizm Mərkəzinin təşkilatçılığı ilə böyüklər arasında həvəskar xizək yarışı üzrə Heydər Əliyev Kubokuna yekun vurulub.**

Turnirin sonuncu günündə öncədən qeydiyyatdan keçən, 18-22, 23-45, 46-56 və 57+ yaş kateqoriyasında olan 81 həvəskar xizəkçi "Gigant Slalom" növü üzrə yarışıblar.

Turnirin nəticələrinə əsasən qadınlardan ibarət 18-22 yaş kateqoriyasında Valeriya Duçinka, oğlanlar arasında İsmayıl Tağızadə, 23-45 yaş kateqoriyasında Anna Vəliyeva, oğlanlarda Ramiz Ağayev, qadınların 46-56 yaş qrupunda Sanna Skalabre, kişilər arasında isə Azər Quliyev qalib adını qazanıb.

57+ kişilərin yaş kateqoriyasında Azad Kəlbiyev 1-ci pillədə yer alıb.

Yarışın sonunda qaliblər kubok və medallarla təltif olunub, onlara həvəsləndirici hədiyyələr verilib.

### XVIII turda 18 qol



**Ağdamın "Qarabağ" komandası Misli Premyer Liqasında XVIII tur çərçivəsində "Turan Tovuz"u məğlub edib. Tofiq Bəhramov adına Respublika stadionunda keçirilən qarşılaşma 1:0 hesabı ilə meydan sahiblərinin xeyrinə qurtarıb. Görüşün 41-ci dəqiqəsində Abdullah Zubir topu qonaqların qapısından keçirib.**

Bu nəticədən sonra xallarının sayını 39-a çatdıran "Qarabağ" ikinci pillədəki mövqeyini möhkəmlədib. Ehtiyatda daha bir oyunu olan Tovuz klubu 30 xalla üçüncü sıradadır.

Qeyd edək ki, 18 turdan sonra 43 xal toplayan "Sabah" turnir cədvəlinə başçılıq edir. Komanda son turda "Zirə"ni məğlub edib - 3:1.

Turun digər oyunlarında "Neftçi" "Araz-Naxçıvan"ın qapısından 4 cavabsız top keçirib. "Sumqayıt" "Karvan-Yevlax"a (2:0), "Qəbələ" "İmişli"yə (3:2), "Şamaxı" isə "Kəpəz"ə (2:0) qalib gəlib.

Gəncənin "Kəpəz" komandası 12 xalla 11-ci, "Karvan-Yevlax" isə 6 xalla sonuncu - 12-ci pilədə qərarlaşıb.

### Beynəlxalq turnirdə 11 medal



**Belçikada keçirilən cüdo üzrə Beynəlxalq Açıq Turnir yekunlaşıb. İkinci yarış günündə Azərbaycan cüdoçuları aktivlərinə daha 4 medal yazdırıblar.**

Vise şəhərində baş tutan kişilərin mübarizəsində Yaşar Nəcəfov (66 kq) tatamiyə çıxdığı bütün görüşlərdən qalib ayrılaraq qızıl medal əldə edib. Eyni çəki dərəcəsində Tofiq Məmmədov (66 kq) bürünc mükafata layiq görülüb. Cəsur İbadlı (81 kq) da üçüncü yeri tutub. Herstal şəhərində təşkil olunan qadınların yarışında isə Gültac Məmmədəliyeva (52 kq) bürünc medala yiyələnib.

Beləliklə, Azərbaycan millisi turniri 3 qızıl, 2 gümüş və 6 bürünc olmaqla, ümumilikdə, 11 medalla başa vurub.

Qeyd edək ki, ilk yarış günündə Murad Muradlı (60 kq), Camal Feyziyev (+100 kq) qızıl, Əbil Yusubov (73 kq), Zelim Tçkayev (90 kq) gümüş, Fərid Qarayev (60 kq), Kamran Süleymanov (73 kq) və Ramazan Əhmədov (+100 kq) bürünc medal qazanmışdı.

***Qabil YUSİFOĞLU***
***XQ***

*✓ 2025-ci il aprelin 17-də Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən Səfquliyev Qalib Nurəddin oğlunun adına verilmiş 1039212 A nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

*Təbiət və biz*



# Qış sınaqlı, bahar müjdəli kiçik çillə

**Qış təkcə soyuq hava, çovğun və şaxta demək deyil. Qış xalq yaddaşında zamanın sınağı, təbiətlə insanın səbir yarışıdır. Bu sınağın ən maraqlı mərhələlərindən biri də kiçik çillədir. Böyük çillənin sərt və amansız günlərindən sonra gələn kiçik çillə, sanki, qışın öz gücünü bir daha sınamaq istədiyi, amma artıq yorulduğu bir dövrdür. Bu çillə nə qədər soyuq olsa da, içində gizli bir nəzarət, bahar nəfəsi duyulur.**

Xalq təqviminə görə, qış fəsli 3 hissəyə bölünür: Böyük çillə 40 gün, kiçik çillə 20 gün çəkir. Onlardan sonra Novruz bayramınadək qalan 30 gün boz ay adlanır. Bu təqvimlə dekabrın 21-dən yanvarın 31-dək böyük çillə, yanvarın 31-dən fevralın 21-dək kiçik çillə, fevralın 21-dən martın 21-dək Boz ay davam edir.

Adətən böyük çillədən fərqli olaraq, Kiçik çillə dövründə daha kəskin soyuqlar müşahidə edilir, sərt şaxtalar olur. Eyni zamanda, qar yağır.

Ona görə də kiçik çilləyə "qışın oğlan çağı" da deyirlər.

Azərbaycanın bəzi bölgələrində Böyük çillədən kiçik çilləyə keçəndə müəyyən mərasimlər təşkil olunur.

Kiçik çillənin birinci ongünlüyündə Xıdır Nəbi bayramı keçirilir, qovurğa qovrulur, hədik və digər yeməklər bişirilir. "çillə" sözü - ağrı, acı, çətinlik, məşəqqət, sıxıntı mənasını ifadə edir. Çillədən çıxmaq ağrıdan, acıdan çıxmaq deməkdir. Kiçik çillə böyük çillədən fərqli olaraq çətin dönəm kimi anlaşılır. Xalq arasında belə bir deyim var: "böyük çillə yerə sancar, kiçik çillə sümüyə işləyər." Bu ifadə təkcə havanın soyuqluğunu yox, həm də həyatın çətinliklərini, dözümlülüyü simvolizə edir.

Xalq inanclarına görə, kiçik çillə böyük çillədən fərqli olaraq, daha hiyləgərdir. Bir gün günəş üzünü göstərər, ertəsi gün şaxta yenidən hökmünü sürər. El arasında "kiçik çillə aldatdı" deyimi də məhz bu dəyişkən xarakterdən yaranıb. Təbiətin bu qeyri-sabit davranışı kənd təsərrüfatı ilə məşğul olan insanlar üçün həmişə diqqət mərkəzində olub. Çünki kiçik çillənin hər günü torpaqla bağlı qərarların, səbrin və müşahidənin sınağı sayılıb.

"Çillə çıxmamış bahara bel bağlama" deyimi bu gün də aktuallığını qoruyur. Bu, xalqın təbiətlə apardığı uzunmüddətli müşahidələrin nəticəsi olan bir həyat dərsidir.

Qeyd etdiyimiz kimi, kiçik çillə dövrü xalqın məişətində, adət-ənənələrində də öz əksini tapıb. Keçmişdə bu günlərdə insanlar daha çox ev işləri ilə məşğul olar, ailə süfrələri ətrafında toplaşar, nağıl və dastanlara qulaq asardılar. Qış gecələri sözün, yaddaşın və birliyin qorunduğu zaman idi. Bu baxımdan, kiçik çillə həm də milli-mənəvi dəyərlərin ötürüldüyü mühüm bir mərhələ sayılır.

Bu gün müasir həyat tərzi, texnologiyanın inkişafı, şəhər həyatının sürəti bizi təbiət ritmlərindən bir qədər uzaq salsa da, kiçik çillə anlayışı hələ də xalq düşüncəsində yaşayır. Çünki bu anlayış sadəcə hava hadisəsi deyil, həyat fəlsəfəsidir. Səbir etməyi, gözləməyi, zamanın hökmünə hörmətlə yanaşmağı öyrədir.

Kiçik çillə bizə xatırladır ki, qış nə qədər sərt olsa da, bahar mütləq gəlir. Əsas olan bu keçid dövrünü anlayışla, səbirlə və ümidlə qarşılamaqdır. Təbiətin bu sükutlu, soyuq, amma mənalı günləri insanı özü ilə baş-başa qoyur, onu düşünməyə vadar edir. Kiçik çillə – qışın son sınağı, baharın isə ilk vədi kimi yaddaşımıza həkk olunur. Və bu vəd xalqın minillik yaddaşında hələ uzun illər yaşayacaq.

AMEA-nın Şamaxı Astrofizika Rəsədxanasının məlumatına görə, Azərbaycana bu il yaz fəsli martın 20-də yerli vaxtla saat 13:37-yə təsadüf edəcək. Həmin gün gecə ilə gündüz bərabərləşir. Günəş ekliptika üzrə hərəkət edərək ekvatoru kəsməklə cənub yarımkürəsindən şimal yarım kürəsinə keçir və həmin andan Şimal yarımkürəsində yaz fəsli başlayır.

Yer oxunun ekvator müstəvisinə meyilliliyi gecə və gündüzün qeyri-bərabər olmasına, fəsillərin yaranmasına səbəb olub. Yerin Günəş ətrafında hərəkəti ilə bağlı olaraq illər, fəsillər əmələ gəlir. İstilik, işıqlanma və iqlim qurşaqları yaranır. Canlıların həyatında böyük dəyişikliklər baş verir.

Bu il ilk çərşənbə fevralın 23-də - Su çərşənbəsi, martın 2-də Od, martın 9-da Hava (Yel), martın 16-da isə axırıncı - Torpaq çərşənbəsi qeyd olunacaq.

***N.ADİLQIZI***
***XQ***

## "Finex Kredit" BOKT ASC səhmdarlarının nəzərinə!

6 mart 2026-cı il saat 11.00-da Bakı şəhəri, Nərimanov rayonu, Z.Bünyadov prospekti, 1965-ci məhəllə, "Çinar Park" Biznes Mərkəzi, bina 1, ofis 413 nömrəli ünvanda "Finex Kredit" BOKT ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Nizamnaməyə dəyişiklik edilməsi barədə müzakirə.

**2.** Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələlərlə bağlı sənədlərlə hər həftənin çərşənbə axşamı günləri saat 12.00-dək tanış ola bilərlər.

**E-mail – info@finexkredit.az**

**Ünvan – Bakı şəhəri, Nərimanov rayonu, Z.Bünyadov prospekti, 1965-ci məhəllə, "Çinar Park" Biznes Mərkəzi, bina 1, ofis 413.**

## HAVA

### Duman, gəl-get bu dağlardan...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim cənub-qərb küləyi axşam arabir güclənən şimal-qərb küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 4-7, gündüz 8-12 dərəcə isti olacaq. Atmosfer təzyiqi 757 millimetr civə sütunundan 754 millimetr civə sütununa enəcək. Nisbi rütubət 75-85 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gecə və axşam bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi yerlərdə ara-



bir duman müşahidə ediləcək. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 3-7, gündüz 13-18, dağlarda gecə 0-5, gündüz 8-13 dərəcə isti olacaq.

***Q.ƏLİYEV***
***XQ***

# AMEA gəncləri ənənələri yaşadırlar



**AMEA-nın Rəyasət Heyətində 2 Fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş "Gənc Alim və Mütəxəssislər Şurasından Gənclər Akademiyasına" mövzusunda görüş keçirilib.**

Məclisi giriş nitqi ilə açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli bildirib ki, hər il fevralın əvvəlində ölkəmizdə gənclərin adı ilə bağlı təntənəli mərasimlər keçirilməsi onlara dövlət miqyasında göstərilən böyük diqqət və ehtiramın ifadəsi olmaqla yanaşı, həm də Azərbaycanın sasbahına sahiblik edəcək nəslin zaman qarşısında hesabatı, dövlətçilik ideallarına sədaqətinin gündəmə gətirilməsidir. Akademik qeyd edib ki, bu münasibət gəncliyin dünyagörüşünü, yaradıcılıq düşüncələrini inkişaf etdirir, eyni zamanda, yeni istedadlı kadrların fəaliyyətinə meydan açır.

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin həm birinci, həm də ikinci dövründə gənclərə xüsusi diqqət və qayğı ilə yanaşdığını, xüsusən müstəqil ölkəmizdə yeni tipli gənclər hərəkatının əsasını qoymaqla onların geniş quruculuq prosesinə yönləndirildiyini xatırladan AMEA rəhbəri qeyd edib ki, bu siyasəti son 23 ildə Prezident İlham Əliyev uğurla davam etdirir. Prezident fərmanı ilə təsis edilmiş Gənclər üçün Prezident Mükafatı ölkəmizdə istedadlı və fəal gənclərə gənclərə göstərilən dövlət qayğısının parlaq nümunəsidir.

Bildirilib ki, dövlətimizin gənclər siyasətinə uyğun olaraq, AMEA-da da intellektual gəncliyin inkişafı üçün zəruri addımlar atılır. Onların elmi işlərini erkən müdafiə etməsi, rəhbər vəzifələrə irəli çəkilməsi təmin edilir. 20-yə yaxın ölkənin təcrübəsindən istifadə etməklə Gənc Alim və Mütəxəssislər Şurasının bazasında Gənclər Akademiyasının təsis edilib.

Gənclər Akademiyasının təşkilatçılığı ilə bu gün ilk konfransın keçirildiyini deyən akademik İsa Həbibbəyli Akademiya gəncliyini təbrik edib, onlara elmi və ictimai fəaliyyətlərində uğurlar arzulayıb.

Gənclər Akademiyasının sədri, dosent Elmir Babayev, AMEA-nın Rəyasət Heyəti aparatının elm və təhsil şöbəsinin müdiri, filologiya elmləri doktoru Sərxan Xavəri, Arxeologiya və Antropologiya İnstitutunun elmi işçisi Mircavid Ağalarov, Ədəbiyyat İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri, fəlsəfə doktoru Şəbnəm Mirzəzadə, AMEA Gəncə Bölməsi Diyarşünaslıq İnstitutunun elmi işçisi Yasin Alməmmədov və Naxçıvan böyük laborantı Ülviyyə Aslanova çıxış edərək ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan, elmi, intellektual gəncliyin inkişafı istiqamətində AMEA-da həyata keçirilən islahatlardan danışıblar.

Çıxışlardan sonra bir qrup gənc alim və mütəxəssis 2 Fevral – Azərbaycan Gəncləri Günü münasibətilə AMEA-nın diplomları ilə təltif olunublar.

***Qabil YUSİFOĞLU***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN!

Sabir və Tənzilə Rüstəmxanlılar Milli Məclisin sədri Sahibə Qafarovaya qardaşı

**QALİB BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Arxiv İdarəsinin rəhbərliyi və kollektivi Milli Məclisin sədri Sahibə Qafarovaya qardaşı

**QALİB BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Rüfət Əzizov və universitetin kollektivi Milli Məclisin sədri Sahibə Qafarovaya qardaşı

**QALİB BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev və universitetin professor-müəllim heyəti Milli Məclisin sədri Sahibə Qafarovaya qardaşı

**QALİB BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlıq və İnşaat Universiteti sənayenin təşkili və idarə edilməsi kafedrasının professor-müəllim heyəti professor Ədalət Əliyevə oğlu

**ELÇİN ƏLİYEVİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev və universitetin kollektivi Milli Məclisin sədri Sahibə Qafarovaya qardaşı

**QALİB BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlıq və İnşaat Universiteti iqtisadi nəzəriyyə və marketinq kafedrasının əməkdaşları iş yoldaşları, professor Ədalət Əliyevə oğlu

**ELÇİN ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2890
SİFARİŞ 155
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI
Çapa imzalanmışdır 00:00